**AZƏRBAYCAN RESPUBLİKASI** **BIRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI**

# AZƏRBAYCAN – 2030: MİNİLLİYİN İNKİŞAF MƏQSƏDLƏRİNDƏN DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİNƏ DOĞRU




**Azərbaycan Respublikasının "Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi"nin icrası ilə əlaqədar ilkin addımları haqqında**

**KÖNÜLLÜ HESABAT**

**Dayanıqlı İnkişaf üzrə Yüksək Səviyyəli Siyasi Foruma təqdim etmək üçün hazırlanmışdır**

**BAKI - 2017**

## AKRONİMLƏR VƏ İXTİSARLAR

| | |
|---|---|
| **“2030 Gündəliyi”** | BMT-nin 2015-ci ilin 25–27 sentyabr tarixlərində keçirilmiş “Dayanıqlı İnkişaf Sammiti”ndə qəbul olunmuş “Dünyamızın transformasiyası: 2030-cu islədək dayanıqlı inkişaf Gündəliyi” |
| **AQUPDK** | Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi |
| **BƏT** | Beynəlxalq Əmək Təşkilatı (ILO) |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı (UN) |
| **BMTƏF** | BMT-nin Əhali Fondu (UNFPA) |
| **BMTİP** | BMT-nin İnkişaf Proqramı (UNDP) |
| **BMTUF** | BMT-nin Uşaq Fondu (UNICEF) |
| **DB** | Dünya Bankı (WB) |
| **DİM** | Dayanıqlı İnkişaf Məqsədi |
| **DİMƏŞ** | Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası |
| **DSK** | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi |
| **ETBST** | Ev təsərrüfatları büdcələrinin seçmə tədqiqatı |
| **ETSN** | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| **ƏƏSMN** | Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| **ƏİFM** | Əhalinin İqtisadi Fəallığının Müayinəsi |
| **İİB** | İslam İnkişaf Bankı |
| **İƏT** | İqtisadi Əməkdaşlıq Təşkilatı |
| **İsƏT** | İslam Əməkdaşlıq Təşkilatı |
| **İKT** | İnformasiya-kommunikasiya texnologiyaları |
| **İN** | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi |
| **KOS** | Kiçik və Orta Sahibkarlıq |
| **QHT** | Qeyri-hökumət Təşkilatı |
| **QİÇS** | Qazanılmış İmmun Çatışmazlığı Sindromu |
| **QİX** | Qeyri-infeksion xəstəliklər |
| **QMKİDK** | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi |
| **KTİBF** | Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond (IFAD) |
| **KTN** | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi |
| **MB** | Azərbaycan Respublikasının Mərkəzi Bankı |
| **MİM** | Minilliyin İnkişaf Məqsədi |
| **MdTN** | Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi |
| **MN** | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi |
| **NK** | Azərbaycan Respublikasının Nazirlər Kabineti |
| **SKMF** | Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu |
| **SN** | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi |
| **TN** | Azərbaycan Respublikasının Təhsil Nazirliyi |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **ÜDSY** | Ünvanlı Dövlət Sosial Yardım |
| **ÜST** | Ümumdünya Səhiyyə Təşkilatı |
| **ÜTT** | Ümumdünya Ticarət Təşkilatı |
| **VN** | Azərbaycan Respublikasının Vergilər Nazirliyi |
| **YAİİDP** | 2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı |
| **YADİDP** | 2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı |

**MÜNDƏRİCAT**


ÖN SÖZ ........................................................................................................ 4

XÜLASƏ ........................................................................................................ 6

1. GİRİŞ ........................................................................................................ 9

2. HESABATIN HAZIRLANMASI METODOLOGİYASI VƏ PROSESİ .................. 11

3. MİNİLLİYİN İNKİŞAF MƏQSƏDLƏRİ ÜZRƏ ƏLDƏ OLUNMUŞ NAİLİYYƏTLƏR ........................................ 13

4. AZƏRBAYCAN RESPUBLİKASININ İNKİŞAF GÜNDƏLİYİNDƏ DAYANIQLI İNKİŞAF MƏSƏLƏLƏRİ ........................................ 17

4.1. Başlanğıc vəziyyət və ilkin şərtlər ........................................ 17

4.2. Davamlı inkişaf modelinə keçidin təşviqi üzrə siyasət tədbirləri .......... 27

4.3. Ölkənin inkişaf perspektivlərinə uzunmüddətli baxışda dayanıqlı inkişaf məsələlərinin yeri ........................................ 30

5. DİM-lərə NAİL OLUNMASI ÜZRƏ HƏYATA KEÇİRİLƏN SİYASƏT TƏDBİRLƏRİ VƏ YARADILAN ƏLVERİŞLİ MÜHİT ........................................ 33

5.1. Dayanıqlı İnkişaf Məqsədləri, hədəfləri və göstəricilərinin milliləşdirilməsi və milli inkişaf gündəliyinə daxil edilməsi .......................... 33

5.2. İnstitusional mexanizmlər ........................................ 37

5.3. İcra vasitələri və resursları ........................................ 39

5.4. Sahiblik, iştirakçılıq və ictimai maarifləndirmə ........................................ 40

5.5. Monitorinq, qiymətləndirmə və hesabatlılıq ........................................ 41

6. TEMATİK MÖVZUYA UYĞUN MƏQSƏDLƏR ÜZRƏ GÖRÜLMÜŞ İŞLƏR VƏ ƏLDƏ OLUNMUŞ NAİLİYYƏTLƏR ........................................ 44

7. DAYANIQLI İNKİŞAF ÜÇÜN QLOBAL TƏRƏFDAŞLIQDA İŞTİRAK .............. 75

8. GƏLƏCƏK ADDIMLAR ........................................ 83

9. NƏTİCƏLƏR ........................................ 84

10. İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏR ........................................ 86

## ÖN SÖZ

Dünya dəyişir, yeni bir gələcəyə doğru gedirik. Elmi-texniki tərəqqinin və qloballaşmanın intensivləşməsi və cəmiyyət həyatının bütün sahələrində inqilabi dəyişikliklərə səbəb olması müşahidə olunur. Bu gedişat obyektiv xarakter daşıyır və bizim buna hazır olub-olmamağımızdan asılı deyildir. Dünənə qədər fantastika hesab etdiklərimiz gerçəkliyə çevrilir və bu proses getdikcə daha da sürətlənir. Təbii ki, dünyada baş verən hər bir dəyişiklik, o cümlədən meydana gələn hər bir yenilik özü ilə bərabər yeni çağırışlar da doğurur. Nəticədə qlobal imkanlarla yanaşı, çağırışlar da artır. Belə şəraitdə insanlar, ölkələr, hökumətlər və beynəlxalq təsisatlar zamanın çağırışlarına vaxtında cavab vermək və yaranan yeni imkanlardan yararlanmaqla dünyamızı daha da inkişaf etdirmək üçün birgə fəaliyyətə məcburdurlar.

Belə bir məntiqdən çıxış edərək, Azərbaycan beynəlxalq ictimaiyyətin, o cümlədən BMT-nin qlobal inkişafla bağlı təşəbbüslərində yaxından iştirak edir. Bu iştirak ən yaxşı praktiki və innovativ ideyalarla tanış olmaq və onları paylaşmaq baxımından mühüm əhəmiyyət kəsb edir və son 15 ildə Azərbaycanda Minilliyin İnkişafı Məqsədlərinin (MİM-lər) müvəffəqiyyətlə həyata keçirilməsini asanlaşdıran vacib məqamlardan biri olmuşdur.

2000-ci ildə Minilliyin Bəyannaməsinə qoşulmuş ölkəmizdə MİM-lərə nail olunması məqsədilə kompleks tədbirləri əhatə edən “2003–2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı” (YAİİDP), “2008–2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı” (YADİDP) və bir sıra digər dəstəkləyici proqramlar və siyasət sənədləri qəbul edilmiş və uğurla icra olunmuşdur. Nəticədə Azərbaycan MİM-lər üzrə bir çox hədəflər, xüsusilə yoxsulluğun azaldılması, təhsil səviyyəsinin yüksəldilməsi, gender bərabərliyi və ətraf mühitin qorunması sahəsində vəziyyətin yaxşılaşdırılması, uşaq və ana ölümü hallarının azaldılması, təhlükəli yoluxucu və digər xəstəliklərə qarşı mübarizənin gücləndirilməsi və tərəqqi naminə qlobal tərəfdaşlıqda iştirakın genişləndirilməsi üzrə mühüm nailiyyətlər əldə etmişdir. Ən mühüm nəticə kimi, ölkədə ifrat yoxsulluğun ləğv edilməsi və 2001-ci ildə 49% təşkil edən mütləq yoxsulluq səviyyəsinin 2015-ci ildə 4,9%-ə qədər azaldılmasını göstərmək olar.

Hazırda ölkənin inkişaf strategiyasında qeyri-neft sektorunun dinamik və dayanıqlı inkişafının təmin olunması başlıca yer tutur. Ölkə rəhbərinin "qara qızılın insan kapitalına" çevrilməsi ideyası artıq reallığa çevrilir. Bu dövrdə bir sıra irimiqyaslı sosial-iqtisadi layihələrin gerçəkləşməsi, yeni iş yerlərinin yaradılması, müasir infrastrukturun formalaşdırılması, yüksək texnologiyaya əsaslanan müəssisələrin fəaliyyətə başlaması, sahibkarlığın dəstəklənməsi, biznes mühitinin yaxşılaşdırılması ilə əlaqədar görülən işlər və ölkəmizin iri transmilli layihələrin təşəbbüskarı və əsas iştirakçısı kimi çıxış etməsi onun inkişafını sürətləndirmiş və dünyada nüfuzunu daha da artırmışdır.

Ölkəmiz BMT-nin üzvü olan dövlətlərin 2015-ci ilin 25–27 sentyabr tarixlərində keçirilmiş BMT-nin Dayanıqlı İnkişaf Sammitində təsdiqlənmiş və rəsmi olaraq 2016-cı ilin yanvarında qüvvəyə minmiş Dayanıqlı İnkişaf Məqsədləri (DİM-lər) adlanan 17 məqsədi və bu məqsədlərə müvafiq olaraq müəyyən edilmiş 169 hədəfi özündə birləşdirən “Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf Gündəliyi” (“2030 Gündəliyi”) razılaşmasına da qoşulmuşdur.

Qarşıya qoyulmuş məqsəd və hədəflər dayanıqlı inkişafın iqtisadi, sosial və ekoloji aspektlərini əhatə etməklə, MİM-lər üzrə əldə olunmuş nailiyyətlərə əsaslanır və 2030-cu ilə qədər olan dövr üçün dünyanın qlobal inkişaf istiqamətlərini müəyyənləşdirir. DİM-lər “universallıq”, “inteqrasiyalı yanaşma” və “heç kimi geridə buraxmamaq” kimi prinsiplərə əsaslandığından, insanların xoşbəxtliyinə və sülhə xidmət etdiyindən, onların həyata keçirilməsi üzrə fəaliyyətlərin hər bir ölkədə iqtisadiyyatın dinamik inkişafını, sosial və ekoloji problemlərin etibarlı həllini təmin etməklə əhalinin rifahını daha da yaxşılaşdıracağı gözlənilir.

DİM-lərin icrasının institusional və siyasi baxımdan kompleks yanaşma tələb etdiyini nəzərə alaraq, Azərbaycanda da dayanıqlı, əhatəli və şaxələndirilmiş iqtisadiyyatın inkişaf etdirilməsi, sosial sahələrin tarazlı inkişafının təmin edilməsi və ekoloji tarazlığın daha etibarlı qorunması üçün səmərəli milli icra mexanizminin formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Qeyd olunanlar nəzərə alınaraq "2030 Gündəliyi"ndən irəli gələn öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2016-cı il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası (DİMƏŞ) yaradılmışdır.

Azərbaycan üçün əhəmiyyət kəsb edən, qlobal məqsəd və hədəflərə uyğun milli prioritetlərin və onlara dair göstəricilərin müəyyən edilməsi, ölkədə sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramları və strategiyalarının DİM-lərlə uzlaşdırılmasının təmin edilməsi, eyni zamanda, ölkə rəhbərliyi və Yüksək Səviyyəli Siyasi Forum üçün DİM-lərə nail olunması ilə əlaqədar ölkə hesabatlarının hazırlanaraq təqdim olunması Şuranın əsas vəzifələri kimi müəyyən olunmuşdur.

Ötən müddət ərzində Milli Əlaqələndirmə Şurasının Katibliyi yaradılmış, iqtisadi inkişaf və layiqli məşğulluq, sosial, ekoloji məsələlər, monitorinq və qiymətləndirmə sahələri üzrə 4 işçi qrupu fomalaşdırılmış və digər hazırlıq işləri görülmüşdür.

Bu gün Azərbaycan DİM-lərə nail olunması ilə əlaqədar ölkədə görülən işlər haqqında ilk Könüllü Milli Hesabatını təqdim edir. "2030 Gündəliyi" dünyada insanların qarşılaşdığı problemləri tanıdır və onların birlikdə həllinə çağırır. Bu baxımdan, DİM-lər Azərbaycanda da xüsusi rəğbət doğurur. Azərbaycan dünyada və yerləşdiyi regionda mövcud olan münaqişələrə, yoxsulluq, ətraf mühitin deqradasiyası və cinayətkarlıq kimi bir çox problemlərə rəğmən, sülhə və layiqli həyata nail olmaq istiqamətində inamlı addımlar atır və DİM-lər üzrə qoyulmuş hədəflərə nail olmaq əzmindədir.

Ermənistan tərəfindən Azərbaycanın Dağlıq Qarabağ regionunun və onun ətraf rayonlarının işğalı və onun doğurduğu nəticələr uzun müddətdir ölkənin əsas problemi kimi qalır. Bu münaqişə nəticəsində Azərbaycan böyük humanitar böhrana məruz qalmışdır, bir milyondan çox azərbaycanlı Ermənistandan və Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlarından öz daimi yaşayış yerlərindən didərgin salınaraq qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdürlər. İşğal olunmuş ərazilərin qeyd-şərtsiz azad olunması haqqında BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul olunmuş 4 qətnaməsinin (822, 853, 874 və 884 saylı) və digər beynəlxalq təşkilatların müvafiq qərarlarının olmasına və Azərbaycanın bu qərarlara güvənərək məsələnin sülh yolu ilə həllinə inanaraq 23 ildə atəşkəs rejiminə əməl etməsinə baxmayaraq, hələ də heç bir siyasi həllə və sülh sazişinə nail olunmamışdır. 1 milyondan çox insan öz daimi yaşayış yerlərinə qayıtmaq və orada təhlükəsiz və ləyaqətlə yaşamaq hüququndan hələ də məhrumdurlar. DİM-lər çərçivəsində qəbul etdiyimiz "heç kimi geridə buraxmamaq" prinsipinin reallıqda təsdiqini tapması naminə bizim üçün böyük əhəmiyyət kəsb edən bu məsələnin həllində beynəlxalq tərəfdaşların qəti mövqe sərgiləməsini gözləyirik.

Bununla yanaşı, ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişafının və şaxələndirilməsinin sürətləndirilməsi, ixrac potensialının gücləndirilməsi və ixracın artırılması, səhiyyə və sosial xidmətlərin effektivliyinin yüksəldilməsi, ekoloji təhlükəsizliyin möhkəmləndirilməsi kimi istiqamətlərdə də səylərimizi artırmağa ehtiyac duyulur. Ümid edirik ki, bu istiqamətlər üzrə fəaliyyətimizi də beynəlxalq tərəfdaşlar dəstəkləyəcəkdir.

Ümumiyyətlə, biz hesab edirik ki, DİM-lər dövlət orqanları, vətəndaş cəmiyyəti institutları, biznes nümayəndələri, elm və təhsil qurumları, KİV-lər və inkişafa dəstək verən beynəlxalq təşkilatların birlikdə işləmələri üçün əlverişli platformadır. Bu sahədə BMT qurumlarının təşəbbüsləri, istiqamətverici və dəstəkləyici fəaliyyətləri xüsusi qeyd olunmalıdır. Biz əminik ki, belə əməkdaşlıq davamlı olacaq və DİM-lərə nail olunmasında əhəmiyyətli rol oynayacaqdır.

## XÜLASƏ

Bu hesabat DİM-lərə nail olmaq üçün Azərbaycan Respublikasında mövcud olan ilkin şərtləri və görülən işləri, o cümlədən MİM-lər üzrə əldə olunmuş nailiyyətləri, dayanıqlı inkişaf məsələlərinin ölkənin inkişaf gündəliyi ilə uyğunluğunu, bu sahədə əsas çağırışları, mövcud çətinlikləri və gələcək addımları əks etdirir.

Azərbaycan Respublikası da, BMT-nin üzvü olan 193 ölkə ilə birlikdə, 2015-ci ilin 25-27 sentyabr tarixlərində Nyu-Yorkda keçirilən Dayanıqlı İnkişaf Sammitində 2016-2030-cu illər üçün təsdiqlənmiş "Dayanıqlı İnkişaf Gündəliyi"nə və burada nəzərdə tutulmuş DİM-lər üzrə hədəflərə nail olma prosesinə qoşulmuşdur. Müəyyən zaman çərçivəsi qoyulması və konkret nəticələrə yönəlmə yanaşmasının tətbiqi DİM-lərin dünyada inkişafa təkan verəcəyinə inam yaradır. Belə ki, qlobal DİM-lərin yerli şəraitə uyğunlaşdırılaraq milli hökumətlərin müvafiq istiqamətlərdə siyasətləri ilə əlaqələndirilərək, dünyada milyardlarla insanın yaşayış səviyyəsini dəyişməyə xidmət edəcəyi gözlənilir. Diqqəti məhdud sayda ölçülə bilən hədəflərə yönəltməklə DİM-lər beynəlxalq yardımı artırmağa və onu daha səmərəli şəkildə yönəltməyə, qlobal və milli prioritetləri əlaqələndirməyə, fəaliyyəti bu prioritetlərə səfərbər etməyə və beləliklə də, əhəmiyyətli nəticələrə nail olmağa kömək edəcəkdir.

Müvafiq istiqamətlərdə aparılmış təhlillər göstərir ki, ötən dövr ərzində Azərbaycan Respublikasında MİM-lərə nail olmaq istiqamətində uğurlu siyasət həyata keçirilmişdir. Bu özünü "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" (YAİİDP), "2008-2015-ci illərdə yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" (YADİDP) və ölkənin regionlarının, Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı ilə əlaqədar geniş əhatəli dövlət proqramları və MİM-lərlə əlaqədar ayrı-ayrı məsələlər üzrə sahəvi dövlət proqramları kimi konkret məqsədli siyasət sənədlərinin qəbulu və icra olunmasında, həmçinin müvafiq istiqamətlərdə zəruri islahatların aparılmasında, qanunvericilik bazası (Yaşayış minimumu, Ünvanlı dövlət sosial yardımı, Sosial müavinətlər, Əmək pensiyaları və bu kimi digər məsələlər haqqında Azərbaycan Respublikasının qanunları, eləcə də, əlaqədar normativ hüquqi sənədlər qəbul edilmişdir) və institusional mexanizmlərin formalaşdırılmasında özünü göstərir.

Bunun nəticəsidir ki, DSK-nın məlumatlarına görə, 2001-2015-ci illər ərzində ölkədə 1996-cı ildə əldə olunmuş makroiqtisadi sabitlik daha da möhkəmləndirilərək, 1997-ci ildən başlanmış dinamik sosial-iqtisadi inkişafın davamlılığının təmin edilməsi (son 15 il ərzində ölkədə ÜDM real ifadədə 4,5 dəfə və ya hər il orta hesabla 10,6%, əhalinin hər nəfərinə düşən ÜDM real ifadədə 3,8 dəfə, qeyri-neft ÜDM real ifadədə 4,0 dəfə və investisiya qoyuluşları 12,4 dəfə artmış, qeyri-neft sektorunun inkişafı vasitəsilə yeni iş yerlərinin yaradılması və əhalinin gəlir əldə etmə imkanları genişlənmiş, işsizlik səviyyəsi 5,9 faiz bəndi azalaraq 10,9%-dən 5%-ə düşmüş, inflyasiyanın aşağı səviyyədə saxlanılması təmin olunmuş (2015-ci ilin yekununa görə 4,0% olmuş), minimum sosial standartların səviyyəsi və əhalinin gəlirləri dəfələrlə yüksəlmiş və s.) MİM-lər üzrə də müəyyən olunmuş əsas hədəflərin çoxuna vaxtından əvvəl nail olunmasına imkan vermişdir. Belə ki, müvafiq monitorinq göstəriciləri üzrə toplanmış məlumatların [2, s. 735-756] təhlili və qiymətləndirilməsi göstərir ki, 2000-2015-ci illər ərzində ölkədə ifrat yoxsulluq aradan qalxmış (dövrün əvvəlində ifrat yoxsulluq səviyyəsi 10,0% ətrafında idisə, 2007-ci ildə 0,1%-ə düşmüşdür), mütləq yoxsulluq səviyyəsi 49,0%-dən 4,9% səviyyəsinə enmiş, təhsilin ibtidai, ümumi orta və tam orta səviyyələrində qeydiyyat əmsalı 99,8-100%-ə çatmış, gender bərabərliyinin inkişafı və qadınların səlahiyyətlərinin genişləndirilməsi üzrə nəzərəçarpacaq irəliləyiş əldə olunmuş, hər 1000 diri doğulana düşən 5 yaşınadək uşaqlar arasında ölüm hallarının sayı 30,5-dən 13,3-ə düşmüş, körpə və ana ölümü xeyli azalmış, yoluxucu və digər xəstəliklərə qarşı mübarizə güclənmiş, malyariya xəstəliyinin qarşısı tam alınmış, ilk

dəfə vərəm və digər xəstəliklərə tutulanlar və bu xəstəliklərdən ölüm hallarının sayı ilbəil azalmış, ətraf mühitin davamlılığının təmin edilməsi və inkişaf naminə beynəlxalq tərəfdaşlığın inkişafı sahəsində əhəmiyyətli irəliləyişlərə nail olunmuşdur.

Bu barədə FAO-nun baş direktoru Jose Qratsiano Da Silvanın dəyərləndirməsi diqqətəlayiqdir. O, Azərbaycanın MİM-lər çərçivəsində yoxsulluğun yarıya qədər azaldılması öhdəliyini götürən 128 ölkə arasında bu öhdəliyi yerinə yetirən 18 ölkədən biri olmaqla yanaşı, dünyada yoxsulluğun 5%-dən aşağı endirilməsinə nail olan 29 ölkə sırasında yer almasının böyük uğur olduğunu vurğulamışdır [11].

Qazanılmış nailiyyətlərin davam etdirilməsi məqsədi ilə Azərbaycan hökuməti tərəfindən vaxtaşırı məqsədyönlü addımlar atılır, əhəmiyyətli siyasət sənədləri qəbul edilir və icra olunur. DİM-lərə uyğunluğu baxımından aşağıdakı sənədlər mühüm əhəmiyyət kəsb edir:

- "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Konsepsiyanın əsas prioritetlərinə aşağıdakılar daxildir: Yüksək rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşdırılması; İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı və informasiya cəmiyyətinə keçidin təmin edilməsi; İnsan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması ; qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi; vətəndaş cəmiyyətinin inkişafı; mədəni irsin qorunması və səmərəli idarə edilməsi; Ətraf mühitin qorunması və ekoloji tarazlığın təmin olunması [1].
- Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 06 dekabr 2016-cı il tarixli Fərmanına müvafiq olaraq təsdiq edilmiş Milli iqtisadiyyat və iqtisadiyyatın 11 prioritet sektorunun (neft və qaz sənayesi (kimya məhsulları daxil olmaqla); kənd təsərrüfatı məhsullarının istehsalı və emalı; kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalı; ağır sənaye və maşınqayırma; ixtisaslaşmış turizm sənayesi; logistika və ticarət; uyğun qiymətə mənzil təminatı; peşə təhsili və təlimi; maliyyə xidmətləri; telekommunikasiya və informasiya texnologiyaları; kommunal xidmətlər (elektrik və istilik enerjisi, su və qaz)) inkişafı üzrə ümumilikdə 12 strateji yol xəritəsi [10].

Bunlarla yanaşı, beynəlxalq tərəfdaşlarla əməkdaşlıqla əlaqədar imzalanmış bir sıra sənədlərdə də dayanıqlı inkişaf məsələlərinə xüsusi yer verilir. Belə sənədlərdən ən ümumisi kimi 12 iyul 2016-cı il tarixində Bakıda imzalanmış "2016-2020-ci illər üçün Birləşmiş Millətlər Təşkilatı (BMT)-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) sənədini xüsusi qeyd etmək olar. UNAPF hazırlanarkən "Azərbaycan-2020: gələcəyə baxış İnkişaf Konsepsiyası"nda qeyd olunmuş milli prioritetlər, 2015-ci ildən sonrakı dövr üçün müəyyənləşdirilən DİM-lər nəzərə alınmışdır. Sənəddə bir-biri ilə əlaqəli olan üç strateji prioritet sahə müəyyən edilmişdir: 1. Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi; 2. İnstitusional potensialın gücləndirilməsi, səmərəli ictimai və sosial xidmətlər; 3. Ətraf mühitin idarə edilməsinin təkmilləşdirilməsi, risk və təbii fəlakətlərə qarşı dayanıqlılığın artırılması [4].

Göründüyü kimi, bu sənədlərdə əks olunan prioritetlər DİM-lər ilə uzlaşır və ölkədə bu prioritetlərin reallaşdırılması məqsədilə aparılan siyasət, həyata keçirilən tədbirlər və digər fəaliyyətlər Azərbaycan Respublikasının bu məqsədlərə də nail olunmasında öncül yer tutaraq dünya birliyinin ümumi işinə layiqli töhfə verəcəyinə zəmin yaradır.

"2030 Gündəliyi" Bəyannaməsini imzalamış digər dövlətlərdə olduğu kimi, Azərbaycanda da DİM-lər üzrə fəaliyyətə onların yerli şəraitə uyğunlaşdırılması ilə ölkə üçün səciyyəvi DİM-lər, o cümlədən baza illəri, hədəflər və monitorinq göstəricilərinin formalaşdırılmasından və bu məqsədlərə nail olmaq üçün zəruri siyasət tədbirlərinin və digər fəaliyyətlərin müəyyənləşdirilməsindən başlanılmışdır.

Hesabatın hazırlanması prosesində DİM-lərin ölkənin inkişaf gündəliyi ilə əlaqələndirilməsi, müvafiq istiqamətlər üzrə siyasətin planlanlaşdırılması və icrası sahəsində aidiyyəti dövlət qurumlarında idarəetmənin effektliliyinin artırılmasına və onlar

arasında əlaqələndirmənin yaxşılaşdırılmasına, bütün səviyyələrdə müvafiq göstəricilər üzrə ölçüləbilən məlumatların əldə edilməsi, təhlili və təsirlərin qiymətləndirilməsi ilə əlaqədar bacarıqların inkişaf etdirilməsinə və potensialın artırılmasına ehtiyac olduğu meydana çıxdı. Bu ehtiyacların qarşılanması məqsədi ilə aidiyyəti hökumət qurumlarının iştirakı ilə birgə işçi qruplar formalaşdırılmışdır.

Digər mühüm bir problem isə bir sıra sahələr üzrə təfərrüatlı göstəricilərin çatışmazlığı olmuşdur. Bu isə ölkədə DİM-lər üzrə əhatəli monitorinq sisteminin yaradılmasını əngəlləyir. Bu məsələnin yaxşı tərəfi isə odur ki, ölkədə milli statistikanın yaxşılaşdırılması vacib olan sahələrini dəqiq müəyyənləşdirməyə yardımçı oldu.

Mövcud boşluqları doldurmaq və hökumətin potensialını gücləndirmək üçün BMT-nin ölkə Nümayəndəliyi ilə əməkdaşlıq əhəmiyyətli rol oynayır. BMT ekspertlərinin və heyətinin çevikliyi və qayğıkeşliyi Hökumətin ölkədə bu hesabatın həsr olunduğu prosesləri əhəmiyyətli dərəcədə inkişaf etdirməsinə kömək olmuşdur.

Qeyd olunanlara əsaslanaraq, DİM-lərə nail olunması prosesində milli hökumətlər, BMT qurumları və digər beynəlxalq inkişaf təşkilatlarının ölkə nümayəndəliklərinin əlaqələndirilmiş və məqsədlər üzrə şaxələndirilmiş birgə fəaliyyətlərinin uğurlu bir təcrübə ola biləcəyi qənaətinə gəlirik.

Ən yaxşı beynəlxalq təcrübə baxımından Azərbaycan DİM-lərin milliləşdirilməsini və onların icrasını sürətləndirmək və izləmək üçün əhatəli əlaqələndirmə prosesinin layihələndirilməsi ilə bağlı müzakirələri məmnunluqla qarşılayır. Maraq doğuran digər bir sahə DİM-lər üzrə hədəflərə nail olmaqda dövlət təsisatları ilə özəl sektor təmsilçiləri, vətəndaş cəmiyyəti institutları,akademik qurumlar və digər maraqlı tərəflərlə səmərəli əməkdaşlıq qurulması və onların imkanlarının da səfərbər olunması ilə əlaqədardır.

Qarşıdakı dövrdə Azərbaycanda gender, yaş qrupları, yaşayış yerləri (kənd/şəhər) sektorlar və regionlar/inzibati rayonlar üzrə ayrılmaqla (dezaqreqasiya olunmaqla) daha təfsilatlı məlumat yaratma və təhlili üzrə potensialın gücləndirilməsinə və DİM-lərin ölkə üçün daha iddialı olan hədəfləri üzrə tərəqqini sürətləndirməyə xidmət edən məqsədli layihələrin hazırlanması və icrası üçün dəstəyə ehtiyac vardır.

***Qeyd:*** *Hesabatda mənbə göstərilmədən verilmiş məlumatlar DSK-ya aiddir. 2016-cı ilə aid statistik məlumatlar isə ilkin məlumatlardır.*

# 1. GİRİŞ

Bu hesabatın hazırlanmasında məqsəd, Azərbaycan Respublikasının uzunmüddətli inkişaf perspektivlərinə baxışda dayanıqlı inkişaf məsələlərinin yerini, o cümlədən ölkədə davamlı inkişaf modelinə keçidi dəstəkləyən siyasət sənədləri və tədbirlərini nəzərdən keçirmək, qlobal DİM-lər, onlar üzrə müəyyənləşdirilmiş hədəf və göstəricilərin milliləşdirilməsi, DİM-lərin milli inkişaf gündəliyinə daxil edilməsi, institusional mexanizmlər, icra vasitələri və resursları, sahiblik, iştirakçılıq və ictimai maarifləndirmə, monitorinq, qiymətləndirmə və hesabatlılıq kimi məsələlər üzrə görülmüş işləri icmallaşdırmaq, DİM-lər üzrə ölkədəki mövcud vəziyyəti səciyyələndirmək, tematik plana uyğun məqsədlər və beynəlxalq tərəfdaşlıqda iştirak üzrə əldə olunmuş nailiyyətləri dəyərləndirmək, yaxşı təcrübələri paylaşmaq, öyrənilmiş dərslər, qarşıya çıxan çətinliklər, dəstəyə ehtiyac duyulan fəaliyyətlər haqqında məlumatları yerli və beynəlxalq tərəfdaşlara çatdırmaqdan ibarətdir.

Hesabat “Ön söz”, “Xülasə”, “Giriş”, 8 əsas fəsil və “İstinad olunmuş mənbələr” daxil olmaqla 12 bölmədən ibarətdir.

***“Ön söz” bölməsində*** “Xülasə”də qeyd edilən əsas məqamlar vurğulanmaqla dayanıqlı inkişafla bağlı hökumətin mövqeyi, görmək istədiyi işlər və perspektivlər haqqında qısa məlumat əks olunur.

***“Xülasə” bölməsində*** hesabatın məzmunundan irəli gələn məsələlər, o cümlədən DİM-lərə nail olmaq üçün Azərbaycan Respublikasında mövcud olan ilkin şərtlər, o cümlədən MİM-lər üzrə əldə olunmuş əsas nailiyyətlər, dayanıqlı inkişaf məsələlərinin ölkənin inkişaf gündəliyi ilə uyğunluğu, “2030 Gündəliyi”nin icrası istiqamətində görülmüş işlər, əldə olunan uğurlar, qarşıda duran çağırışlar, mövcud çətinliklər və gələcək addımlar üzrə qısa icmal verilir.

***“Giriş” bölməsində*** Hesabatın hazırlanmasının məqsədi, onun quruluşu və struktur bölmələrinin məzmunu haqqında məlumat verilir.

***“Hesabatın hazırlanması prosesi və metodologiyası”*** bölməsində hesabat üçün qəbul edilmiş metodologiya, o cümlədən onun əhatə dairəsi, çətinliklər və məhdudiyyətlər müzakirə edilir. Hesabatın hazırlanmasına dair informasiya resursları, o cümlədən hökumət qurumlarınındəstəyi, özəl sektor təmsilçilərinin, akademik qurumların, vətəndaş cəmiyyəti institutlarının, beynəlxalq tərəfdaşların və digər maraqlı tərəflərin iştirak dərəcəsi, mövcud milli hesabatlardan və dövlət sənədlərindən necə istifadə olunduğu və s. bu kimi məsələlər barəsində məlumatlar əks olunur.

***“MİM-lər üzrə əldə olunmuş nailiyyətlər”*** bölməsində ölkədə MİM-lərin milli inkişaf strategiyasına və prioritetlərə uyğunlaşdırılması, bu çərçivədə qəbul olunmuş siyasət sənədləri, MİM-lərə nail olunması üzrə işin təşkili, hər bir MİM üzrə əldə olunmuş əsas nəticələr və qarşıya çıxan çətinliklərin aradan qaldırılması istiqamətində fəaliyyətlər haqqında qısa icmal verilir.

***“Azərbaycan Respublikasının inkişaf gündəliyində dayanıqlı inkişaf məsələləri” bölməsində*** DİM-lərin icrası ilə əlaqədar ölkədəki başlanğıc vəziyyət və ilkin şərtlər, davamlı inkişaf modelinə keçidin təşviqi üzrə həyata keçirilən siyasət tədbirləri, ölkənin inkişaf perspektivlərinə uzunmüddətli baxışda davamlı inkişaf məsələlərinin yeri, o cümlədəndavamlı inkişafın üç ünsürünə inteqrasiyalı yanaşma kimi məsələlər əks olunur.

***“DİM-lərə nail olunması üzrə həyata keçirilən siyasət tədbirləri və yaradılan əlverişli mühit” bölməsində*** qlobal DİM-lər və onlara uyğun müəyyən edilmiş hədəflər və göstəricilərin milliləşdirilməsi, DİM-lərin milli inkişaf gündəliyinə daxil edilməsi, onların həyata keçirilməsi üzrə institusional mexanizmlər, icra vasitələri və resursları, sahiblik, iştirakçılıq və ictimai maarifləndirmə, monitorinq, qiymətləndirmə və hesabatlılıq kimi məsələlər nəzərdən keçirilir.

***“Tematik mövzuya uyğun məqsədlər üzrə görülmüş işlər və əldə olunmuş nailiyyətlər”*** bölməsində Yüksək Səviyyəli Siyası Forumun həmin ildəki işinə uyğun tematik mövzu üzrə prioritet kimi müəyyən olunmuş DİM-lər üzrə görülmüş işlər və irəliləyişlərlə bağlı təhlillər və qiymətləndirmələrin nəticələri şərh olunur.

***“Dayanıqlı inkişaf üçün qlobal tərəfdaşlıqda iştirak”*** bölməsində müvafiq məqsəd üzrə əldə edilmiş nailiyyətlər, bu istiqamətdə hazırda görülən işlər, qarşıya çıxan problemlər, çətinliklər və onların həlli yolları haqqında təkliflər əks olunur.

***“Gələcək addımlar” bölməsində*** “2030 Gündəliyi”nin yerinə yetirilməsi istiqamətində işlərin sürətləndirilməsi və səmərəliliyinin artırılması üçün ölkədə həyata keçirilən və planlaşdırılan tədbirlər haqqında məlumat verilir.

***“Nəticələr” bölməsində*** aparılmış təhlillərin əsas tapıntıları, müvafiq istiqamətdə siyasətə dair tövsiyələr, əldə olunan təcrübələr, qarşıya çıxan çətinliklər və gələcəkdə belə hesabatların hazırlanması üçün ehtiyac duyulan dəstəklər ifadə olunur.

***“İstifadə olunmuş mənbələr” bölməsində*** hesabatın hazırlanması prosesində istifadə olunan ədəbiyyat, hesabat, təlimat, statistik icmallar və s. bu kimi qaynaqlar haqqında istinad məlumatları təqdim olunur.

## 2. HESABATIN HAZIRLANMASI METODOLOGİYASI VƏ PROSESİ

Bu hesabat Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının təşəbbüsü və BMTİP-nin ölkə Nümayəndəliyinin dəstəyi ilə hazırlanmışdır. Hesabatın hazırlanması prosesinə Milli Əlaqələndirmə Şurasının Katibliyi rəhbərlik etmiş, prosesə əlaqədar dövlət qurumlarının nümayəndələrinin birləşdiyi İşçi qruplar, akademik qurumlar, QHT-lər, özəl sektor təmsilçiləri, beynəlxalq tərəfdaşlar və digər maraqlı tərəflər cəlb olunmuşdur. Hesabatın yazılması BMTİP-nin cəlb etdiyi Milli Məsləhətçi (Vaqif Rüstəmov) tərəfindən həyata keçirilmişdir.

***Hesabatın hazırlanması metodologiyası*** BMT Baş Katibinin A/70/684 nömrəli hesabatının əlavəsində təqdim olunan "Yüksək səviyyəli siyasi forum üçün könüllü milli hesabatların hazırlanması üzrə Təlimata dair təklif"ə [12] və DİM-lər üzrə ölkə hesabatlarının hazırlanması üçün BMT-nin əlaqədar qurumlarının və digər beynəlxalq inkişaf təşkilatlarının hazırladığı analoji təlimatlara və istiqamətverici sənədlərə əsaslanır [13; 14]. Qeyd olunan təlimatlara və sənədlərə uyğun olaraq hesabatın quruluşu və struktur bölmələrinin məzmunu aşağıdakı kimi müəyyən olunmuşdur:

- *Ön söz:* Hesabatdan irəli gələn əsas ismarışların və milli səviyyədə "2030 Gündəliyi"nin icrasında qarşıya çıxan çətinliklərin vurğulanması;
- *Xülasə:* prosesin gedişi və hesabatda vurğulanan yaxşı təcrübə, öyrənilmiş dərslər, problemlər və dəstəyə ehtiyac duyulan sahələr üzrə əsas tapıntılar;
- *Giriş:* hesabatın məqsədi, quruluşu və struktur bölmələrinin məzmunu;
- *Hesabatın hazırlanması metodologiyası və prosesi:* Hesabatın əhatə dairəsi, hazırlanması xüsusiyyətləri, istifadə olunan üsullar və informasiya mənbələri, prosesin gedişi və mərhələləri, hökumətin dəstəyi, maraqlı tərəflərin iştirakı, milli platformalar və proseslərlə əlaqələndirmə və qarşıya çıxan çətinliklər r haqqında məlumatlar;
- *MİM-lər üzrə əldə olunmuş nailiyyətlər;*
- *Azərbaycan Respublikasının inkişaf gündəliyində dayanıqlı inkişaf məsələləri:* Başlanğıc vəziyyət və ilkin şərtlər; Davamlı inkişaf modelinə keçidin təşviqi üzrə siyasət tədbirləri; Ölkənin inkişaf perspektivlərinə uzunmüddətli baxışda DİM-lərin yeri;
- *Siyasət tədbirləri və yaradılan əlverişli mühit:* Qlobal DİM-lər, onlara uyğun hədəflər və göstəricilərin milliləşdirilməsi; DİM-lərin milli inkişaf gündəliyinə daxil edilməsi; İnstitusional mexanizmlər; İcra vasitələri və resursları; Monitorinq, qiymətləndirmə və hesabatlılıq.
- *Tematik təhlil:* tematik mövzuya uyğun məqsədlər üzrə görülmüş işlər;
- *Dayanıqlı inkişaf üçün qlobal tərəfdaşlıqda iştirak;*
- *Gələcək addımlar:* icra prosesinin gücləndirilməsi üçün zəruri addımlar;
- *Nəticələr:* Təhlilin, tapıntılar və siyasət tədbirlərinin ümumiləşmiş xülasəsi;
- *İstinadlar;*
- *Əlavələr:* iri statistik və inzibati məlumatlar, cədvəllər, metodoloji izahlar və s.

***Hesabatın hazırlanması prosesi.*** Hesabatın hazırlanması üçün, ilk növbədə, onun planı və hazırlanması metodologiyası işlənilmiş, aidiyyəti üzrə təsdiq olunduqdan sonra, onlara uyğun olaraq, Hesabatın ilkin variantı hazırlanıb tərəfdaşlara paylanmış və birgə müzakirələr təşkil olunmuşdur. Bundan sonra, maraqlı tərəflərdən daxil olan yazılı və müzakirələr zamanı səsləndirilən qeydlər və tövsiyələr nəzərə alınmaqla Hesabatın son variantı hazırlanmış, aidiyyəti üzrə təqdim olunmuş və təsdiq olunduqdan sonra maraqlı tərəflərə paylanmışdır.

Bunun üçün aşağıdakı işlər görülmüşdür: tərəfdaşların köməyi ilə zəruri sənədlər, təlimatlar və məlumatlar, o cümlədən Azərbaycanın DİM-lər üzrə müəyyən olunmuş hədəflərə nail olması istiqamətində gördüyü işlər, əldə etdiyi nailiyyətlər, digər ölkələrə örnək ola biləcək yaxşı təcrübələri, DİM-lərə nail olunmasını sürətləndirmək üçün öyrənilən dərslər, digər ölkələrin yaxşı təcrübələrinin tətbiqi, qarşıya çıxan problemlər, onların aradan qaldırılmasına yönəldilən fəaliyyətlər və dəstəyə (texniki və maliyyə, o

cümlədən potensialın artırılması) ehtiyac duyulan məsələlər haqqında məlumatlar toplanmış, sistemləşdirilmiş, araşdırılmış və icmallaşdırılmış, əsas maraqlı tərəflərlə müxtəlf formatlarda müzakirələr təşkil edilmiş, DİM-lərə uyğun milli siyasət sənədlərinin (strategiya, proqram, plan və s.) inteqrə olunmuş sürətli qiymətləndirilməsi həyata keçirilmiş, DİM-lər üzrə müəyyən olunmuş göstəricilərlə əlaqədar statistik və inzibati məlumatların təhlili və kəmiyyət və keyfiyyət qiymətləndirilməsi aparılmış, gələcək addımlar müəyyənləşdirilmiş və nəticələr çıxarılmışdır.

Hesabatın hazırlanması prosesində araşdırmalar zamanı ənənəvi analitik-statistik və keyfiyyət təhlili və qiymətləndirilməsi üsulları ilə yanaşı, BMTİP-in Sürətli inteqrə olunmuş qiymətləndirmə alətləri, göstəricilər üzrə boşluqların qiymətləndirilməsi, DİM-lər üzrə qiymətləndirmə cədvəli, kompozit indekslər və panellər və DİM-lərlə əlaqədar olan digər mövcud və yeni yaradılan təhlil alətlərindən də istifadə edilmişdir.

***İnformasiya təminatı:*** Hesabatın hazırlanmasında DİM-lərlə əlaqədar elmi-nəzəri və elmi-təcrübi ədəbiyyatlardan, BMT qurumlarının qəbul etdiyi qətnamə, bəyannamə və qərar kimi rəsmi sənədlər, təlimatlar, tövsiyə xarakterli materiallar və digər aidiyyəti inzibati məlumatlardan, başqa ölkələrin təcrübəsini əks etdirən materiallardan, o cümlədən onların müvafiq hesabatlarından, Azərbaycan Respublikasında qəbul olunmuş qanun, hüquqi-normativ akt, qərar, strategiya, konsepsiya, proqram və s. bu kimi rəsmi sənədlərdən, həmçinin Azərbaycanın DİM-lər üzrə müəyyən olunmuş hədəflərə nail olmaq istiqamətində gördüyü işlər, əldə etdiyi uğurlar və çətinlikləri xarakterizə etmək üçün müvafiq göstəricilər üzrə DSK-nın, aidiyyəti nazirliklərin və digər dövlət qurumlarının təqdim etdiyi inzibati və statistik məlumatlardan, mövcud icmallar və hesabatlardan geniş istifadə olunmuşdur.

***Etibarlılığın təmini*:** Hesabatın hazırlanması prosesində toplanmış inzibati və statistik məlumatların və çıxarılan nəticələrin lazımi dərinlik və etibarlılığa malik olduğuna əmin olmaq üçün müxtəlif yoxlama üsullarından istifadə edilmişdir. Hesabatın məzmununun doğruluğunu və keyfiyyətini yüksəltmək üçün aparılan təhlillərdə kəmiyyət və keyfiyyət alətlərindən birgə istifadə olunur, məlumat mənbələri və nəticələr üçtərəfli (işçi qrupları, ekspertlər və idarəedici qrup) yoxlamadan keçir.

Hesabatın hazırlanması prosesini aşağıdakı kimi 3 ***mərhələyə*** bölmək olar:

- **Hazırlıq mərhələsi**: Bu mərhələ hesabatda əks olunan məsələlərlə əlaqədar sənəd, material və məlumatların toplanmasını, onların sistemləşdirilməsi və nəzərdən keçirilməsini, plan və metodologiyanın müəyyənləşdirilməsini və maraqlı tərəflərlə müzakirələrin aparılması.
- **Hesabatın hazırlanması mərhələsi:** İdarəetmə qrupu tərəfindən təsdiqlənən plana uyğun olaraq lazımi təhlillər və məsləhətləşmələr aparılması, əldə olunan ilkin nəticələrin icmalının hazırlanması və aidiyyəti üzrə təqdim olunması, daxil olmuş rəy və təkliflər nəzərə alınmaqla hesabatın son variantının hazırlanıb təhvil verilməsi.
- **Tamamlama mərhələsi:** Bu mərhələ İdarəetmə qrupu tərəfindən Hesabatın son variantını nəzərdən keçirərək təsdiqləməsi və əsas tərəfdaşlar ilə paylaşması.

Hesabat Yüksək Səviyyəli Siyasi Forumda Azərbaycan Hökumətinin təqdimatının hazırlanması və tərəfdaş hökumət qurumları tərəfindən DİM-lər üzrə davamlı və əhatəli hesabatlılıq prosesinin yaradılması üçün ilkin əsas sənəd kimi qəbul olunmuşdur.

***Qarşıya çıxan çətinliklər:*** Hesabatın hazırlanmasında qarşıya çıxan çətinlik, əsasən, müxtəlif qurumlar arasında əlaqələndirmənin zəif olması, bir sıra göstəricilər üzrə məlumatların mövcud olmaması və ya müvafiq metodologiyaların olmaması ilə əlaqədar olmuşdur. Bir sıra hallarda isə mövcud məlumatlar gender, yaş qrupları, yaşayış yerləri (kənd/şəhər) və regionlar/inzibati rayonlar üzrə ayrılmamışdır (dezaqreqasiya olunmamışdır) ki, bu da aparılan təhlil və qiymətləndirmələrin və çıxarılan nəticələrin əhatə dairəsini və dərinliyini məhdudlaşdırır.

## 3. MİNİLLİYİN İNKİŞAF MƏQSƏDLƏRİ ÜZRƏ ƏLDƏ OLUNMUŞ NAİLİYYƏTLƏR

Azərbaycan Respublikası BMT-nin əksər üzv-ölkələri ilə birlikdə 2000-ci il sentyabr ayının 6-dan 8-dək ABŞ-ın Nyu-York şəhərində keçirilən “Minilliyin Sammiti”ndə 2015-ci ilədək olan dövrdə dünyada insanların yaşayışında əhəmiyyətli müsbət dəyişikliklər yaratmaq üçün ümumi çərçivəni müəyyən edən səkkiz qlobal Minilliyin İnkişaf Məqsədlərinin (MİM) təsbit olunduğu Minilliyin Bəyannaməsini qəbul etmişdir.

Minilliyin Bəyannaməsini imzalamış digər dövlətlərdə olduğu kimi, Azərbaycan Respublikasında da MİM-lər üzrə fəaliyyətə onların yerli şəraitə uyğunlaşdırılması ilə ölkə üçün səciyyəvi MİM-lər, o cümlədən baza illəri, hədəflər və monitorinq göstəricilərinin formalaşdırılmasından və bu məqsədlərə nail olmaq üçün zəruri siyasət tədbirlərinin və digər fəaliyyətlərin müəyyənləşdirilməsindən başlanılmışdır. Bu işlərin məqsədyönlü və sistemi aparılması məqsədilə Azərbaycan Respublikasının Prezidentinin 2 mart 2001-ci il tarixli Sərəncamı ilə xüsusi Dövlət Komissiyası yaradılmış və Azərbaycan Respublikası Baş nazirinin sədrlik etdiyi bu Komissiyaya yoxsulluğun azaldılması sahəsində Dövlət Proqramının hazırlanması həvalə olunmuşdur. Qısa müddətdə aralıq sənəd hazırlanmış, 2001-ci ilin iyul ayında yerli və beynəlxalq tərəfdaşlarla müzakirə olunaraq bəyənilmişdir.

Bundan sonra əsas sənədin hazırlanmasına başlanılmışdır. Əsas sənədin hazırlanması məqsədilə hökumətin, akademik qurumların və vətəndaş cəmiyyəti institutlarının nümayəndələrindən ibarət 15 sahə işçi qrupu təşkil olunmuşdur. Sahə işçi qruplarının və digər yerli və beynəlxalq tərəfdaşların bu prosesdə fəaliyyətini və iştirakını əlaqələndirmək məqsədilə İqtisadi İnkişaf Nazirliyində (hazırda İqtisadiyyat Nazirliyi) yerli və xarici ekspertlərin təmsil olunduğu Katiblik yaradılmışdır. Nəticədə, yalnız ayrı-ayrı sahələrin və ya rayonlarım deyil, sözün əsl mənasında ümummilli səciyyə daşıyan “2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı” (YAİİDP) hazırlanmış, Azərbaycan Respublikasının Prezidentinin 20 fevral 2003-cü il tarixli Fərmanı ilə təsdiq edilərək icrasına başlanılmış və müvəffəqiyyətlə icra olunmuşdur.

Proqramda nəzərdə tutulmuş bütün tədbirlərin mövcud maliyyə imkanlarına uyğunluğu müvafiq maliyyə mənbələrinin Ortamüddətli Xərclər Strategiyasında (OMXS) nəzərə alınmış və tədbirlərin həyata keçirilməsinə monitorinq nəzarəti üçün göstəricilər müəyyən edilmişdir. YAİİDP hazırlanması zamanı qarşıya qoyulan məqsədlərin BMT-nin Minilliyin Bəyannaməsində qarşıya qoyduğu məqsədlərlə uyğunluğu da nəzərə alınmışdır. YAİİDP 3 illik dövrü (2003—2005-ci illəri) əhatə etmiş və hər il, nəzərdə tutulmuş tədbirlərin icra vəziyyətinin monitorinqindən və onların səmərəliliyindən asılı olaraq, buraya müvafiq dəyişikliklər edilmişdir. YAİİDP bitdikdən sonra MİM-lər üzrə işlərin davamlılığını təmin etmək üçün Azərbaycan Respublikasının Prezidentinin 15 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə “2008-2015-ci illərdə yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı” (YADİDP) təsdiq edilərək icraya verilmiş və müvəffəqiyyətlə icra olunmuşdur.

İcra zamanı bu proqramlar digər siyasət sənədləri, tədbirləri və fəaliyyətləri ilə də ciddi dəstəklənmişdir. Bunun nəticəsidir ki, Azərbaycan MİM-lər üzrə nəzərəçarpacaq nailiyyətlər (Cədvəl 3.1) əldə etmişdir. Cədvəl 3.1-in məlumatlarından da göründüyü kimi, gəlir, kənd/şəhər, regional və bəzi istiqamətlər (parlamentdə və rəhbər vəzifələrdə təmsil olunma kimi) üzrə gender məsələlərində qeyri-bərabərliyə aid hələ də mövcud olan bəzi çatışmazlıqlara baxmayaraq, Azərbaycan yoxsulluğun azaldılmasında, ümumi təhsilə nail olunmasında, ana və körpə ölümü hallarının azaldılmasında, təhlükəli yoluxucu və digər xəstəliklərə qarşı mübarizənin gücləndirilməsində, ətraf mühitin dayanıqlığının təmin edilməsində mühüm nailiyyətlər əldə edə bilmişdir. Bundan əlavə,

zəif inkişaf etmiş ölkələrə xüsusi əhəmiyyət verməklə, Azərbaycan beynəlxalq əməkdaşlıqda artmaqda olan rolunu müvəffəqiyyətlə nümayiş etdirmişdir.

**Cədvəl 3.1. MİM-lər üzrə nailiyyətlərin qısa xülasəsi**

| Məqsədlər | Əldə edilən əsas nəticələr |
|---|---|
| Məqsəd 1: İfrat yoxsulluğu və aclığı aradan qaldırmaq | Aclıq və ifrat yoxsulluq artıq Azərbaycan üçün aktual deyildir. Bu səbəbdən də, siyasət ölkədə mütləq yoxsulluq səviyyəsinin azaldılmasına yönəldilmişdir. DSK ETBST-ə əsasən 2001-2015-ci illər ərzində ölkə üzrə mütləq yoxsulluq səviyyəsi 49,0%-dən 4,9%-ə qədər azalmış, ifrat yoxsulluq səviyyəsi isə nəzərəalınmaycaq bir səviyyəyə (<0,1) enmişdir. |
| | Ən yoxsul kvintilin istehlakda payı 2003-2015-ci illər ərzində 12,2%-dən, 15,4% -ə yüksəlmişdir. |
| | 5 yaşadək azçəkili uşaqların xüsusi çəkisi 2001-2015-ci illər ərzində 6,8%-dən 0,6%-ə düşmüşdür. |
| Məqsəd 2: Ümumi ibtidai təhsilə nail olmaq | Azərbaycan bu məqsədə artıq nail olmuşdur. Ölkə bu sahədə yüksək göstəricilərə malik olsa da, son illərdə müvafiq göstəricilər bir qədər də yaxşılaşmışdır. |
| | 2000-2015-ci illər ərzində 15-24 yaşlı şəxslər arasında savadlılıq səviyyəsi 100%-ə yüksəlmiş və sözügedən göstərici kişilər və qadınlar üçün eyni olmuşdur. |
| | 2000-2015-ci illər ərzində ibtidai təhsildə xalis qeydiyyat əmsalı 99,8%-ə yüksəlmişdir. Kişilər arasında sözügedən göstərici 99,9%-ə, qadınlar arasında isə 99,7%-ə yüksəlmişdir. |
| | 2000-2015-ci illər ərzində ibtidai təhsil pilləsini bitirmək əmsalı 92,8%-dən 100 %-ə yüksəlmişdir. Kişilər arasında bu göstərici 100%-ə, qadınlar arasında isə 99,9%-ə yüksəlmişdir. |
| Məqsəd 3: Gender bərabərliyini təmin etmək və qadınlara səlahiyyət vermək | Nəzərdə tutulan hədəflər üzrə gender bərabərliyi sahəsində müəyyən tərəqqi əldə edilmişdir. |
| | 2000-2015-ci illər ərzində qadınlar arasında işsizlik səviyyəsi 2 dəfədən də çox azalaraq 12,7%-dən 5,9%-ə düşmüşdür. |
| | 2015-cü ildə ibtidai təhsildə qeydiyyat əmsalı üzrə Gender Pariteti Əmsalı 0,99, orta təhsildə 0,99 və ali təhsildə 1,07 təşkil etmişdir. |
| | 2000-2015-ci illər ərzində Milli Məclisdə qadınların tutduğu yerlərin sayı 10,7%-dən 16,8%-ə yüksəlmişdir. |
| Məqsəd 4: Uşaq ölümü hallarını azaltmaq | 2000-2015-ci illər ərzində hər 1000 diri doğuş üzrə 5 yaşına qədər uşaq ölümü səviyyəsi 30,5-dən 13,3-ə düşmüşdür. |
| | 2000-2015-ci illərdə körpə ölümü səviyyəsi (hər 1000 diri doğuş üzrə ölüm) 16,4-dən 11,0-ə düşmüşdür. |
| | 2000-2015-ci illər ərzində 1 yaşlı uşaqların qızılcaya qarşı peyvəndləmə səviyyəsi 98,1% səviyyəsində olmuşdur. |
| Məqsəd 5: Ana sağlamlığını yaxşılaşdırmaq | 2000-2015-ci illər ərzində ana ölümü səviyyəsi (hər 100,000 diri doğuş üzrə ölüm səviyyəsi) 37,6-dan 14,4-ə enmişdir. |
| | 2000-2015-ci illər ərzində ixtisaslı tibb işçisinin iştirakı ilə qəbul edilən doğuşların nisbəti 92,1%-dən 99,8%-ə yüksəlmişdir. |
| Məqsəd 6: İİV/QİÇS. Malyariya və digər xəstəliklərə qarşı mübarizə aparmaq | Azərbaycanda 2015-ci ilin sonuna ümumilikdə 5629 nəfər, ölkə vətəndaşlarından isə 5439 nəfər İİV/QİÇS infeksiyasına yoluxmuş insan qeydiyyatda olmuş, İİV-lə yaşayan əhalinin xüsusi çəkisi 0,06% təşkil edir. |
| | 2000-2015-ci illər ərzində malyariyaya yoluxma halları (hər 100,000 əhali üzrə) 19,4-dən 0-a enmişdir. |
| | 2000-2015-ci illər ərzində vərəmə yoluxma halları (hər 100,000 əhali üzrə) 178,6-dan 101,1-ə, qeydə alınma əmsalı 64,3-dən 41,9-a, ölüm əmsalı isə 14,9-dan 5,1-ə enmişdir. |
| Məqsəd 7: Ətraf mühitin davamlılığını təmin etmək | 2000-2015-cü illər ərzində davamlı olaraq aparılmış meşəsalma və meşəbərpa tədbirləri nəticəsində meşə ərazisi ölkənin ümumi ərazisinin 12,0%-i səviyyəsində qərarlaşmışdır. Eyni zamanda, bu dövrdə bioloji müxtəlifliyi qorumaq məqsədini daşıyan xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsinin ümumi torpaq sahəsinə olan nisbəti isə 2 dəfədən çox artaraq 5%-dən 10,3%-ə (4298,6 $km^2$-dən 8925,5 $km^2$-ə) yüksəlmişdir. |
| | Təkmilləşdirilmiş içməli su mənbələrinə çıxış imkanı olan əhalinin xüsusi çəkisi 2015-ci ildə 89,2%-ə çatmışdır. |

| | |
|---|---|
| | Təkmilləşdirilmiş kanalizasiya xidmətlərinə çıxış imkanı olan əhalinin xüsusi çəkisi 2015-ci ildə 94,3%-ə yüksəlmişdir. |
| | Ölkədə yaşayış üçün yararsız (normal mənzil-məişət, o cümlədən kanalizasiya və digər sanitar xidmətlərdən istifadə imkanlarının məhdud olduğu) yerlərdə yaşayan insanların, xüsusən də QMK-ların yaşayış üçün normal şəraitli evlərə köçürülməsi, bu cür yerlərin abadlaşdırılması və yaşayış üçün yararlı hala salınması və zibilliklərin təmizlənməsi istiqamətlərində də əhəmiyyətli işlər görülür. Bunların nəticəsidir ki, yaşayış üçün "yararlı" yerlərdə məskunlaşmış qaçqınların və məcburi köçkünlərin say nisbəti artaraq 2015-ci ildə 60,0 %-i keçmişdir. |
| Məqsəd 8: Tərəqqi naminə qlobal tərəfdaşlığı inkişaf etdirmək | 2005-2015-ci illər ərzində hər 100 nəfərə düşən internet istifadəçilərinin nisbəti 8-dən 77-yə yüksəlmişdir. |
| | 2005-2015-ci illər ərzində hər 100 nəfərə düşən fərdi kompüterlərin nisbəti 15,0-dən 69,9-a yüksəlmişdir. |
| | 2000-2015-ci illər ərzində hər 100 nəfərə düşən simli telefon xətlərinin nisbəti 10-dan 16-ya yüksəlmişdir. |
| | 2000-2015-ci illər ərzində hər 100 nəfərə düşən mobil telefon nömrələrinin nisbəti 5,3-dən 112-yə yüksəlmişdir. |
| | 2000-2015-ci illər ərzində gənclər arasında (15-24 yaş) işsizlik səviyyəsi 22,0%-dən 13,4%-dək azalmışdır. Bu göstərici qadınlar arasında 25,4%-dən 15,8%-ə düşmüşdür. |

Mənbə: [2; 5; 6; 11]

Hazırda Azərbaycan hökuməti iqtisadiyyatın neft-qaz gəlirlərindən asılılığını azaltmaq, MİM-lər üzrə əldə olunmuş nailiyyətlərin möhkəmləndirilməsi və daha da artırılması və bu istiqamətdə mövcud olan çatışmazlıqların (gəlir, kənd/şəhər, regional və gender məsələlərində qeyri-bərabərliklə əlaqədar) aradan qaldırılması üçün müvafiq tədbirlər həyata keçirir.

MİM-lərin həyata keçirilməsi üzrə fəaliyyətləri, o cümlədən icraya nəzarəti və monitorinqi əlaqələndirən əlaqələndirici hökumət qurumu İqtisadiyyat Nazirliyi (o dövrdə İqtisadi İnkişaf Nazirliyi) olmuşdur. İqtisadiyyat Nazirliyi MİM-lər üzrə öhdəliklərinin yerinə yetirilməsi prosesi zamanı DSK, əlaqədar nazirliklər və digər dövlət təşkilatları, elm və təhsil qurumları, vətəndaş cəmiyyəti institutları və beynəlxalq inkişaf təşkilatları, xüsusi ilə də BMT-nin, DB-nin, BVF-in ölkə nümayəndəlikləri ilə birgə çalışmışdır. MİM-lər üzrə Hesabatlar BMT-nin ölkə üzrə Nümayəndəliyinin texniki dəstəyi ilə hazırlanmışdır.

MİM-lərə nail olunması prosesində qarşıya çıxan əsas çətinliklərə prosesə məsul olan qurumlar, yerli və beynəlxalq tərəfdaşlar arasında bəzən paralelçiliyə yol verilməsini, monitorinq və qiymətləndirmə üçün zəruri olan statistik və inzibati məlumat toplanması sahəsində potensialın zəifliyini və bir sıra boşluqların qalmasını, xüsusilə bəzi məlumatların gender, yaş qrupları, yaşayış yerləri (kənd/şəhər), sektorlar və regionlar/inzibati rayonlar üzrə ayrılmaqla (dezaqreqasiya olunmaqla) toplanmamasını aid etmək olar. Bu çətinlikləri aradan qaldırmaq üçün YAİİDP Katibliyi və İşçi qruplar yerli və beynəlxalq tərəfdaşlarla müvafiq qurumların potensialını gücləndirmək və konkret istiqamətdə vəziyyəti yaxşılaşdırmağa yönəlmiş tədbirlər və layihələr həyata keçiririrdilər. Bu tədbirlər və layihələr çox vaxt uğurlu olduğundan belə fəaliyyətləri yaxşı təcrübə kimi də qiymətləndirmək olar.

Eyni zamanda, MİM-lərin icra prosesinin monitorinqi ictimai institutların da bacarığını təkmilləşdirmişdir. MİM-lərin Azərbaycan üzrə hesabatları hazırlanarkən müvafiq məqsədlər və hədəflər təhlil edilmişdir. Azərbaycanın MİM-lərin səkkiz bəndinin hər biri üçün göstəriciləri 1990-cı ildən bəri əldə olunan məlumatlarla müqayisə edilmişdir. Tədqiqat qurumları tərəfindən aparılmış bəzi mühüm araşdırmalar monitorinq prosesində məlumat boşluğunun tamamlanmasına töhfə vermişdir. Bütün bu səylər ölkənin imkanlarının qlobal səviyyədə hazırlanmış inkişaf gündəliyinə cavab verməsinə töhfə olmuşdur. Bu imkanlar və təcrübələr DİM-lərə nail olmaq yolunda müsbət hal hesab edilir.

MİM-lər üzrə Azərbaycanda görülən işlərin təhlili göstərir ki, Azərbaycanda MİM-lərə nail olunmasına aşağıdakı şərtlər dəstək olmuşdur:

- Azərbaycanda MİM-lərə nail olmaq istiqamətində siyasi iradə nümayiş etdirilərək, MİM-lər üzrə ölkə üçün səciyyəvi hədəflər və göstəricilər müəyyənləşdirilmiş və onlar məxsusi dövlət proqramları (YAİİDP və YADİDP) qəbul edilməklə milli inkişaf strategiyasına tam inteqrasiya edilmişdir;

- Azərbaycanda neft gəlirlərinin səmərəli xərclənməsi istiqamətində siyasi iradə nümayiş etdirilərək, Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) yaradılmış və "Neft və qaz gəlirlərinin idarə edilməsi üzrə uzunmüddətli strategiya" qəbul edilmişdir;

- Azərbaycan öz insan resurslarına görə nisbi üstünlüyə malikdir. Ölkədə ümumi savadlılıq mövcuddur. Bununla belə, hökumət insan kapitalına investisiya qoymaq istiqamətində əlavə tədbirlər həyata keçirir. Bu istiqamətdə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" (Azərbaycan Respublikası Prezidentinin 16 aprel 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir) qəbul edilmiş və uğurla həyata keçirilmişdir;

- Azərbaycan hökuməti beynəlxalq təşkilatların etimadını qazanmışdır ki, bu da öz növbəsində onlarla birgə səmərəli fəaliyyətə əsas yaratmışdır. Bu özünü YAİİDP-nin və YADİDP-nin hazırlığı və icrası mərhələsində aydın şəkildə büruzə vermişdir;

- Azərbaycan dövlət idarəçiliyinin təkmilləşdirilməsi və müvafiq milli MİM-in əlavə edilməsi istiqamətində öz qətiyyətini nümayiş etdirmişdir. Azərbaycan hökuməti həm də MİM-lərə nail olunması prosesinə vətəndaş cəmiyyətini cəlb etmiş və bu istiqamətdə səmərəli birgə fəaliyyətə nail olmuşdur.

Azərbaycan hökuməti MİM-lər üzrə əldə olunmuş nailiyyətlərdən ruhlanaraq bu prosesdə qazanılmış təcrübənin və müvafiq yanaşmaların, yeni məqsədlərə və şəraitə uyğunlaşdırılaraq, DİM-lərin həyata keçirilməsi prosesində də tətbiqinə qərar vermişdir.

# 4. AZƏRBAYCAN RESPUBLİKASININ İNKİŞAF GÜNDƏLİYİNDƏ DAYANIQLI İNKIŞAF MƏSƏLƏRİ

## 4.1. BAŞLANĞIC VƏZİYYƏT VƏ İLKİN ŞƏRTLƏR

Aydındır ki, DİM-lərə nail olunması prosesinə bu istiqamətdə həyata keçirilən tədbirlərlə yanaşı, ölkənin inkişafında pozitiv və ya neqativ rolu olan ümumi amillər, o cümlədən başlanğıc vəziyyət və ilkin şərtlər də təsir göstərir.

**Ümumi vəziyyət.** 1991-ci ildə müstəqillik qazandıqdan sonra, Azərbaycan, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid alaraq və yuxarı orta gəlirli ölkəyə çevrilərək dinamik iqtisadi inkişaf yolu keçmişdir. O, son iki onillik ərzində neft və qaz ehtiyatlarının hasilatından və ixracından əldə olunan gəlirlərin təkan verdiyi yüksəlişdən yararlanaraq dünyanın ən sürətlə inkişaf edən iqtisadiyyatlardan biri kimi qalmış və bir neçə il ərzində regional arenada öz mövcudluğunu tədricən daha çox təsdiq edən ölkəyə çevrilmişdir.

2001-2015-ci illərdə Azərbaycanda MİM-lər üzrə görülən işlər ölkənin sosial-iqtisadi inkişafını daha da sürətləndirmişdir. Bu dövrdə yoxsulluq səviyyəsi 49%-dən 4,9%-ə enmiş, aclığa və ifrat yoxsulluğa son qoyulmuşdur (bu sahədə vəziyyət kifayət qədər qidalanmayan əhalisinin xüsusi çəkisi 5%-dən də az olan inkişaf etmiş ölkələrlə oxşardır. 2000-ci illə müqayisədə 2015-ci ildə Azərbaycanda doğulanda gözlənilən orta ömür müddəti 3,4 il, təhsilalmanın gözlənilən müddəti 2,3 il və təhsilalmanın orta müddəti 0,6 il artmışdır. Azərbaycan 2010-cu ildə “orta insan inkişafı” statusuna malik ölkələr qrupundan çıxaraq “yüksək insan inkişafı” kateqoriyasına daxil olmusdur. Azərbaycan 2014 və 2015-ci illərdə İnsan İnkişafı İndeksi üzrə 188 ölkə və ərazi arasında (2014-cü ildə 0,751, 2015-ci ildə isə 0,759 balla) 78-ci yeri tutmuşdur. 2010-cu ildən bəri Azərbaycanın İnsan İnkişafı İndeksi Avropa və Mərkəzi Asiya ölkələri üçün orta səviyyədən yuxarı olur. 2015-ci il üçün Azərbaycanın İnsan İnkişafı İndeksi 0,759, Avropa və Mərkəzi Asiya ölkələri üçün isə bu göstərici 0,756 olmuşdur [15].

**İlkin siyasi və sosial-iqtisadi şərtlər.** Müstəqilliyinin ilk illərində Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafa SSRİ-nin dağılması ilə əlaqədar siyasi və sosial-iqtisadi sahələrdə baş verən proseslər çox güclü təsir göstərmişdir. Transformasiya prosesləri, bütün postsosialist ölkələrində olduğu kimi, ilk dövrlərdə Azərbaycan Respublikasında da istehsalın tənəzzülünə, iş yerlərinin azalmasına, inflyasiyanın güclənməsinə və bu kimi digər sosial-iqtisadi problemlərin kəskinləşməsinə səbəb olmuşdur ki, bu da əhalinin gəlirlərinin və həyat səviyyəsinin xeyli aşağı düşməsini şərtləndirmişdir. Belə ki, DSK-nın məlumatlarına görə, 1990-cı illə müqayisədə 1994-cü ildə ümumi daxili məhsul 52,5%, sənayedə 61,7%, kənd təsərrüfatında 41,3%, istehlak 86,5% azalmış, ölkənin qızıl-valyuta ehtiyatları tükənmiş, inflyasiya ildə 1763,5%-ə çatmışdır. Bunun nəticəsində ölkədə işləyənlərin real orta aylıq əmək haqqı səviyyəsi 83,7% və əhalinin hər nəfərinə düşən real pul gəlirləri 3,9 dəfə azalmışdır.

Bu dövrdə Azərbaycan Respublikasının qarşılaşdığı ağır siyasi (1991-1993-cü illərdə siyasi vəziyyətin qeyri-sabitliyi), hərbi (Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü) və iqtisadi (keçmiş müttəfiq respublikalar arasında onilliklər ərzində formalaşmış qarşılıqlı mübadilə və istehsal-kooperasiya əlaqələrinin birdən-birə kəskin şəkildə pozulması nəticəsində istehsalın səviyyəsi xeyli aşağı düşmüş, müəssisələrin əksəriyyəti öz fəaliyyətlərini ya məhdudlaşdırmaq, ya da dayandırmaq məcburiyyətində qalmış, işçilərin kütləvi surətdə işdən azad edilməsi prosesi başlamış, əhalinin gəlirlərinin əsas hissəsini təşkil edən əmək haqqının səviyyəsi real ifadədə aşağı düşmüş, inflyasiya prosesi sürətlənərək hiperinflyasiyaya çevrilmiş) problemlər mövcud vəziyyəti daha da çətinləşdirmişdir.

Keçmiş Sovet İttifaqında 1980-ci illərin axırlarında gedən siyasi proseslərdən və xaosdan yararlanaraq Ermənistan planlı şəkildə etnik təmizləmə işlərinə başlamış və milli mənsubiyyətinə görə 350 min nəfərdən çox azərbaycanlını öz əzəli yaşayış

yerlərindən (indiki Ermənistan Respublikasından) zorla deportasiya edərək qaçqın vəziyyətinə salmışdır. Eyni zamanda, Ermənistan 1990-cı illərin əvvəllərindən başlayaraq Azərbaycana hərbi təcavüz etmiş və ölkə ərazisinin 20%-ni (keçmiş Dağlıq Qarabağ Muxtar vilayəti və ətrafındakı 7 rayonu) işğal etmişdir. Azərbaycanın işğal olunmuş ərazilərindən 789 min nəfərdən çox, Ermənistanla və işğal olunmuş ərazilərlə həmsərhəd olan və atəş zolağına düşən yaşayış məntəqələrindən isə 110,6 min nəfərdən çox azərbaycanlılar öz daimi yaşayış yerlərini tərk etməyə məcbur olaraq məcburi köçkün vəziyyətinə düşmüşdür. Bu hərbi təcavüz zamanı 20 min nəfər azərbaycanlı həlak olmuş, 100 min nəfər yaralanmış, 50 min nəfər əlilliyi olan şəxsə çevrilmiş, 6 min nəfərdən çox Azərbaycan vətəndaşı itkin düşmüş, əsir-girov götürülmüş, bir milyondan çox azərbaycanlı öz əzəli doğma yaşayış yerlərindən didərgin salınaraq qaçqına və məcburi köçkünə çevrilmişdir. Ermənistan hərbi qüvvələri tərəfindən 900 yaşayış məntəqəsi, 150 min ev, 7 min ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 11 peşə təhsili müəssisəsi, 9 orta ixtisas təhsili müəssisəsi, 1 ali məktəb, 2 ali məktəb filialı, 695 tibb müəssisəsi, 927 kitabxana, 44 məbəd, 9 məscid, 473 tarixi abidə, saray və muzeylər, 40 min muzey eksponatı, 6 min sənaye və kənd təsərrüfatı müəssisələri, 2670 km avtomobil yolu, 160 körpü, 2,3 min km su, 2 min km qaz, 1,2 min km irriqasiya sistemi və 15 min km elektrik xətləri tam dağıdılmışdır. 280 min ha meşə və 1 mln. ha kənd təsərrüfatı üçün yararlı torpaq sahəsi işğal altında qalaraq yararsız hala düşmüşdür. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli 51s nömrəli sərəncamı ilə 15 nəfərdən ibarət yaradılmış İşçi Qrupunun, beynəlxalq ekspertlər cəlb etməklə, apardıqları ilkin hesablamalara görə, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın məruz qaldığı maddi və mənəvi itkilərin həcmi yüz milyarlarla ABŞ dolları ilə ölşülür [24].

Öz doğma yurdlarından zorla qovulmuş 1 milyondan artıq insan aldıqları maddi və mənəvi zərbə ilə yanaşı, iş yerlərini də itirmiş, ölkədə işsizlər ordusu yaranmışdır və təbii ki, bu vəziyyət ölkə üzrə həm işsizlik, həm də onun davamı kimi yoxsulluq səviyyəsinə təsir etmişdir (məcburi köçkünlər arasında mütləq yoxsulluq səviyyəsi 2001-ci ildə 63,0% təşkil etmişdir [5]). Nəticədə qaçqınlar və məcburi köçkünlər üzrə təhsil, sağlamlıq, məşğulluq göstəriciləri də ölkə üzrə orta səviyyədən xeyli aşağı olmuşdur ki, bu da ölkədə insan inkişafına öz mənfi təsirini göstərmişdir.

Ermənistanın hələ də davam edən işğalçılıq siyasəti indinin özündə də Azərbaycanın daha böyük nailiyyətlər əldə etməsinə mane olur. Ermənistanın işğalçılıq siyasəti həm də regional natamamlığa səbəb olur və region ölkələrinin tam potensialı ilə əməkdaşlıqlarının bərqərar olmasına mane olur.

**Demoqrafik vəziyyət.** Məlumdur ki, ölkənin sosial-iqtisadi inkişafına demoqrafik proseslər də əhəmiyyətli təsir göstərir. Aparılan təhlillər göstərir ki, dövlət müstəqilliyinin bərpasından sonrakı dövrdə, xüsusilə də son 20 ildə Azərbaycan Respublikasında həyata keçirilən sosial-iqtisadi islahatlar ölkədə demoqrafik vəziyyətin yaxşılaşmasını, orta ömür müddətinin uzanmasını və müsbət miqrasiya saldosu yaranmasını şərtləndirmişdir. DSK-nın məlumatına görə, ölkə əhalisinin sayı 2000-ci illə müqayisədə 22,1% (orta illik artım 1,23%) artaraq 2017-ci ilin əvvəlinə 9810 min nəfər təşkil etmişdir, 2016-cı ilin əvvəlinə olan məlumatla (9705,6 min nəfər) müqayisədə isə artım 1,08 təşkil etmişdir. 2017-ci ilin əvvəlinə olan məlumatlara əsasən, əhalinin 49,86%-ni kişilər, 50,14%-ni qadınlar təşkil edir, 53,0%-i şəhər yerlərində, 47,0%-i isə kənd yerlərində yaşayır. 2000-2017-cı illər ərzində şəhər yerlərində yaşayan əhalinin sayı 26,58%, kənd yerlərində yaşayan əhalinin sayı isə 17,46% artmışdır [27]. Baxılan dövrdə şəhər yerlərində yaşayan əhalinin artım sürəti kənd yerlərində yaşayan əhalinin artım sürətini üstələmişdir ki, bu da ölkədə urbanizasiya proseslərinin sürətlənməsindən xəbər verir.

Hazırda Azərbaycan Respublikası Avropa və MDB ölkələri sırasında demoqrafik baxımdan cavan yaş strukturuna malik az sayda ölkələrdən biridir. Belə ki, DSK-nın 2017-cı ilin əvvəlinə olan məlumatlarına əsasən, əhalinin ümumi yaş strukturunda

gənclərin (15-29 yaşda) xüsusi çəkisi 25,0% (2000-ci ildə -26,0%) və uşaqların (0-14 yaşda) xüsusi çəkisi 22,6% (2000-ci ildə -31,7%) təşkil etmişdir (Şəkil 4.1).

**Şəkil 4.1. Əhalinin yaş tərkibinin dinamikası (ilin əvvəlinə, əhalinin ümumi sayına nisbətən, faizlə)**




Mənbə: DSK [2; 3].

Şəkil 4.1-dəki məlumatların təhlili göstərir ki, uşaqların (0-14 yaşda) xüsusi çəkisi 2000-2017-cı illərdə 9,1 faiz bəndi azalmışdır. Bu azalma 2012-ci ilə qədər müntəzəm olmuş, 2013-cü ildən isə artma meyli yaranmış və nəticədə 2012-ci illə müqayisədə 2017-ci ildə 0,4 faiz bəndi artım müşahidə olunmuşdur. Eyni zamanda, 2000-2017-ci illəri əhatə edən dövrdə 65 və yuxarı yaşda olan əhalinin xüsusi çəkisi 1,1 faiz bəndi artaraq 5,2%-dən 6,3%-ə yüksəlmişdir ki, bu da əhalinin yaşlaşma meylinin xarakterizə edir. Baxılan dövrdə 15-64 yaş qrupunda olan əhalinin xüsusi çəkisi də 8,0 faiz bəndi (nəzərəçarpacaq dərəcədə) artaraq 63,1%-dən 71,1%-ə çatmışdır. Bu artım 2012-ci ilə qədər müntəzəm olmuş, 2013-cü ildən isə azalma meyli yaranmış və nəticədə 2012-ci illə müqayisədə 2017-ci ildə 1,0 faiz bəndi azalma müşahidə olunmuşdur.

2000-2015-ci illər ərzində ölkədə əhalinin hər 1000 nəfərinə doğulanların sayının yüksək (16,85 nəfər –orta illik) və ölənlərin sayının aşağı (5,94 nəfər –orta illik) olması əhalinin təbii artım əmsalının yüksək (10,9 nəfər -orta illik) olmasını təmin etmişdir. 2016-ci ildə bu göstəricilər, müvafiq olaraq, 16,5, 5,9 və 10,6 nəfər olmuşdur [Şəkil 4.2].

**Şəkil 4.2. Əhalinin təbii artımı əmsalının dinamikası**




Mənbə: DSK [2; 3].

Ölkədə müşahidə olunan sosial-iqtisadi tərəqqi, insanların sosial rifahının yaxşılaşması, səhiyyə sisteminin inkişafı doğum göstəricilərinə müsbət təsir göstərmiş

və 2003-cü ildən başlayaraq doğum səviyyəsinin tədricən yüksəlməsini təmin etmişdir. Belə ki, bu dövr ərzində ümumi nəsilvermə əmsalı 1,9 səviyyəsindən yüksələrək 2015-ci ildə 2,1 təşkil etmişdir (Cədvəl 4.1). Qeyd olunan meyillərin və reproduktiv yaşda olan qadınların sayında və yaş strukturunda baş vermiş dəyişikliklərin nəticəsi olaraq, doğulanların sayı əhalinin hər 1000 nəfərinə hesabı ilə 2001-ci ildəki 13,7 nəfərdən, 2003-cü ildə 13,9 nəfərə, 2015-ci ilə kimi isə 17,4 nəfərə qədər artmışdır. 2016-cı ildə isə doğulanların sayının bir qədər azalması, ölənlərin sayının isə cüzü artması nəticəsində 16,5 nəfərə düşmüşdür [27].

**Cədvəl 4.1. Nəsilvermə (fertillik) əmsalı**

| | 2000 | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Ümumi | 2,0 | 2,3 | 2,3 | 2,4 | 2,3 | 2,2 | 2,2 | 2,1 | 2,0 |
| Şəhər | 1,6 | 2,1 | 2,1 | 2,2 | 2,2 | 2,1 | 2,0 | 2,0 | 1,9 |
| Kənd | 2,2 | 2,5 | 2,5 | 2,6 | 2,5 | 2,3 | 2,4 | 2,2 | 2,2 |

Mənbə: DSK [27].

Bununla yanaşı, diri doğulanların cins tərkibində oğlan uşaqlarının artımı müşahidə olunur (2016-cı ildə hər 100 doğulan qıza 114 oğlan düşür [27]). Belə fərqin hamiləlik zamanı uşağın cinsinə görə süni seçimlə əlaqədar olması ehtimal olunur və narahatçılıq doğuran məsələ kimi gündəmdədir.

Baxılan dövrdə hər 1000 nəfərə ölənlərin sayının doğulanlara nisbətdə ortalama 2,8 dəfə az olması və ölənlərin sayında azalma meyli (əhalinin hər 1000 nəfərinə düşən ölənlərin sayı 2005-2016-cı illər ərzində 6,2-dən 5,9-a düşmüşdür) də əhalinin artımına müsbət təsir göstərmişdir.

2016-cı ilin məlumatlarına əsasən, ölüm hallarının səbəbləri arasında ən çox paya aşağıdakılar aiddir: qan dövranı sistemi xəstəlikləri - 60,2%, yenitörəmələr - 14,6%, həzm sistemi xəstəlikləri - 4,9%, travmalar, zəhərlənmələr və xarici səbəblərin təsirinin digər nəticələrindən baş vermiş ölümlər – 4,8%, tənəffüs sistemi xəstəlikləri -3,2%.

Əhalinin ümumi ölüm səviyyəsinin aşağı düşməsi sahəsində müşahidə olunan müsbət tendensiyalar doğulanda gözlənilən ömür uzunluğunun artmasına səbəb olmuşdur. Belə ki, bu göstərici 1990-cu ildəki 71,1 (kişilər -67,0, qadınlar -74,8) yaşdan, 2000-ci ildə 71,8 (kişilər - 68,6, qadınlar - 75,1) yaşa qədər, 2015-ci ildə isə 75,2 (kişilər – 72,7, qadınlar – 77,6) yaşa qədər artmışdır. 2016-cı ildə ümumi və qadınlar üzrə bu göstəricinin qiyməti sabit qalmış, kişilər üzrə isə 0,1 bənd artaraq 72,8 yaş olmuşdur.

Son illər ölkədə çoxuşaqlı ailələrdən ortauşaqlı ailələrə keçid meyilləri müşahidə olunur. Belə ki, 1999-cu və 2009-cu illərdə keçirilmiş əhalinin siyahıyaalınmasının məlumatlarına əsasən 18 yaşadək uşaqları olan ailələrin (ev təsərrüfatlarının) sayının 2,8% artmasına baxmayaraq, 3 uşaqlı ailələrin (ev təsərrüfatlarının) sayı 19,7%, 4 və çox uşaqlı ailələrin (ev təsərrüfatlarının) sayı isə 40,8% azalaraq, 2009-cu ildə müvafiq olaraq 261,9 min və 126,7 min ailə təşkil etmişdir. Bu dövr ərzində 3 və daha çox uşaqları olan ailələrin (ev təsərrüfatların) xüsusi çəkisinin nəzərəçarpacaq dərəcədə azalması baş vermişdir. Belə ki, 3 uşaqlı ailələrin xüsusi çəkisi 25,5%-dən 19,9%-ə qədər, 4 uşaqlı ailələrin xüsusi çəkisi isə 16,7%-dən 9,7%-ə qədər azalmışdır.

1990-cı illərin əvvəlində ölkədən miqrasiya axını öz intensivliyi ilə fərqlənirdi. Sonrakı illərdə ölkədə davamlı sosial-iqtisadi artım, regionların inkişafına, sahibkarlar üçün imkanların və yeni iş yerlərinin yaradılmasına, vətəndaşların sosial təminatının yaxşılaşdırılmasına və bütövlükdə əhalinin rifahının yüksəldilməsinə yönəldilmiş tədbirlər nəticəsində 2008-ci ildən başlayaraq miqrasiya saldosu müsbətə doğru dəyişərək 2015-ci ildə 1,1 min nəfər təşkil etmişdir.

**Makroiqtisadi vəziyyət.** 1994-cü ildən Azərbaycan Respublikasında aparılan stabilləşmə siyasəti nəticəsində 1996-cı ildə ölkədə makroiqtisadi sabitlik bərpa olunmuş və 1997-ci ildən etibarən dinamik inkişafa başlanılmışdır. Sonrakı illərdə əldə olunmuş makroiqtisadi sabitliyin daha da möhkəmləndirilməsi və neft-qaz sektoru ilə

yanaşı qeyri-neft sektorunun canlandırılması istiqamətində həyata keçirilmiş məqsədyönlü siyasət tədbirləri ölkədə dinamik iqtisadi inkişafın davamlılığını təmin etmişdir. Belə ki, DSK-nın məlumatlarına (Şəkil 4.3) görə, 2001-2014-cü illər ərzində ölkə üzrə ÜDM-in həcmi real ifadədə 4,5-dəfə artaraq 59,01 mlrd. AZN, qeyri-neft sektoru üzrə ÜDM-in həcmi isə 4 dəfə artaraq 36,2 mlrd. AZN səviyyəsinə çatmışdır Dünya bazarında neftin qiymətinin kəskin aşağı düşməsi səbəbindən 2015-ci ildə ÜDM-in nominal dəyərində 4,6 mlrd. AZN azalma baş versə də, qeyri-neft sektorunun inkişaf tempinin yüksəlməsi nəticəsində ÜDM-in real artımı 1,1% təşkil etmişdir. 2016-cı ildə isə ÜDM-in nominal dəyəri 6,01 mlrd. AZN artaraq 60,39 mlrd. AZN təşkil etmiş, real dəyəri isə yuxarıda qeyd olunan səbəblərdən 3,1% azalmışdır. 2008-ci ildən ÜDM-in neft sektorundan asılılığının azalma meyli yaranmış və son 5 ildə bu meyil daha da güclənmişdir. Belə ki, neft sektorunun ÜDM-də payı 2000-2007-ci illərdə 29,9%-dən 56,1%-ə qədər artmışdırsa, 2008-2015-ci illərdə azalaraq 30,3%-ə enmişdir. 2016-cı ildə bu göstəricinin qiymətində (34,1%) 3,8 faiz bəndi artımı isə həmin ildə dünya bazarında neftin qiymətinin müəyyən qədər artması ilə əlaqələndirmək olar.

**Şəkil 4.3. 2000-2016-cı illərdə ÜDM istehsalı (mlrd. AZN)**




Mənbə: DSK [2; 3].

2001-2014-cü illər ərzində əhalinin hər nəfərinə düşən ÜDM-in həcmi isə real ifadədə 3,8 dəfə artaraq 2014-cü ildə 6268,0 AZN (7990,8 ABŞ dolları) təşkil etmişdir (Şəkil 4.4). Yuxarıda göstərilən səbəbdən 2015-ci ildə 2014-cü illə müqayisədə hər nəfərə düşən ÜDM nominal ifadədə 8,96% azalmış, 2016-cı ildə isə 2015-ci illə müqayisədə 9,8% artaraq 6266,3 AZN olmuşdur.

**Şəkil 4.4. Əhalinin hər nəfərinə düşən ÜDM-in dinamikası (AZN)**




Mənbə: DSK [2; 27].

Bununla yanaşı, təhlil göstərir ki, ölkənin ixracının əmtəə tərkibində “Mineral yanacaq, neft və neft emalı məhsulları”nın payının çox yüksək olması (2000-2015-ci illərdə ortalama 88,7%, 2016-cı ildə - 87,0%) ölkə iqtisadiyyatının neftin dünya bazar

qiymətlərindəki dalğalanmalara və bu səbəbdən neft-qaz gəlirlərinin artıb-azalmasına həsaslığının yüksək olmasını şərtləndirir.

Qeyd olunanlar göstərir ki, ölkədə iqtisadiyyatın qeyri-neft sektoru üzrə istehsal və ixrac potensialının gücləndirilməsi, əmtəə tərkibinin şaxələndirilməsinin sürətləndirilməsi və rəqabətqabiliyyətliliyinin yüksəldilməsi hesabına istehsal və ixrac həcminin artırılması istiqamətində səylərin gücləndirilməsinə ehtiyac vardır.

Son illər ölkədə baş verən sürətli iqtisadi inkişaf və artan neft-qaz gəlirlərinin inflyasiya səviyyəsinin artmasına təsirlərinin minimuma endirilməsi ilə bağlı bir sıra tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 31 may 2005-ci il tarixli "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında" Fərmanına uyğun olaraq ölkənin iqtisadi və sosial inkişaf göstəriciləri ilə dövlət büdcəsi xərcləri arasında sıx əlaqə təmin edilmiş və büdcənin məqsədli proqramlar əsasında tərtibi istiqamətində zəruri tədbirlər görülmüşdür Bunun nəticəsidir ki, 2007 və 2008-ci illərdə qlobal maliyyə böhranı ilə əlaqədar müəyyən kənarlaşmalar istisna olmaqla, 2000-2015-ci illər ərzində ölkədə inflyasiya idarə olunan (təkrəqəmli) səviyyədə saxlanılmışdır, hətta bəzi illərdə 1-3% aralığında olmuşdur.

2015-ci ildən başlayaraq baş vermiş neqativ iqtisadi proseslərin təsirləri nəticəsində ölkədə inflyasiyanın səviyyəsində müəyyən artım müşahidə olunur. Belə ki, istehlak qiymətləri indeksi 2015-ci illə müqayisədə 2016-cı ildə 8,4 faiz bəndi artmışdır (Şəkil 4.5). Bununla əlaqədar olaraq, ölkədə makroiqtisadi sabitliyin möhkəmləndirilməsi ön plana çıxmışdır və hazırda bu istiqamətdə məqsədyönlü işlər aparılır.

**Şəkil 4.5. İstehlak qiymətləri indeksinin dinamikası, əvvəlki ilə nisbətən faizlə**




Mənbə: DSK [2; 27].

Ölkədə baş verən sosial-iqtisadi inkişaf proseslərində aparılan investisiya-struktur siyasəti də əhəmiyyətli rol oynayır. Cədvəl 4.2-dəki məlumatların təhlili göstərir ki, 2000-2015-ci illər ərzində ölkənin iqtisadi potensialını gücləndirmək və bu potensialın daha səmərəli istifadəsi üçün Azərbaycan iqtisadiyyatına 212,5 mlrd. ABŞ dolları həcmində investisiya qoyulmuşdur ki, bunun da 47,7%-ni xarici, 52,3%-ni yerli investisiyalar təşkil edir. 2000-ci illə müqayisədə 2015-ci (2014-cü) ildə ölkə iqtisadiyyatına yönəldilən ümumi investisiyaların həcmi 13,6 (19,4) dəfə, xarici investisiyaların həcmi 11,6 (12,6) dəfə, yerli investisiyaların həcmi isə 17,2 (31,5) dəfə, çox olmuşdur.

Təqdirəlayiq haldır ki, baxılan dövrdə ölkənin daxili investisiya imkanlarının daha sürətli artması müşahidə olunur. Bunun nəticəsində ölkə iqtisadiyyatına yönəldilən cəmi investisiyaların tərkibində yerli investisiyaların xüsusi çəkisi 2000-2015-ci (2000-2014-cü) illərdə 35,7%-dən 45,2%-ə (58,1%-ə) yüksəlmişdir.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, dünya bazarında neftin qiymətinin kəskin aşağı düşməsi ilə əlaqədar olaraq baş verən proseslər nəticəsində 2015-ci ildə ölkə iqtisadiyyatına yönəldilən cəmi investisiyaların həcmi 30%, xarici investisiyaların həcmi

8,4%, yerli investiyaların həcmi isə 45,5 % azalmışdır. Beləliklə, bu nəticəyə gəlmək olar ki, ölkədə investisiya fəallığının yüksəldilməsinə diqqət artırılmalıdır.

**Cədvəl 4.2. İqtisadiyyata yönəldilən investisiyalar**

| | Cəmi investisiyalar | | Yerli investisiyalar | | Xarici investisiyalar | |
|---|---|---|---|---|---|---|
| | *Mln. ABŞ dolları* | *%* | *Mln. ABŞ dolları* | *%* | *Mln. ABŞ dolları* | *%* |
| **2000** | 1441,4 | 100 | 514,4 | 35,7 | 927 | 64,3 |
| **2005** | 7118,5 | 100 | 2 225,3 | 31,3 | 4 893,2 | 68,7 |
| **2010** | 17591,4 | 100 | 9343,6 | 53,1 | 8 247,8 | 46,9 |
| **2014** | 27907,5 | 100 | 16209,8 | 58,1 | 11697,7 | 41,9 |
| **2015** | 19547,2 | 100 | 8828,1 | 45,2 | 10719,1 | 54,8 |
| **2000-2015** | 212542,2 | 100 | 111212,3 | 52,3 | 101329,9 | 47,7 |

Mənbə: DSK [2; 27].

**Sahibkarlığın inkişafı.** Sahibkarlığın inkişafı Azərbaycan Hökumətinin sosial-iqtisadi inkişaf strategiyasının prioritet istiqamətlərindən biridir. Dövlət müstəqilliyinin bərpasından sonrakı dövrdə ölkədə sahibkarlığın inkişafı üçün zəruri hüquqi-normativ baza, institusional və iqtisadi mexanizmlər, həmçinin bazar infrastrukturu obyektləri yaradılmışdır. Bunlara sahibkarlığın inkişafı ilə əlaqədar qəbul olunmuş qanunları və digər qanunvericilik aktlarını, dövlət mülkiyyətinin özəlləşdirilməsi və kiçik və orta sahibkarlığın inkişafını dəstəkləməyə yönələn dövlət proqramlarını xüsusi qeyd etmək olar. Bu qanunlar və proqramlar əsasında iqtisadiyyatın və sahibkarlığın tənzimlənməsi sahəsində mühüm tədbirlər həyata keçirilmiş, sahibkarlara dövlət maliyyə köməyi sistemi və zəruri texniki yardım (məsləhət, informasiya və s. xidmətlər) göstərən strukturlar formalaşmışdır. Sahibkarlar üçün vergi yükünün azaldılması məqsədilə mənfəət və əlavə dəyər vergisi dərəcələri, məcburi sığorta haqqı aşağı salınmış, kiçik sahibkarlıq subyektlərinə dövriyyəsinə uyğun olaraq sadələşdirilmiş verginin tətbiq edilməsinə başlanılmışdır.

Ölkənin sahibkarlığın inkişafı sahəsində aşağıdakı kimi uğurlarını qeyd etmək olar:

- *Sahibkarlığın inkişafına yönəldilmiş tədbirlərin sistemliliyi təmin olunmuşdur.* Ölkədə sahibkarlığın inkişafı üzrə qəbul edilmiş Dövlət Proqramları bu sahənin inkişafı istiqamətində həyata keçirilən tədbirlərin sistemliliyini təmin etmiş, bu tədbirləri vahid strategiyanın həyata keçirilməsinə yönəltmişdir. Həmçinin ölkədə sahibkarlığın müdafiəsi və inkişafı dövlət sistemi daxilində əlaqələndirilmişdir.

- *Ölkədə dövlət-sahibkar münasibətlərini tənzimləyən əsas prinsiplər müəyyənləşdirilmişdir.* Dövlətin uzunmüddətli sosial-iqtisadi inkişaf strategiyasının başlıca istiqamətləri və prinsipləri əsasında sahibkarlığın inkişafı keyfiyyətcə yeni təsərrüfat münasibətləri sisteminin formalaşmasına əsaslanır. Göstərilən prinsiplər dövlətin sahibkarlığın inkişafında üzərinə götürdüyü öhdəlikləri və sahibkarın cəmiyyətə münasibətdə məsuliyyətinin əsas müddəalarını formalaşdırmışdır. Bu meyarlar dövlətin xüsusi mülkiyyətin və şəxsiyyət azadlığının toxunulmazlığının əsas dəyərlərə çevrilməsinə şərait yaradan sosial-iqtisadi mühitin yaradılmasına təminatı, eyni zamanda sahibkarın dövlətə münasibətdə özünün sosial və hüquqi məsuliyyətini dərk edərək onlardan irəli gələn vəzifələrin yerinə yetirilməsini nəzərdə tutur.

- *Dövlət-sahibkar münasibətlərinin institusionallaşdırılması.* Ölkədə sahibkarlığın davamlı inkişafının təmin edilməsi bu məqsədlə dövlətlə sahibkarlar arasında tərəfdaşlığın institusional təşkilini zərurətə çevirmişdir. Bu baxımdan yaradılmış mexanizmlər (Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu, Azərbaycan İnvestisiya Şirkəti, Sahibkarlığa Kömək Milli Fondu, Bakı Biznes Tədris Mərkəzi, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası və s.) dövlət-sahibkar münasibətlərinin sivil müstəvidə inkişafında əhəmiyyətli rol oynamaqdadır.

Həyata keçirilmiş tədbirlər nəticəsində ölkədə sahibkarlıq fəaliyyətini tənzimləyən prosedur və qaydalar xeyli liberallaşdırılmış, “bir pəncərə” sistemi tətbiq edilməklə biznes qeydiyyatı sistemi sadələşdirilmiş, sahibkarlar üçün biznes mühitinin əlverişliliyi

səviyyəsi əhəmiyyətli dərəcədə artırılmış, sahibkarlığa, o cümlədən kiçik və orta sahibkarlığa dövlət maliyyə dəstəyi mexanizmi təkmilləşdirilmiş, idxal-ixrac üçün həyata keçirilən prosedurlar daha da sadələşdirilmiş, ölkədə ixrac rüsumları ləğv edilmiş, mənfəət vergisinin dərəcəsi 20%-ə endirilmiş və sahibkarların hüquqlarının müdafiəsinin işlək mexanizmləri yaradılmışdır.

Həmçinin Azərbaycan Respublikasında sahibkarlıq subyektlərinin "bir pəncərə" prinsipi ilə qeydiyyatına 2008-ci ildən başlamaqla, ölkədə kommersiya hüquqi şəxslərin biznesə başlama prosedurlarının sayı 13-dən 2-dək, sərf edilən müddət isə 53 gündən 1 günədək, qeydiyyatın aparılması üçün tələb olunan sənədlərin sayı isə 5 dəfədən çox azalmışdır. 2011-ci ilin iyul ayından başlayaraq fərdi sahibkarların elektron qeydiyyatı prosesinin tətbiqi ilə qeydiyyata sərf olunan vaxt 2 gündən cəmi bir neçə dəqiqəyədək azaldılması nəticəsində elektron qeydiyyatın xüsusi çəkisi artmışdır. Bu islahatların davamı olaraq, 2012-ci ilin fevral ayından kommersiya hüquqi şəxslərin "e-qeydiyyat" sisteminin tətbiqinə başlanılmışdır. Sistemin tətbiqi ilə ölkədə yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin dövlət qeydiyyatına sərf olunan vaxt 3 gündən adi e-qeydiyyat zamanı 1 günədək, sürətli e-qeydiyyat zamanı isə bir neçə dəqiqəyə enmişdir.

2010-cu ildən hüquqi şəxslər və fərdi sahibkarlar arasında vergi yükünün bərabərləşdirilməsi, həmçinin sahibkarlıq fəaliyyətinin stimullaşdırılması məqsədi ilə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər üzrə gəlir vergisinin maksimal həddi 35%-dən 20%-dək aşağı salınaraq vahid dərəcə müəyyən edilmişdir ki, bu da fərdi sahibkarlıq subyektlərinin inkişafına və onların mənafelərinin qorunmasına xidmət edir.

Vergi inzibatçılığının daha da müasirləşdirilməsi məqsədi ilə Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, 1 yanvar 2010-cu il tarixindən etibarən elektron vergi-hesab fakturalarının tətbiqinə başlanmışdır. Görülmüş tədbirlər nəticəsində Azərbaycan iqtisadiyyatının bütün sahələrini əhatə etməklə böyük sahibkarlıq sinfi formalaşmış və qeyri-dövlət sektorunun payı 2000-ci illə müqayisədə artaraq 2016-cı ildə ÜDM-də 83,7%-ə, vergi daxilolmalarında 72,8% və məşğulluqda 75,4%-ə çatmışdır [VN].

Bu nailiyyətlərin möhkəmləndirilməsi və artırılması, həmçinin sahibkarlığın inkişafının davamlılığının təmin olunması məqsədilə ölkədə siyasət tədbirləri davam etdirilir. Bu baxımdan, Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə qəbul edilmiş "Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalı" Strateji Yol Xəritəsini xüsusi qeyd etmək olar. Bu sənəd ölkədə kiçik və orta sahibkarlığın qısa (2020-ci ilədək olan), orta (2025-ci ilədək olan) və uzunmüddətli (2025-ci ildən sonrakı) dövrlər üçün inkişafının əsas istiqamətlərini müəyyənləşdirir. Sənəddə kiçik və orta sahibkarlığın inkişafının strateji hədəfləri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

- uzunmüddətli perspektivdə KOS-un Azərbaycanın ÜDM-nə təsirini artırmaq məqsədilə ölkədə biznes mühitinin və tənzimləyici bazanın daha da yaxşılaşdırılması;
- KOS subyektlərinin dayanıqlı şəbəkəsinin yaradılması məqsədilə maliyyələşmə resurslarına sərfəli və səmərəli çıxışın təmin edilməsi;
- ölkənin valyuta ehtiyatlarının artırılması və ölkədə istehsal olunan malların beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi məqsədilə KOS-un fəaliyyətinin beynəlmiləlləşdirilməsi və xarici bazarlara çıxış imkanlarının artırılması;
- ixtisaslı işçi qüvvəsinin hazırlanmasına və KOS subyektlərinin bacarıqlarının inkişafına xüsusi diqqət ayırmaqla, regional bazarlarda keyfiyyətli məhsul və xidmətlər təklifinin artırılması;
- KOS subyektlərinin rəqabət qabiliyyətinin artırılması üçün innovasiyaların təşviqi, bu sahə ilə bağlı araşdırma və inkişaf fəaliyyətinin gücləndirilməsi.

Ölkə iqtisadiyyatının yenidən qurulması sahəsində qarşıda duran vəzifələrin yerinə yetirilməsi sahibkarlığın inkişafının sürətləndirilməsini, bu sektorun ölkənin sosial-iqtisadi problemlərinin həllində rolunun gücləndirilməsini, onun fəaliyyətinin ölkə iqtisadiyyatının inkişafı tələblərinə daha da uyğunlaşdırılmasını, bu istiqamətdə dövlət dəstəyi tədbirlərinin çərçivəsinin genişləndirilməsi və onların ünvanlılığının daha da artırılmasını, regionlarda sahibkarlığın inkişafı sahəsində mövcud potensialın daha tam və səmərəli reallaşdırılmasını nəzərdə tutur.

**Ölkənin reytinqi.** Ölkənin sosial-iqtisadi sahədə əldə etdiyi uğurlar nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən müsbət qiymətləndirilmişdir. Belə ki, 2008-ci ilin ikinci yarısından etibarən, dünyanı bürüyən maliyyə-iqtisadi böhran şəraitində "Standard & Poors" agentliyi tərəfindən reytinqi yenidən qiymətləndirilən ölkələr (Rusiya, Qazaxıstan, Çin, İspaniya, Yunanıstan və sair ölkələr) sırasında reytinqin müsbət istiqamətdə dəyişməsi ilk dəfə olaraq məhz Azərbaycan Respublikası üzrə qeydə alınmışdır. "2008-ci ilin dekabr ayinda "Standard & Poors" beynəlxalq reytinq agentliyi tərəfindən Azərbaycan Respublikasının kredit reytinqi xarici və yerli valyutada qısamüddətli kreditlər üçün "B", uzunmüddətli kreditlər üçün isə "BB+" səviyyəsində müəyyən olunmuş, 2009-cu ilin dekabr ayından iqtisadi perspektiv "Stabil"dən "Müsbət"ə dəyişdirilmiş, 2011-ci ildən isə "BBB - " səviyyəsinə qaldırılmış və 2015-ci ilə kimi də bu səviyyə saxlanılmışdır. Həmçinin "Fitch" reytinq agentliyi 2010-cu ilin may ayından Azərbaycan Respublikasına uzunmüddətli yerli və xarici valyutada müəyyən etdiyi reytinqi "BBB-" səviyyəsinə qaldırmışdır. Bu reytinq agentliyi tərəfindən ölkəyə qısamüddətli kreditlər üçün reyting "F3" səviyyəsində müəyyən olunmuş, iqtisadi perspektiv isə "Sabit" qiymətləndirilmişdir. 2011-2014-cü illərdəki qiymətləndirmələrdə də bu reytinq saxlanılmışdır.

"Moody's" beynəlxalq reytinq agentliyi tərəfindən 2006-2011-ci illərdə Azərbaycana "Ba1" kredit reytinqi verilmiş və iqtisadi perspektiv 2006-cı ildə "Sabit" qiymətləndirilmiş, 2007-2011-ci illərdə isə "Müsbət"ə dəyişdirilmişdir. 2012-2014-cü illərdə isə bu agentlik tərəfindən ölkənin uzunmüddətli kredit reytinqi "Baa3"-ə yüksəldilmiş və prespektiv isə "Sabit" qiymətləndirilmişdir.

Qeyd olunan reytinq agentlikləri tərəfindən müəyyən edilmiş müvafiq "BBB-" və "Baa3" kredit reytinqlərinin verilməsi Azərbaycana beynəlxalq maliyyə qurumları tərəfindən etimadın artması göstəricisi olmaqla yanaşı, borclanma qabiliyyətinin artırılmasına, hökumət və ölkəmizin iri şirkətləri tərəfindən beynəlxalq maliyyə bazarlarında borclanma məqsədilə qiymətli kağızların emissiyası üçün zəruri şəraitin yaradılmasına, hökumət zəmanəti ilə alınan kreditlərə görə ödənilən faiz dərəcələrinin və sığorta mükafatlarının azalmasına və beləliklə də ölkənin beynəlxalq kapital bazarına çıxışının asanlaşdırılmasına, birbaşa xarici investisiyaların həcminin artımına, maliyyə resurslarının dəyərinin ucuzlaşmasına və beynəlxalq arenada onun imicinin artmasına şərait yaratmışdır.

**"Doing Business 2015" hesabatında** Azərbaycan ən çox islahat aparan ilk 10 ölkə sırasında 8-ci yerdə qərarlaşmışdır. Belə ki, 2013-2014-cü illərdə "əmlakın qeydiyyatı", "biznesə başlama" və "vergilərin ödənişi" sahələrində həyata keçirilmiş islahatlar hesabatda xüsusilə qeyd olunmuş və dünya ölkələrinə yaxşı nümunə kimi təqdim olunmuşdur. Həmçinin 2007-ci ildən başlayaraq 9 sahə üzrə ("biznesə başlama", "tikintiyə icazələrinin alınması", "əmlakın qeydiyyatı", "kreditlərin alınması", "investorların maraqlarının qorunması", "vergilərin ödənişi", "müqavilələrin icrası", "xarici ticarətin aparılması" və "İşçilərin işə qəbulu") ölkədə ardıcıl şəkildə reallaşdırılan 19 islahat "Doing Business" hesabatlarında öz əksini tapmışdır.

"Doing Business 2016" hesabatinda Azərbaycan 63-cü pillədə yer almışdır və burada ölkənin "biznesə başlama", "tikinti icazələrinin alınması" və "azlıqda olan səhmdarların qorunması" sahəsindəki nailiyyətləri alqışlanmışdır.

**BMT İnkişaf Proqramının İnsan İnkişafı Hesabatına** görə, Azərbaycan 2010-cu ildən “orta insan inkişafı” statusuna malik ölkələr qrupundan “yüksək insan inkişafı” statusuna malik ölkələr qrupuna keçmişdir. 2015 və 2016-ci illər üzrə İnsan İnkişafı Hesabatlarına görə, Azərbaycan İnsan İnkişafı İndeksi üzrə 188 ölkə və ərazi arasında (0,751 -2014, 0,759 -2015 balla) 78-ci yeri tutmuşdur. 2010-cu ildən bəri Azərbaycanın İnsan İnkişafı İndeksi göstəricisi Avropa və Mərkəzi Asiya ölkələri üçün orta səviyyədən yuxarı olur (2015-ci il üçün Azərbaycanın İnsan İnkişafı İndeksi 0,759, Avropa və Mərkəzi Asiya ölkələri üçün isə bu göstərici 0,756 olmuşdur) [15].

**Dünya İqtisadi Forumunun "Qlobal Rəqabət Qabiliyyəti İndeksi 2016-2017" Hesabatında** Azərbaycan "makroiqtisadi mühit" göstəricisi üzrə dünyada 39-cu, "məcmu milli yığımın ÜDM-ə nisbəti" göstəricisi üzrə 37-ci, "ümumi dövlət borcunun ÜDM-ə nisbəti" üzrə 41-ci, “biznesə başlamaq üçün prosedurlarının sayı” göstəricisi üzrə 3-cü, “biznesə başlamaq üçün lazım olan günlərin sayı” göstəricisi üzrə 9-cu, "əmək bazarının səmərəliliyi" göstəricisi üzrə 26-cı yerdədir. Əgər 2006-ci ildə Azərbaycan hesabatda 138 ölkə arasında 64-cü yeri tuturdusa, sonuncu hesabatda 138 ölkə arasında 37-ci yerdə qərarlaşmışdır. Qeyd etmək lazımdır ki, artıq 7 ildir ki, Azərbaycan sözügedən hesabatda MDB ölkələri arasında liderliyini qoruyub saxlayır.

**“Qlobal İnnovasiya İndeksi 2016” Hesabatına** görə, Azərbaycan 128 ölkə içərisində 85-ci yerdədir. O cümlədən, “insan kapitalı və tədqiqat”a görə 93, “biznesin təkmilləşməsi”nə görə 123 və “bilik və texnoloji məhsul” üzrə 101-ci pillədə qərarlaşıb. Hesabata əsasən, Azərbaycanın güclü tərəfləri olaraq “biznesə başlama rahatlığı” (7), “mikromaliyyə təşkilatlarının ümumi kreditlərinin artımının ÜDM-ə nisbəti” (11), “investisiyalar” (13), “daxili bazarın inkişafı” (27), “vahid enerji istifadəsinin ÜDM-ə nisbəti” (29), “İKT və təşkilati model yaradılması” (29) və “azlıqda olan investorların qorunma rahatlığı” (35) kimi istiqamətləri göstərmək olar.

## 4.2. DAVAMLI İNKİŞAF MODELİNƏ KEÇİDİN TƏŞVİQİ ÜZRƏ SİYASƏT TƏDBİRLƏRİ

Təhlil göstərir ki, Azərbaycanda dayanıqlı inkişaf modelinə MİM-lərin icrası prosesində başlanılmışdır. Belə ki, MİM-lərin icrası məqsədilə qəbul olunmuş YAİİDP və YADİDP davamlı inkişaf konsepsiyasına əsaslanır və bu proqramlar çərçivəsində nəzərdə tutulmuş məqsədlərin icrasını təmin etmək üçün ölkədə mühüm islahatlar aparılmış, müvafiq qanunvericilik bazası formalaşdırılmış, müxtəlif sahələr üzrə bir sıra strategiyalar, dövlət proqramları qəbul edilmiş və icra edilmişdir.

Baxılan dövrdə əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsini gücləndirmək məqsədilə "Yaşayış minimumu", "Ünvanlı dövlət sosial yardımı", "Sosial müavinətlər", "Əmək pensiyası" haqqında Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi sənədlər qəbul edilmişdir. Ölkənin əməkqabiliyyətli əhalisinin məşğulluğunu təmin etmək məqsədilə "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" və onun həyata keçirilməsi üzrə 2 Dövlət Proqramı (2007-2010-cu illər və 2011-2015-ci illər üzrə) qəbul edilmiş, bunlar əsasında əmək bazarının tənzimlənməsinin təkmilləşdirilməsi, işçi qüvvəsinə olan tələbatın stimullaşdırılması və insan kapitalının inkişaf etdirilməsi, sosial cəhətdən həssas əhali qruplarının məşğulluğunun təmini, işaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində işlər aparılmışdır.

***YAİİDP-in strateji məqsədləri:***

- *gəlir əldə etmək imkanlarının artırılması üçün əlverişli mühitin yaradılması;*
- *makroiqtisadi sabitliyin qorunub saxlanılması;*
- *əsas səhiyyə və təhsil xidmətləri üzrə keyfiyyətin və həmin xidmətlərdən istifadə üçün bərabər imkanların yaxşılaşdırılması;*
- *infrastrukturun yaxşılaşdırılması (o cümlədən, yollar, kommunal xidmətlər, rabitə, meliorasiya və s.);*
- *həssas qrupların daha səmərəli müdafiəsi üçün mövcud sosial müdafiə sistemində müvafiq islahatların həyata keçirilməsi;*
- *qaçqın və məcburi köçkün əhalinin həyat şəraitinin yaxşılaşdırılması.*

***YADİDP-in strateji məqsədləri:***

- *makroiqtisadi sabitliyi saxlamaq və qeyri-neft sektorunu tarazlı inkişaf etdirməklə davamlı iqtisadi artımın təmin edilməsi;*
- *əhalinin gəlir əldə etmək imkanlarının genişləndirilməsi, yoxsul əhalinin sayının əhəmiyyətli dərəcədə azalmasına nail olunması;*
- *səmərəli sosial müdafiə sistemini inkişaf etdirməklə yaşlı əhalinin, aztəminatlı ailələrin və sosial cəhətdən xüsusilə həssas qrupların sosial riskinin azaldılması;*
- *qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması tədbirlərinin sistemli şəkildə davam etdirilməsi;*
- *təhsil və səhiyyə sahəsində əsas xidmətlərin keyfiyyətinin yüksəldilməsi və onları əldə etmək üçün bərabər imkanların yaradılması;*
- *sosial infrastrukturun inkişaf etdirilməsi, kommunal xidmətlər sisteminin təkmilləşdirilməsi;*
- *ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin davamlı idarə olunmasının təmin edilməsi;*
- *gender bərabərliyinin dəstəklənməsi;*
- *institusional islahatların davam etdirilməsi və dövlət idarəetməsinin təkmilləşdirilməsi.*

MİM-lərin icrası dövründə ölkədə regionların sosial-iqtisadi inkişafı istiqamətində 3 dövlət proqramı (2004-2008, 2009-2013 və 2014-2018-ci illər üzrə) qəbul olunmuşdur. Bu proqramlarda sənaye və kənd təsərrüfatı sahələrinin inkişafı, elektrik enerjisi, istilik və qaz təchizatı, rabitə, su təchizatı və kanalizasiya xidmətlərinin yaxşılaşdırılması, ekologiya və təbii sərvətlərdən istifadə, təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələrinin tikintisi və yenidən qurulması istiqamətində mühüm işlər görülmüşdür ki, bu da ölkədə dayanıqlı inkişafa təkan verən amillərdəndir.

Baxılan dövrdə Azərbaycanda təhsil sektoru üzrə də aşağıdakılar kimi bir sıra dövlət proqramları qəbul olunmuş və həyata keçirilmişdir: Yeni ümumtəhsil məktəbləririn tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair Proqram (2003-2007-ci illər), Məktəbəqədər təhsilin

yeniləşdirilməsi Proqramı (2007-2010-cu illər), Dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (deinstitutlaşdırma) və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər), Ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005-2007-ci illər), Təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı (2008-2012-ci illər), Texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər), Ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı (2009-2013-cü illər), 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı, "Elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı (2009-2015-ci illər), "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və s. Bu dövrdə ölkədə təhsilin müasir tələblərə cavab verən normativ hüquqi bazası yaradılması ilə yanaşı, Ali təhsildə Bolonya Bəyannaməsindən irəli gələn başlıca prinsiplərin tətbiqi, təhsil infrastrukturunun yenilənməsi, təhsil müəssisələrinin müasir informasiya, elmi-metodiki və dərsliklə təminatın yaxşılaşdırılması, ucqar kənd məktəblərinin zəruri pedaqoji kadrlarla təmin edilməsi, məktəbəqədər və peşə təhsili xidmətlərinin müasir tələblər səviyyəsində qurulması məqsədilə bir sıra layihələr həyata keçirilmişdir.

Baxılan dövr ərzində səhiyyənin aşağıdakı kimi prioritet sahələri üzrə bir sıra qanunlar və proqramlar qəbul olunmuş və icra edilmişdir: "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Dərman vasitələri haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanunları qəbul edilmiş; 2011-2015-ci illər üçün "Şəkərli diabet", "Vərəmlə mübarizə", "Talassemiyanın müalicə və profilaktikası", "Hemofiliya xəstəliyi" üzrə və s. Tədbirlər Proqramları; Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya və s. Səhiyyə sahəsində aparılan islahatlar nəticəsində 1 fevral 2008-ci il tarixdən dövlət büdcəsindən maliyyələşən tibb müəssisələrində şəkərli diabet, xroniki böyrək çatışmazlığı, irsi qan və yoluxucu xəstəliklərdən əziyyət çəkən xəstələr dövlət hesabına pulsuz müalicə alır və dərmanlarla təchiz olunur. Ölkkədə İİV infeksiyasının aşkarlanması, profilaktikası və İİV-li insanların müalicəsi sahəsində müvafiq tədbirlər həyata keçirilmiş, "İnsan immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" Qanun, "2011-2015-ci illər üçün yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı" və "2016-2020-ci illər üçün İİV/QİÇS-lə mübarizə üzrə Tədbirlər Proqramı" qəbul olunmuşdur. Hazırda ölkədə İİV infeksiyası ilə mübarizə aparan müasir avadanlıqla təchiz olunmuş tibb müəssisələri şəbəkəsi, o cümlədən Respublika QİÇS-lə Mübarizə Mərkəzi, şəhər və rayonlarda regional antiretrovirus terapiya mərkəzləri mövcuddur.

Ətraf mühitin əhalinin sağlamlığına və dolayı yolla onun rifah halına təsirini nəzərə alaraq bu istiqamətdə də zəruri qanunlar və siyasət sənədləri qəbul edilmiş və müvafiq tədbirlər həyata keçirilir. Xüsusi qeyd etmək lazımdır ki, bu dövrdə ölkə ərazisində davamlı olaraq meşələr salınmış, meşə-meliorasiya tədbirləri həyata keçirilmişdir. 2008-2015-ci illər ərzində 83877 ha sahədə meşəbərpa tədbirləri, o cümlədən 25300 ha sahədə meşə əkini və səpini işləri yerinə yetirilmiş və 53,2 milyonadək ağac əkilmişdir.

Dayanıqlı inkişaf modelinə keçid istiqamətində MİM-lərin icrası prosesində qazanılmış nailiyyətlərin möhkəmləndirilməsi və artırılması məqsədilə Azərbaycan hökuməti tərəfindən vaxtaşırı məqsədyönlü addımlar atılır. Bu baxımdan aşağıdakı kimi siyasət sənədlərinin qəbulu və icrası mühüm əhəmiyyət kəsb edir:

- "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Bu sənəd mütəxəssislərin iştirakı və geniş ictimai müzakirələr əsasında hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının əsas prioritetlərinə aşağıdakılar daxildir: Yüksək rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşdırılması (səmərəli dövlət tənzimləməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşması, iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektorunun inkişafı, elmi potensialın və innovasiya fəaliyyətinin

dəstəklənməsi, nəqliyyat, tranzit və logistika infrastrukturunun təkmilləşdirilməsi, bölgələrin tarazlı inkişafı); İKT-nin inkişafı və informasiya cəmiyyətinə keçidin təmin edilməsi; insan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması (əhalinin sağlamlığının mühafizəsi və səhiyyə sisteminin təkmilləşdirilməsi, müasir təhsil sisteminin formalaşdırılması, sosial müdafiə sisteminin təkmilləşdirilməsi, gender bərabərliyinin təmin edilməsi və ailənin inkişafı, gənclərin potensialının və idmanın inkişafı); qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi; vətəndaş cəmiyyətinin inkişafı; mədəni irsin qorunması və səmərəli idarə edilməsi; ətraf mühitin qorunması və ekoloji tarazlığın təmin olunması.

- Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında” 06 dekabr 2016-cı il tarixli Fərmanına müvafiq olaraq təsdiq edilmiş Milli iqtisadiyyat və iqtisadiyyatın 11 prioritet sektorunun (neft və qaz sənayesi (kimya məhsulları daxil olmaqla); kənd təsərrüfatı məhsullarının istehsalına və emalı; KOS səviyyəsində istehlak mallarının istehsalı; ağır sənaye və maşınqayırma; ixtisaslaşmış turizm sənayesi; logistika və ticarət; uyğun qiymətə mənzil təminatı; peşə təhsili və təlimi; maliyyə xidmətləri; telekommunikasiya və informasiya texnologiyaları; kommunal xidmətlər (elektrik və istilik enerjisi, su və qaz)) inkişafı üzrə ümumilikdə 12 strateji yol xəritəsi. Strateji yol xəritələri qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ci ilədək inkişaf strategiyası və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdirlər. Bu sənədlər təkcə inkişaf məqsədləri və prinsiplərini deyil, həm də hər bir istiqamət üzrə qlobal meyilləri, iqtisadiyyatın 360 dərəcəli diaqnostikasını və mövcud vəziyyətin GZİT təhlilini, görüləcək tədbirləri, tələb olunan investisiya və nəticə indikatorlarını əhatə edir. Qısamüddətli dövrdə seçilmiş prioritetlərə fokuslanmaqla orta və uzunmüddətli dövrlərdə iqtisadi inkişafın bünövrəsi qoyulacaqdır. Strateji Yol Xəritəsi iqtisadi inkişafa töhfə verən bütün faktorları, o cümlədən yerli və beynəlxalq özəl sektor nümayəndələri ilə kommunikasiya və əməkdaşlıq üçün imkanları təmin edəcəkdir. Dövlət investisiyaları katalizator rolunu oynayacaq, iqtisadi inkişafın lokomotivi isə özəl sektor olacaqdır.

Bunlarla yanaşı, beynəlxalq tərəfdaşlarla əməkdaşlıqla əlaqədar imzalanmış bir sıra sənədlərdə də dayanıqlı inkişaf məsələlərinə xüsusi yer verilir. Belə sənədlərdən ən ümumisi kimi 12 iyul 2016-cı il tarixində Bakıda imzalanmış “2016-2020-ci illər üçün Birləşmiş Millətlər Təşkilatı (BMT)-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) sənədini xüsusi qeyd etmək olar. UNAPF hazırlanarkən “Azərbaycan-2020: gələcəyə baxış İnkişaf Konsepsiyası”nda qeyd olunmuş milli prioritetlər, 2015-ci ildən sonrakı dövr üçün müəyyənləşdirilmiş DİM-lər nəzərə alınmışdır. Sənəddə bir-biri ilə əlaqəli olan üç strateji prioritet sahə müəyyən edilmişdir: 1. Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi; 2. İnstitusional potensialın gücləndirilməsi, səmərəli ictimai və sosial xidmətlər; 3. Ətraf mühitin idarə edilməsinin təkmilləşdirilməsi, risk və təbii fəlakətlərə qarşı dayanıqlılığın artırılması.

Bu prioritet sahələr çərçivəsində insan hüquqlarına əsaslanan yanaşma; gender bərabərliyi; gənclər; monitorinq və qiymətləndirmə üçün xüsusi potensialın inkişaf etdirilməsi (məsələn, təşkilati, texniki, idarəetmə) və ümumi dəlillərə əsaslanma yanaşmasının təkmilləşdirməsi kimi ümumi kəsişən məsələlər də olacaqdır.

UNAPF-nin icrasına, fəaliyyət istiqamətlərinə uyğun olaraq, BMT-nin aşağıda sadalanan müvafiq qurumları da cəlb olunur: FAO, IFAD, BƏT, BMqT, UNCTAD, BMTİP, UNECE, UNESCO, UNEP, BMTQAK, UNICEF, UNIDO, ÜST, UNFPA, UNODC, ÜST, OHCHR, İstanbulda Regional Mərkəz [4].

Göründüyü kimi, bu sənədlərdə əks olunan prioritetlər DİM-lər ilə uzlaşır və ölkədə bu prioritetlərin reallaşdırılması məqsədilə aparılan siyasət, həyata keçirilən tədbirlər və digər fəaliyyətlər Azərbaycan Respublikasının bu məqsədlərə də nail olunmasında öncül yer tutaraq dünya birliyinin ümumi işinə layiqli töhfə verəcəyinə zəmin yaradır. .

## 4.3. ÖLKƏNİN İNKİŞAF PERSPEKTİVLƏRİNƏ UZUNMÜDDƏTLİ BAXIŞDA DAYANIQLI İNKİŞAF MƏSƏLƏLƏRİNİN YERİ

Əvvəlki bölmələrdə də qeyd olunduğu kimi, 2000-2015-ci illər ərzində Azərbaycan sosial-iqtisadi inkişaf sürətinə görə dünyada ön sıralarda qərar tutmuşdur. Uğurlu həyata keçirilən neft strategiyası əsasında əldə olunmuş gəlirlər hesabına infrastruktur modernləşdirilmiş, qeyri–neft sektorunun inkişafı üçün zəmin yaradılmış, sosial rifah yaxşılaşdırılmış, dövlətin balansında olan aktivlər artmış və ÜDM-in həcmi ilə müqayisə olunan səviyyədə strateji valyuta ehtiyatları yaradılmışdır. 2014-cü ildən başlayaraq neft qiymətlərinin kəskin azalması və ticarət tərəf-müqabili olan ölkələrdə baş verən iqtisadi böhran nəticəsində ölkədə iqtisadi artımın zəifləməsi, institusional və struktur çağırışları, tədiyə balansı və qeyri–neft büdcə kəsiri, maliyyə-bank sektorunda baş verən proseslər fonunda Azərbaycanda yeni iqtisadi inkişaf yanaşmasına keçid zərurəti yaranmışdır.

Bu zərurət nəzərə alınaraq, Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında” 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamına müvafiq olaraq milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru (neft və qaz sənayesi (kimya məhsulları daxil olmaqla); kənd təsərrüfatı məhsullarının istehsalı və emalı; kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalı; ağır sənaye və maşınqayırma; ixtisaslaşmış turizm sənayesi; logistika və ticarət; uyğun qiymətə mənzil təminatı; peşə təhsili və təlimi; maliyyə xidmətləri; telekommunikasiya və informasiya texnologiyaları; kommunal xidmətlər (elektrik və istilik enerjisi, su və qaz)) üzrə ümumilikdə 12 strateji yol xəritəsi hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında” 06 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir. Strateji yol xəritələri qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ci ilədək inkişaf strategiyası və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdirlər.

Strateji yol xəritələri ölkənin inkişafı ilə əlaqədar qəbul olunmuş və hazırda icra olunan strategiya, proqram və digər siyasət sənədlərində, o cümlədən “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında qarşıya qoyulan məqsəd və vəzifələrin müasir dövrdə dünyada və regionda baş verən proseslər, qlobal və regional çağırışlar və onların ölkəyə təsirləri nəzərə alınmaqla keyfiyyətcə yeni inkişaf modeli əsasında həyata keçirilməsini bəyan edən siyasət sənədləridir.

Bu sənədlərdə perspektiv dövrdə ölkədə dayanıqlı inkişaf konsepsiyasına əsaslanan post-neft dövrünə uyğun inkişaf modelinə heçidin hədəfləndiyi vurğulanır. Belə ki, “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”ndə nəzərdə tutulur ki, perspektiv dövrdə davamlı inkişafı təmin edəcək yeni "avanqard" sektorların üzərində fokuslanmaqla, iqtisadiyyatın strukturu qeyri-ticari bölməyə nisbətən ticari bölmənin, hasilata nisbətən emalın, dövlət sahibkarlığına nisbətən özəl sahibkarlığın, aşağı texnologiya tutumlu sektorlara nisbətən yüksək texnologiyalara əsaslan sektorların, aşağı ixtisaslı əməyə nisbətən yüksəkixtisaslı əməyə əsaslanan sahələrin, azgəlirli bazarlara nisbətən yüksəkgəlirli bazarların və aşağı dəyər yaradan sektorlara nisbətən yüksək dəyər yaradan sektorların daha üstün artımı hesabına yenidən balanslaşacaqdır. Milli iqtisadiyyatın strukturunun yenilənməsi biznes mühitinin daha da yaxşılaşdırılması, ortamüddətli xərclər strategiyası çərçivəsində yeni siyasətin tətbiq edilməsi, maliyyə–bank sisteminin sağlamlaşdırılması və monetar siyasətin üzən məzənnə rejimi üzərində təkmilləşdirilməsi, habelə xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi ilə mümkün olacaqdır.

Buna görə də milli iqtisadiyyat perspektivi çərçivəsində dörd strateji hədəf seçilmişdir. Bu hədəflərin və 11 sektor üzrə strateji yol xəritələrinin həyata keçirilməsi

nəticəsində real və maliyyə sektorları arasında tarazlığın təmin edilməsi yolu ilə davamlı iqtisadi inkişaf mümkün olacaqdır. Birinci strateji hədəfə uyğun olaraq Azərbaycanda fiskal dayanıqlılıq təmin ediləcək və monetar siyasət üzən məzənnə rejimi üzərində qurulacaqdır. Fiskal və monetar siyasətlərin uzlaşdırılması makroiqtisadi sabitliyi təmin edəcəkdir. Milli iqtisadiyyat perspektivində ikinci hədəf paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması və özəlləşdirmənin həyata keçirilməsi yolu ilə iqtisadi dinamikliyi təmin etməkdən ibarətdir. Üçüncü hədəf insan kapitalının inkişafı ilə bağlıdır ki, bununla əmək bazarının inkişafı milli iqtisadiyyat perspektivinə uyğunlaşdırılacaqdır. Nəhayət, dördüncü hədəf biznes mühitinin daha da yaxşılaşdırılmasını nəzərdə tutur.

Qeyd olunanlara əsaslanılaraq, milli iqtisadiyyat perspektivi üzrə qısa, orta və uzunmüddətli dövrlər üzrə əsas hədəflər aşağıdakı kimi müəyyən olunmuşdur:

***2020-ci ilədək strateji baxış:*** Azərbaycan iqtisadiyyatının əvvəlcə xarici şokların mənfi təsiri nəticəsində yaranmış vəziyyətdən çıxmaq üçün qısamüddətli dönəmdə sabitləşdirilməsinə, ortamüddətli dönəmdə şaxələnmə və yeni hərəkətverici qüvvələr hesabına inkişaf xəttinin bərpa edilməsinə, dövrün sonunda isə dünya iqtisadiyyatına daha çox inteqrasiya etməklə rəqabət qabiliyyətinin artırılmasına nail olmaq.

2020-ci ilədək strateji baxış 2025-ci il və ondan sonrakı dövr üçün qurulacaq iqtisadiyyatın təməllərinin inkişafına xidmət edəcəkdir. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində, həmçinin nəqliyyat–logistika dəhlizlərinin inkişafında mühüm rolu qorunmaqla yanaşı, həm də şaxələnmə, mütərəqqi struktur dəyişiklikləri, iqtisadiyyatın, dövlət büdcəsinin və mübadilə məzənnəsinin neft gəlirləri və qiymətlərindən asılılığının azaldılması və bazarlara çıxış imkanının daha da genişləndirilməsi hesabına iqtisadiyyatın rəqabətqabiliyyətliliyini artırmaqla dünya iqtisadiyyatında mövqelərini yaxşılaşdırılmasına nail olmaq nəzərdə tutulur. Bu zaman yeni iş yerlərinin yaradılması ilə yanaşı, mənzil təminatının yaxşılaşdırılması, müasir tələblərə uyğun təhsil və səhiyyə xidmətlərinin göstərilməsinə dəstək verən sistemin inkişafı, kommunal xidmətlərin təkmilləşdirilməsi və ünvanlı sosial yardım sistemindən reabilitasiyaya keçidin təmin edilməsi yolu ilə yoxsulluğun azaldılmasına səylərin göstərilməsi də diqqət mərkəzində olacaqdır.

***2025-ci ilədək uzunmüddətli baxış:*** dayanıqlı inkişaf magistralına daxil olmuş Azərbaycan iqtisadiyyatının bütün tərəflərin faydalı əməkdaşlığı şəraitində daha çox dəyər yaratmaqla rəqabət qabiliyyətinin gücləndirilməsinə nail olmaq.

Bu dövrdə azad rəqabət mühitinin inkişafı və özəl sektorun dəstəklənməsi yolu ilə milli iqtisadiyyata daha çox investisiya cəlbi və bazarlara çıxış imkanının genişləndirilməsi nəzərdə tutulur. Bu zaman milli iqtisadiyyatın inkişafı qlobal və regional kontekstdə başlıca meyillər nəzərə alınmaqla təmin ediləcək, həmçinin qlobal və regional dəyər zəncirlərinə inteqrasiya əsas götürüləcəkdir. Makroiqtisadi sabitliyin qorunması, biznes mühitinin yaxşılaşdırılması, özəl sektorun investisiya qoyuluşlarının təşviqi və dəstəkləyici dövlət sektoru Azərbaycanın 2025-ci ilədək olan dövrdə iqtisadi inkişaf perspektivinin fundamental əsası hesab olunur.

***2025-ci ildən sonrakı dövr üçün hədəf baxış:*** sosial rifah halının yaxşılaşdırılmasını və insan inkişafı indeksinin ən yüksək həddə çatdırılmasını təmin edən və yüksək texnoloji inkişafa və iqtisadiyyatın optimal strukturuna əsaslanan güclü rəqabətqabiliyyətli və inklüziv iqtisadiyyat qurmaq.

Nəzərdə tutulur ki, güclü orta təbəqə, rəqabət üstünlüyü olan sahələrdə dərin ixtisaslaşma, dünya iqtisadiyyatı ilə effektiv inteqrasiya, milli iqtisadi təhlükəsizliyin təmin edilməsi və inkişaf etmiş infrastruktur 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışın əsas sütunlarını təşkil edəcəkdir. Eyni zamanda, Azərbaycan DİM-lərə uyğun olaraq, dünyanı dayanıqlı və güclü edəcək təxirəsalınmaz, cəsarətli və transformativ tədbirlərin həyata keçirilməsi öhdəliyinə sadiq qalacaqdır. Elə ki, bu dövrdə iqtisadi potensialın gücləndirilməsi və iqtisadi artımın davamlılığının təmin olunması (makroiqtisadi

sabitliyin, o cümlədən fiskal dayanıqlılığın möhkəmləndirilməsi, əlverişli biznes mühitin yaradılması, infrastrukturun inkişafı, xarici bazarlara çıxışın sərbəstləşdirilməsi, xarici investisiyaların təşviqinin gücləndirilməsi ilə iqtisadiyyatın xarici şoklara davamlılığının artırılması və əmək məhsuldarlığının yüksəldilməsi, səmərəlilikəsaslı modeldən innovasiyaəsaslı modelə keçilməsi, əhalinin əhalinin hər nəfərinə düşən real gəlirlərinin nəzərəçarpacaq dərəcədə artması, Dünya Bankının təsnifatına əsasən, “yüksəkgəlirli ölkə” statusu qazanılması, iqtisadiyyatın şaxələndirilməsinin genişləndirilməsi, qeyri-neft sektorunun inkişafı, ixracın və valyuta gəlirlərinin artırılması), əhalinin sosial rifahın yaxşılaşdırılması (yoxsulluğun ünvanlı şəkildə tam aradan qaldırılması, keyfiyyətli səhiyyə xidmətlərinə və təhsilə çıxış imkanlarının genişləndirilməsi, ərzaq təhlükəsizliyinin təmin olunması, mənzil təminatının yaxşılaşdırılması, elektrik enerjisi, su və kanalizasiya, istilik və qaz təchizatı sektorlarında səmərəliliyin və xidmət səviyyəsinin yüksəldilməsi, sosial dialoqun inkişafı və inklüziv məşğulluğun artırılması) və ətraf mühitin mühafizəsinin gücləndirilməsi (ölkədə karbon emissiyasının azaldılması ilə hava, su və torpağın ekoloji baxımdan daha təmiz olmasına şərait yaradılması, enerji səmərəliliyi prinsipi əsasında ÜDM-in hər bir vahidinin istehsalı üçün enerji sərfiyyatının minimuma endirilməsi, ölkənin enerji balansında bərpa oluna bilən enerji növlərinin payının artırılması, tullantıların, o cümlədən zərərli qazlar, çirkab suları və radioaktiv tullantıların səmərəli idarə edilməsi sistemi yaradılması) diqqət mərkəzində olacaqdır.

Qeyd olunanlar göstərir ki, Azərbaycanda ölkənin inkişaf perspektivlərinə uzunmüddətli baxışda dayanıqlı inkişaf məsələlərinə xüsusi önəm verilir və onun iqtisadi, sosial və ekoloji ünsürlərinə inteqrasiyalı yanaşma sərgilənir. Bununla yanaşı, DİM-lər üzrə siyasətləri və fəaliyyətləri sıx əlaqələndirmək və mövcud resurslardan və imkanlardan daha səmərəli istifadə etmək üçün müvafiq fəaliyyət planının və ya milli proqramın hazırlanması da gündəmdədir.

# 5. DİM-LƏRƏ NAİL OLUNMASI ÜZRƏ HƏYATA KEÇİRİLƏN SİYASƏT TƏDBİRLƏRİ VƏ YARADILAN ƏLVERİŞLİ MÜHİT

## 5.1. DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİNİN MİLLİLƏŞDİRİLMƏSİ VƏ MİLLİ İNKİŞAF GÜNDƏLİYİNƏ DAXİL EDİLMƏSİ

Bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da DİM-lərin icrası üzrə fəaliyyətə onların və əlaqədar hədəflərin milliləşdirilməsindən və ölkənin inkişaf gündəliyinə daxil edilməsindən başlanılmışdır. Bu zaman, BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Rio de Janeyro-92 konfrasında qəbul olunmuş “XXI əsrin Gündəliyi”, o cümlədən “Davamlı inkişafın əsas prinsipləri”, Minilliyin Bəyannaməsi, Dayanıqlı İnkişaf Sammitində təsdiqlənmiş “2030 Gündəliyi”, insan hüquqları haqqında beynəlxalq müqavilələr və bu kimi digər beynəlxalq sənədlərin müddəaları nəzərə alınır və “2030 Gündəliyi”ndə DİM-lərin icrası üçün birgə yanaşma çərçivəsində təsbit olunmuş aşağıdakı başlıca prinsiplərə istinad olunur:

- *Universallıq:* “2030 Gündəliyi”nin məqsəd və hədəfləri universal xarakter daşıdığından dünyadakı bütün insanların maraqlarına xidmət edir, hamı üçün bərabər imkanlar yaradılmasını hədəfləyir və yalnız zəif inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkələr qrupuna deyil, bütün ölkə tipologiyalarına tətbiq edilə bilər. DİM-lərin konsepsiyası, ümumi və kollektiv məsuliyyət nəzərə alınmaqla, qarşıya qoyulan hədəfləri yerinə yetirmək üçün milli səviyyədə uyğunlaşdırılmış və fərqli yanaşmalara imkan verir. Bu prinsipə əsaslanaraq Azərbaycan qlobal DİM-lər, hədəflər və göstəricilərin milliləşdirilməsi və ölkənin inkişaf gündəliyinə daxil edilməsi zamanı milli məqsəd və hədəflərin milli prioritetlərlə yanaşı, qlobal məqsəd və hədəflərə uyğunluğunu və onları dəstəkləməsini də diqqət mərkəzində saxlayır.
- *İnteqrasiyalı yanaşma:* “2030 Gündəliyi” DİM-lərə nail olunması istiqamətində fəaliyyətlərin hər bir məqsəd və dayanıqlı inkişafın iqtisadi, sosial və ekoloji ünsürləri üzrə ayrılıqda deyil, inteqrasiyalı yanaşma əsasında əlaqələndirilmiş şəkildə həyata keçirilməsini nəzərdə tutur. İnteqrasiyalı yanaşmanı vacib edən sahələrarası əməkdaşlıq vasitəsilə daha yaxşı planlaşdırma və müvafiq istiqamətlərdə həyata keçirilən siyasətlərin əlaqələndirilməsi vasitəsilə mövcud resurslardan və imkanlardan daha səmərəli istifadəyə nail olmaqla daha çox uğur qazanmağın mümkün olmasıdır. Odur ki, Azərbaycan DİM-lərin icrası prosesinə vahid yanaşma formalaşdırmaqla dövlət qurumları arasında, hər birinin özünə aid olan sahə üzrə məsuliyyəti qalmaqla, sahələrarası əməkdaşlığın gücləndirilməsi üçün fəaliyyətlərin və siyasətlərin əlaqələndirilməsinin təşviq edilməsi yolunu tutmuşdur.
- *Heç kimi geridə buraxmamaq:* bu prinsip bütün dünyada nail olunması nəzərdə tutulan müxtəlif universal DİM-lər və onlar üzrə müəyyənləşdirilmiş hədəflərdə ifadə olunur (məsələn, kəskin yoxsulluğun aradan qaldırılması, aclığın aradan qaldırılması hədəfləri; təfsilatlı məlumatlardan sistematik istifadə; keyfiyyətli nəticələrə əsaslanan yanaşma; normativ çərçivələr və s.). Bu prinsip ölkələrdən hər bir hədəf üzrə geridə qalma ehtimalı olanları dəqiq müəyyənləşdirmək və onları geridə buraxmamağa yönələn tədbirlər görmək üçün daha çox işləməyə yönəldir. Bunun üçün Azərbaycan öz yanaşmalarını, inkişafa dəstək tədbirlərini və hər kəsə çatmaq üçün qət edilməli yolla bağlı imkanlarını və resurslarını yenidən qiymətləndirir və onların həssas təbəqələr və məsələlər nəzərə alınmaqla daha ünvanlı və səmərəli istifadə olunmasını planlaşdırmağa səy göstərir.

Ümumiyyətlə, Azərbaycanda “2030 Gündəliyi”nə bir qlobal inkişaf proqramı kimi geniş maraq vardır və bütün tərəfdaşlar DİM-lərin ölkə üçün uyğunluğunu qəbul edirlər. Bütün nazirliklər və digər dövlət qurumları DİM-lərin öz işlərinə və siyasətlərinə inteqrə olunmasına dəstək göstərməyə hazırdırlar. Azərbaycanda DİM-lərin icrası prosesində

“heç kimi geridə buraxmamaq” prinsipinə uyğun olaraq, həssas qruplar, o cümlədən qaçqın və məcburi köçkünlər, ahıl yaşda olan insanlar, əlilliyi olan şəxslər, uşaqlar, gənclərlə əlaqədar məsələlər, gender bərabərliyi və bu kimi digər məqamlar diqqət mərkəzindədir.

*Milliləşdirmə*. Azərbaycanda DİM-lərin və onlara uyğun olaraq müəyyənləşdirilmiş hədəf və göstəricilərin milliləşdirilməsi və ölkənin inkişaf gündəliyinə daxil edilməsi məqsədilə işçi qrupları və tərəfdaşlarla birgə hazırda ölkədə qüvvədə olan strategiyalar, proqramlar və digər siyasət sənədləri DİM-lərə uyğunluq baxımından nəzərdən keçirilir və boşluqların aradan qaldırılması üçün planlar hazırlanır. Bu işlər çərçivəsində dayanıqlı İnkişaf üzrə milli prioritetlərin və onlara dair göstəricilərin müəyyən edilməsi məqsədilə işçi qrupları və tərəfdaşlarla birgə aşağıdakı kimi tədbirlər də keçirilmişdir:

- 18 noyabr 2016-cı il tarixində keçirilmiş seminarda DİM-lərin hədəflərinə uyğun milli səviyyədə sənədlərin mövcudluğunu əks etdirən cədvəllərin doldurulma qaydası izah edilmişdir.
- 10-12 yanvar tarixlərində işçi qruplarında DİM-lər üzrə qlobal məqsəd və hədəflərə uyğun milli prioritetlərin və onlara dair göstəricilərin müəyyən edilməsi, ölkədə sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramlarının və strategiyaların DİM-lər ilə uzlaşdırılması üzrə geniş müzakirələr aparılmışdır.
- 11 yanvar 2017-ci il tarixində sosial sahələr üzrə DİM hədəflərinin seçilməsinin müzakirə edilməsi məqsədilə işçi qrupunun görüşü küçirilmişdir.
- 16 yanvar 2017-ci il tarixində DİM hədəflərinin seçilməsinə köməklik göstərilməsi məqsədilə “İqtisadi inkişaf və layiqli məşğulluq”, “Sosial məsələlər” və “Ekoloji məsələlər” üzrə işçi qruplarının rəhbərlərinin BMT-nin eksperti ilə görüşü keçirilmişdir.

Bu işlər və tədbirlər nəticəsində Azərbaycan üçün uyğun məqsəd, hədəf və göstəricilərin ilkin layihəsi hazırlanmışdır.

Seçimdə aşağıdakı kimi meyarlar əsas götürülmüşdür:

- Hədəflərin strateji proqram sənədlərində yer alması;
- Dayanıqlı inkişafa nail olmaq;
- Hədəflərin milli prioritetlərə uyğunluğu;
- Nailiyyətləri qiymətləndirməyə imkan verən göstəricilərin mövcudluğu.

DİM hədəfləri seçilərkən aşağıdakı kimi çətinliklər meydana çıxmışdır:

- Bəzi tematik sahə və sektorlar (1.5, 10.1, 14.6) üzrə milli səviyyədə dövlət proqramları, konsepsiya, strategiya və s. kimi sənədlərin mövcud olmaması;
- Bəzi hədəflər (3.7, 10.2) üzrə sənədlərin layihə şəklində olması və növbəti illərdə qəbul edilməsinin gözlənilməsi;
- Bəzi hədəflər üzrə göstəricilərin (2.c, 8.1, 17.1) milliləşdirilməsinə ehtiyac yaranması;
- Bəzi (1.1, 2.1, 4.6 –aktual deyil, 2b, 4b, 8a, 9a, 10a, 10b, 11c) hədəflərin ölkə prioritetlərinə uyğun olmaması;
- Bir sıra hallarda hədəf (1.5) və göstəricilərin (16.3) aydın olmaması;
- Nailiyyətləri qiymətləndirməyə imkan verən göstəricilərin və ya onu təyin etməyə imkan verən metodologiyaların (1.5.2, 2.5.2, 3.9, 13.1, 14.1, 14.6) olmaması.

Hazırda hazırlanmış layihə üzərində iş davam etdirilir və növbəti hesabat dövrünə kimi onun tamamlanması gözlənilir.

Bunlarla yanaşı, Azərbaycan hökuməti “2030 Gündəliyi”nin yerinə yetirilməsində irəliyə doğru hərəkət etmək üçün özüllər yaradır. Bunun üçün, BMT-nin “MAPS - *Gündəliyin daxil edilməsi”, “DİM-lərlə bağlı fəaliyyəti sürətləndirmə” və “Siyasətə dəstək”* - yanaşmasına uyğun olaraq, müxtəlif tədbirlər həyata keçirilir.

*Daxil etmə* “2030 Gündəliyi”nin milli və yerli səviyyələrdə yer alması və inkişaf üçün milli, regional və yerli planlara və müvafiq olaraq büdcə ayırmalarına inteqrə

edilməsini nəzərdə tutur. Bunun üçün Azərbaycanda, ilk növbədə, “Azərbaycan 2020: gələcəyə baxış” Konsepsiyasının və Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin DİM-lərə və onların hədəflərinə uyğuluğu və böşluqların müəyyənləşdirilməsindən başlanılmışdır. Bununla yanaşı, müvafiq istiqamətlər üzrə hazırda icra olunan və qəbul olunması planlaşdırılan aşağıdakı kimi ümummilli və sahə proqramları və digər siyasət sənədləri də təhlil edilir:

- Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı;
- Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı;
- Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı;
- “Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə dair Dövlət Proqramı (2017-2021)”nın layihəsi;
- Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı;
- Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı;
- 2016-2020-ci illər üçün İİV/QİÇS-lə mübarizə üzrə Tədbirlər Proqramı;
- 2016-2020-ci illər üçün vərəmlə mübarizə üzrə Tədbirlər Proqramı;
- Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya;
- Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekurslarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı;
- 2016-2020-ci illər üçün uşaqlar arasında yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı;
- Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planı;
- “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı;
- Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası;
- 2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası;
- “Azərbaycan gəncləri 2017-2021-ci illərdə Dövlət Proqramı”nın layihəsi;
- Azərbaycan Respublikası insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı;
- Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı;
- "Qacqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" və ona edilmiş 31 oktyabr 2007-ci il və 21 fevral 2011-ci il tarixli əlavələr;
- Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı;
- Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı;
- "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində “ABAD” publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 sentyabr tarixli, 1047 nömrəli Fərmanı;
- “Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2017-2030-cu illər)”nın layihəsi;
- Azərbaycan Respublikası Energetika Nazirliyinin Strateji planının hədəfləri və fəaliyyət istiqamətləri üzrə 2015-2020-ci illər üçün Tədbirlər Planı;
- Azərbaycan Respublikasında 2016-2020-ci illərdə alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə uzun müddətli Tədbirlər Planı;

- “2017-2020-ci illər üzrə turizm sahəsinin inkişafına dair yerli sahibkarlar tərəfindən təqdim olunan investisiya layihələrinin Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına maliyyələşdirilməsi ilə bağlı Fəaliyyət Planı”nın layihəsi;
- “Azərbaycan ədliyyəsinin inkişafına dair Dövlət proqramı”nın layihəsi;
- Asiya İnkişaf Bankının “Azərbaycan: Ölkə Tərəfdaşlığı Strategiyası (2014-2018)”;
- Avropa İttifaqı ilə Azərbaycan arasında bağlanmış sazişlər və həyata keçirilən proqramlar;
- “2030-cu ilədək energetika sektorunun inkişafına dair Dövlət Proqramı”nın layihəsi;
- Azərbaycan Respublikasında 2016-2020-ci illərdə enerjidən səmərəli istifadə olunması üzrə uzunmüddətli Tədbirlər Planı;
- “Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı (2017-2030-cu illər)”nın layihəsi;
- Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı;
- “Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılması və təbii sərvətlərdən səmərəli istifadəyə dair Dövlət Proqramı”nın layihəsi;
- “Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün Milli Strategiya”
- Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əhatə etdiyi sahələr üzrə 2016-2018-ci illər üçün Fəaliyyət Planı;
- “Səhralaşmaya qarşı mübarizə üzrə 2018-2022-ci illər üçün Milli Fəaliyyət Planı”nın layihəsi;
- "Azərsu" ASC-nin Tədbirlər Planı;
- Əlaqədar normativ hüquqi aktlar, beynəlxalq saziş, müqavilə və proqramlar.

Bu təhlil DİM-lərə nail olmaq yolunda mövcud problemləri və icra zamanı meydana çıxa bilən boşluqları çevik və səmərəli şəkildə aradan qaldırmağa imkan verən institusional çərçivə yaradılmasına da xidmət edir. Bu zaman institusional çərçivənin dayanıqlı inkişafın üç – iqtisadi, sosial və ekoloji – ünsürlərinə inteqrasiyalı yanaşmanın təmin olunması diqqət mərkəzində saxlanılır.

BMTİP bu işdə sahəvi nazirliklərin hər birinə yardım etmək üçün texniki vasitələri təmin etmək və istiqamət vermək niyyətini bildirmişdir.

DİM-lərə nail olunmasında yerli idarəetmə orqanlarının da üzərinə mühüm vəzifələr düşür. Mərkəzi hökumət üçün ölkə səviyyəsində məqsədlərin və hədəflərin icrasına dəstək göstərmək vacib olduğu halda, yerlərdə icraya görə cavabdehlik regional və yerli idarəetmə orqanlarının üzərinə düşür. Bu səbəbdən, DİM-lər üçün hazırlanan fəaliyyət planlarının milli və regional/yerli idarəetmə orqanlarını əhatə etməsinə diqqət yetirilir. Eyni zamanda, DİM-lərin icrasının əlaqələndirilməsinə məsul olan Şura, Katiblik və sahələrarası İşçi qruplar milli, regional və yerli səviyyələrdəki idarəetmə orqanları arasında şaquli və üfüqi əlaqələndirməni yüksək səviyyədə təmin etmək üçün zəruri mexanizmlərin yaradılması istiqamətində də iş aparırlar.

Azərbaycanda DİM-lərin inkişaf gündəliyinə daxil edilməsi və milliləşdirilməsi işini tamamlamaq, o cümlədən bu istiqamətdə hazırlanmış sənədlərin layihələrini və müvafiq fəaliyyət planlarını müzakirə edib ümumi razılığa gəlmək və təsdiqləmək üçün bütün maraqlı tərəflərin səlahiyyətli nümayəndələrinin iştirakı ilə yüksək səviyyəli bir forum keçirilməsi də planlaşdırılır. BMT-nin ölkə Nümayəndəliyi bu tədbirin təşkilinə də dəstək göstərmək niyyətini bildirmişdir.

## 5.2. İNSTİTUSİONAL MEXANİZMLƏR

“2030 Gündəliyi”ndən irəli gələn öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidentinin 2016-ci ilin 6 oktyabr tarixli 1066 nömrəli Fərman ilə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır.

**Azərbaycan Respublikasının Dəvamlı İnkişaf üçün Milli Əlaqələndirmə Şurası**




Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının əsas məqsədi və fəaliyyət istiqamətləri aşağıdakılardan ibarətdir:

- 2030-cu ilədək Azərbaycan üçün əhəmiyyət kəsb edən, qlobal məqsəd və hədəflərə uyğun milli prioritetləri və onlara dair göstəriciləri müəyyən etmək;
- ölkədə sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramlarının və strategiyaların DİM-lər ilə uzlaşdırılmasını təmin etmək;
- DİM-lərə nail olunması ilə əlaqədar illik hesabatın hazırlanması və Azərbaycan Respublikası Prezidentinə təqdim olunması;
- yerli və xarici ekspertləri, mütəxəssisləri, beynəlxalq təşkilatları və elm müəssisələrini cəlb etmək;
- DİM-lərlə bağlı ayrı-ayrı istiqamətlər üzrə işçi qruplar yaratmaq.

Sözügedən Fərmanla Şuranın fəaliyyətinin təmin edilməsi məqsədilə Şuranın Katibliyinin yaradılması və Katibliyin funksiyasının həyata keçirilməsinin İqtisadiyyat Nazirliyinə həvalə edilməsi tapşırılmış və bu məqsədlə Nazirliyin cari ilin 17 yanvar tarixli əmri ilə Katiblik yaradılmışdır.

Şuranın fəaliyyətinin səmərəli təşkili məqsədilə 4 istiqamət üzrə dövlət orqanlarının səlahiyyətli nümayəndələrindən ibarət Tematik işçi qrupları yaradılmışdır: 1) İqtisadi inkişaf və layiqli məşğulluq; 2) Sosial məsələlər; 3) Ekoloji məsələlər; 4) Monitorinq və qiymətləndirmə.

İşçi qruplarının tərkibinə aşağıdakı dövlət qurumlarının nümayəndələri daxildir:

- Nazirliklər (Daxili İşlər Nazirliyi; Ekologiya və Təbii Sərvətlər Nazirliyi; Energetika Nazirliyi; Fövqəladə Hallar Nazirliyi; Gənclər və İdman Nazirliyi; Kənd Təsərrüfatı Nazirliyi; Maliyyə Nazirliyi; Mədəniyyət və Turizm Nazirliyi; Nəqliyyat, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi; Səhiyyə Nazirliyi; Təhsil Nazirliyi; Vergilər Nazirliyi; Xarici İşlər Nazirliyi; İqtisadiyyat Nazirliyi; Ədliyyə Nazirliyi; Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi);
- Azərbaycan Respublikasının Milli Elmlər Akademiyası;
- Dövlət komitələri (Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi; Dövlət Statistika Komitəsi; Dövlət Şəhərsalma və Arxitektura Komitəsi; Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsi; Əmlak Məsələləri Dövlət Komitəsi);
- Dövlət Neft Şirkəti;
- Dövlət Miqrasiya Xidməti;
- Meliorasiya və Su Təsərrüfatı ASC;
- Azərbaycan Respublikasının Baş Prokurorluğu;
- İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman);
- Dövlət agentlikləri (Prezidenti yanında Mənzil İnşaat Dövlət Agentliyi; Azərbaycan Respublikasının Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik; Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi; Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi; Azərbaycan Respublikasının Nazirler Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi);
- Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası;
- Azərbaycan Respublikasının Mərkəzi Bankı.

Hazırda DİMƏŞ Katiblik və İşçi qruplarının köməyi ilə aşağıdakı istiqamətlərdə fəaliyyətləri gücləndirməyə səy göstərir: prosesdə maraqlı tərəflərin geniş və hərtərəfli iştirakının təmin edilməsi; qlobal DIM-lər, hədəflər və göstəricilərin milliləşdirilməsi, davamlı inkişaf üzrə milli prioritetlərin və boşluqların müəyyənləşdirilməsi, inkluziv və əsaslı milli strategiya və siyasətlərin formalaşdırılması, müxtəlif nazirliklər və digər hökumət qurumları arasında əməkdaşlığın əlaqələndirilməsi və təşviq edilməsi; inkişaf üzrə yerli və beynəlxalq tərəfdaşlar arasında milli prioritetlər üzrə razılığın təmin edilməsi; milli monitorinq, qiymətləndirmə və hesabatlılıq mexanizmlərinin yaradılması, milli hesabatlılıq prosesinin müvafiq regional və qlobal proseslərlə əlaqələndirilməsi; DİM-lərin icrası ilə əlaqədar sahələrdə potensialın artırılması üçün ehtiyacların və imkanların müəyyənləşdirilməsi.

## 5.3. İCRA VASİTƏLƏRİ VƏ RESURSLARI

DİM-lərə nail olunması yerli və beynəlxalq tərəfdaşların bütün imkanlarının səfərbər olunmasını nəzərdə tutur. Azərbaycanda da fəaliyyətin bu cür qurulmasına səy göstərilir. İlk növbədə, yaradılmış Şura, Katiblik və İşçi qrupları vasitəsi ilə dövlət qurumları və onların malik olduğu imkanların, o cümlədən müvafiq vasitə və resursların səfərbər edilməsi istiqamətində işlər aparılır. Həmçinin qlobal DİM-lərin və müvafiq hədəf və göstəricilərin milliləşdirilməsi, ölkənin inkişaf gündəliyinə daxil edilməsi, icranın təşkili, monitorinq, qiymətləndirmə və hesabatlılıq sisteminin yaradılması, maliyyə resurslarının, o cümlədən yerli və xarici investisiyaların cəlbi, ictimai məlumatlandırma, boşluqların aradan qaldırılması üçün fəaliyyət planlarının hazırlanması və s. bu kimi istiqamətlərdə də tədbirlər görülür. Bu proseslərə ictimai və özəl sektorun malik olduğu vasitə və resursların da fəal şəkildə cəlb olunmasına səylər göstərilir.

Bununla yanaşı, beynəlxalq tərəfdaşlarla da iş aparılır. Bu baxımdan, BMTİP-lə əməkdaşlıq artıq öz töhfəsini verməkdədir. Belə ki, Azərbaycanda "2030 Gündəliyi"nin yerinə yetirilməsində irəliyə doğru hərəkət etmək üçün BMT-nin ölkə Nümayəndəliyi ilə birlikdə BMT-nin "DİM-lərlə bağlı fəaliyyəti sürətləndirmə" və "Siyasətə dəstək" alətlərinin tətbiqi ilə bağlı da müəyyən hazırlıq işlərinə başlanılmışdır. O cümlədən BMTİP-lə bir illik dövrü əhatə edən "DİM-lərin milli prioritetlərə uyğunlaşdırılmasına dəstək layihəsi"nə start verilmişdir və aşağıdakı istiqamətlərdə intensiv iş aparılır:

- DİM-lərin milli prioritetlərə uyğunlaşdırılması və milliləşdirilməsinin monitorinqi və qiymətləndirilməsi (MAPS Mission);
- DİM-lərin milli siyasətlərə uyğunlaşdırılması və əsas priotitetlərin seçilməsi üçün siyasət dəstəyi (SDG Accelerators);
- DİM-lər üzrə yerli və beynəlxalq səviyyədə potensialın artırılmasına dəstək.

DİM-lərlə bağlı fəaliyyəti sürətləndirmə aləti çərçivəsində ölkədə mövcud olan imkanların və resursların "Gündəliyin daxil edilməsi" prosesində müəyyənləşdirilən prioritet sahələrə yönləndirilməsi üçün resurs mənbələrinin dəqiqləşdirilməsi, həmçinin sahələrarası səylərin və əməkdaşlığın gücləndirilməsi, məhdudiyyətlərin aradan qaldırılması, maliyyələşmənin artırılması və qiymətləndirmənin təkmilləşdirilməsi kimi məsələlər üçün potensial imkanlarının axtarılması istiqamətində işlərə başlanılmışdır.

"Siyasətə dəstək" aləti DİM-lər üzrə fəaliyyət və siyasətlərə dəstək vermək üçün BMT-nin inkişaf sistemində mövcud olan imkan və təcrübələrdən ölkələrin mümkün olan ən tez və ən aşağı xərclə istifadə edə bilməsinə şərait yaradır. Bu alət çərçivəsində Azərbaycan Hökuməti və BMT-nin ölkə Nümayəndəliyi ölkədə BMT-nin inkişaf sistemində mövcud olan hansı imkan və təcrübələrə ehtiyac olduğu və onlardan istifadə üçün həyata keçirilməli fəaliyyətləri müəyyənləşdirmək istiqamətində işlər aparırlar.

Eyni zamanda, digər beynəlxalq inkişaf qurumları ilə də danışıqlıqlar aparılır. Azərbaycanın İnkişaf üçün rəsmi yardım (ODA), qeyri-neft sektoru üzrə ixracın şaxələndirilməsi və artırılması, istehsal-texniki potensialın texnoloji səviyyəsinin yüksəldilməsi, innovasiya fəallığının canlandırılması və iqtisadiyyatın tənzimlənməsi sisteminin müasir dövrün tələblərinə uyğunlaşdırılması kimi məsələlərdə beynəlxalq tərəfdaşların dəstəyinə ehtiyacı vardır. Bu baxımdan, regional və cənub-cənub əməkdaşlığının imkanları nəzərdən keçirilir.

Azərbaycan hökuməti cari ilin sonuna kimi qlobal DİM-lərin milliləşdirilməsini yekunlaşdırmağı və bundan sonra 2018-ci ildə milliləşdirilmiş "2030 Gündəliyi"nin icrası vasitələrini müzakirə etmək üçün BMT-nin Ölkə Nümayəndəliyi ilə birgə konfrans keçirməyi planlaşdırır. Konfransın milli iqtisadiyyatın müxtəlif sahələrində və ölkənin hər yerində inkişafın sürətlənməsinə, Azərbaycan əhalisinin hamısının DİM-lər üzrə prosesə cəlb olunmasına və son nəticədə bundan faydalanmasına geniş imkanlar yaratmaq üçün iqtisadi islahatların və inkişafın yeni hərəkətverici qüvvələrini və başlanğıc nöqtələrini müəyyənləşdirmək prosesində əhəmiyyətli rola oynayacağı gözlənilir. .

## 5.4. SAHİBLİK, İŞTİRAKÇILIQ VƏ İCTİMAİ MAARİFLƏNDİRMƏ

DİM-lərə sahiblənmək, dövlət qurumları, yerli və beynəlxalq tərəfdaşlar arasında geniş məsləhətləşmələr və yüksək səviyyəli uzlaşdırmalar tələb etdiyindən Azərbaycan Hökuməti bu prosesə bütün tərəfdaşların cəlb edilməsində maraqlıdır. Həmçinin, Hökumət DİM-lər üzrə milli prosesə yerli maraqlı tərəflərin dayanıqlı inkişaf yolunda dialoq və əməkdaşlıqda sürəkli olaraq iştirakını təşviq etmək üçün geniş bir imkan kimi baxır. Hazırda bu istiqamətdə müxtəlif dialoq formatları vasitəsilə iş aparılır. Bu zaman birgə iştirak, çevik idarəetmə, şəffaflıq və hesabatlılıq meyarları əsas götürülür.

İlk olaraq, DİM-lərlə əlaqədar dövlət orqanlarının vəzifələrin konkretləşdirilməsi, həmçinin milli prioritetlərə uyğun məqsəd, hədəf və göstəricilərin seçilməsi və yeni formalaşdırılan işçi qruplarının fəaliyyətinin səmərəli təşkili məqsədilə İN və BMT-nin Ölkə nümayəndəliyinin təşkilatçılığı və aidiyyəti dövlət qurumlarının iştirakı ilə 18 noyabr 2016-cı il tarixində seminar təşkil olunmuşdur. 8 fevral 2017-ci il tarixində isə DİMƏŞ-in tərkibində yaradılmış İşçi qruplarının iclası keçirilmişdir.

Eyni zamanda, DİMƏŞ DİM-lər üzrə əsas öhdəlik - “heç kimi geridə buraxmamaq” prinsipini rəhbər tutaraq və DİM-lərə nail olunması prosesinə bütün maraqlı tərəflərin cəlbinə qərar verərək, BMT-nin ölkə Nümayəndəliyi ilə birgə cəmiyyətin müxtəlif qruplarının (akademik dairələr, vətəndaş cəmiyyəti, qadınlar, gənclər, parlament üzvləri) iştirakı ilə DİM-lərin həyata keçirilməsi üzrə qrup müzakirələri keçirmişdir.

Bu baxımdan, 16 mart 2017-ci il tarixində ölkənin akademik dairələrinin nümayəndələrinin və parlament üzvlərinin iştirakı ilə keçirilən “Azərbaycanda DİM-lərə nail olunmasında elm və tədqiqatların rolu” mövzusunda tədbiri xüsusi qeyd etmək olar. Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının və sahə elmi-tədqiqat instututlarının nümayəndələri, müxtəlif ali təhsil müəəssisələrinin tədqiqatçıları və BMT qurumlarının nümayəndələri iştirak etmiş və fəal müzakirələr aparılmışdır.

10 aprel 2017-ci il tarixində ölkənin paytaxtı Bakı şəhərində 132-134 nömrəli Təhsil Kompleksində “Dayanıqlı İnkişaf Məqsədləri:*Təhsil dünyanı dəyişə bilər*” mövzusunda 45 dəqiqəlik Açıq dərs də keçirilmişdir. Tədbirdə 11-14 yaş arası uşaqlara təhsilin dünyanı dəyişməkdə rolu, yaxşı təhsilin nəticələri, dünyada və Azərbaycanda təhsilə çıxış imkanları və təhsil səviyyəsi, qlobal inkişaf məqsədləri və təhsilin bu məqsədlərə nail olunmasında rolu kimi məsələlər barəsində geniş məlumatlar verilmişdir.

Bu müzakirələrdə Hökumətin, milliləşdirilmiş DİM-lərə nail olunması üzrə əlaqələndirici kimi çıxış edərək, vətəndaş cəmiyyəti institutlarının, akademik dairələrin, işgüzar və peşəkar assosiasiyaların və digər maraqlı tərəflərin DİM-lərə yönəlmiş təşəbüslərinə kömək etmək və dəstək olmaqda qərarlı olması bildirilmişdir.

Müzakirələr göstərir ki, ölkədə aşağıdakı istiqamətlərdə səylər artırılmalıdır:

- DİM-lərlə əlaqədar maarifləndirmə və dialoq qurulması üzrə işlər mərkəzlə yanaşı, rayonlardaı da gücləndirilməlidir.
- DİMƏŞ Katibliyinin işinə dəstək olacaq çoxtərəfli tərəfdaşıq qruplarının təsis olunması (Şuranın sədri və İN ilə aparılan müzakirələrdə təklif olunmuşdur).

Qeyd olunanlar nəzərə alınaraq, Hökumət yerli və beynəlxalq tərəfdaşlar ilə interaktiv əlaqə saxlamaqla milli və qlobal DİM-lər, hədəflər, icra mərhələləri və göstəricilər üzrə məlumatlandırmanı gücləndircək onlayn portal yaratmaq niyyətindədir. Gözlənilir ki, bu onlayn portal milli DİM-lər üzrə məsləhətləşmələr, monitorinq və hesabatlılıq prosesi üçün əhəmiyyətli iştirakçılıq aləti olacaqdır.

Yerli kütləvi informasiya vasitələri və vətəndaş cəmiyyəti institutları bu on-line və off-line proseslərdə vasitəçilər qismində iştirak etməklə cəmiyyətin bütün qrupları və təbəqələrinin bu proseslərə cəlb olunmasını təmin edəcəklər. Bu zaman əhalinin həssas təbəqələrinin, o cümlədən qadınlar, gənclər, imkansızlar, xüsusi ilə, məcburi köçkün və qaçqınların səslərinin eşidilməsi diqqət mərkəzində olacaqdır.

## 5.6. MONİTORİNQ, QİYMƏTLƏNDİRMƏ VƏ HESABATLILIQ

Monitorinq, qiymətləndirmə və hesabatlılığın təmin edilməsi "2030 Gündəliyi"nin həyata keçirilməsi prosesinin mühüm əhəmiyyətə malik aspektidir. Bunun üçün, ilk növbədə, vətəndaşları, parlament üzvlərini, hökumətin adiyyəti təsisatlarını, vətəndaş cəmiyyəti institutlarını və digər maraqlı tərəfləri cəlb etməklə, irəliləyişi izləməyə və qiymətləndirməyə imkan verən statistik sistemlərin, fiziki, maddi və texniki imkanların, metodologiyaların və mexanizmlərin mövcudluğu təmin edilməlidir. Bu zaman, məlumatların əhatəliliyinə diqqət yetirilməlidir. Bu, çox vaxt milli səviyyədə cari məlumat toplama işində əhatə olunmayan, yaxud kifayət qədər əhatə olunmayan ən kənarda qalan və təcrid olunmuş insanlara münasibətdə xüsusilə vacibdir.

Hazırda DİM-lərə nail olunması üzrə aparılan işlərin nəticələrinin monitorinqi və qiymətləndirilməsi ilə əlaqədar ölkədə ciddi hazırlıq işləri aparılır. Bu məqsədlə, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası, Katiblik və İşçi qruplar çərçivəsində səlahiyyət və məsuliyyət bölgüsü aparılmış və müvafiq işlərə başlanılmışdır. Belə ki, ölkədə DİM-lər üzrə əhatəli məlumat bazasının yaradılması, məlumat mənbələrinin, məlumatların toplanması, emalı və təhlili metodologiyalarının dəqiqləşdirilməsi, müvafiq hədəflər və göstəricilər və DİM-lərin yerinə yetirilməsində tərəqqinin təhlilinə və qiymətləndirilməsinə dəstək ola biləcək digər məlumatlar üzrə hesabat formalarının hazırlanması və bu formalar üzrə məlumatların toplanması, emalı, təhlili və qiymətləndirilməsi istiqamətləri üzrə intensiv iş aparılır.

Hesabatlılığın isə ölkə rəhbərliyinə və BMT-nin Dayanıqlı İnkişaf üzrə Yüksək Səviyyəli Siyasi Forumuna təqdim edilmək üçün vaxtaşırı könüllü milli və tərəqqi üzrə illik hesabatların hazırlanması ilə təmin olunması nəzərdə tutulmuşdur. Hesabatların hazırlanması və təqdim olunmasına Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası məsuldur. Bu hesabatlar DİM-lər, müvafiq hədəflər və göstəricilər üzrə müxtəlif mənbələrdən toplanan statistik və inzibati məlumatların təhlili və qiymətləndirilməsi əsasında hazırlanır.

Hazırda təqdim olunan bu hesabat ölkədə "2030 Gündəliyi"nin icrası ilə əlaqədar atılan ilk addımlar və görülən işlər haqqında Azərbaycan Respublikasının ilk Milli Könüllü Hesabatıdır.

Məlumatların toplanması, emalı və yayılması prosesi DSK-nın məsuliyyətinə aid edilmişdir. Bu məqsədlə DSK-da Dayanıqlı İnkişaf Statistikası Şöbəsi yaradılmışdır. Mərkəzi və yerli icra hakimiyyəti orqanları və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus hüquqi şəxslərin məsuliyyətinə aşağıdakılar aid edilmişdir:

- DİM-lərə nail olunmasına dair göstəricilər üzrə statistik məlumatların Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə təqdim edilməsi;
- görülən işlər barədə hesabatın Şuraya təqdim edilməsi.

DİM-lərə müvafiq olaraq müəyyən edilmiş göstəricilərin monitorinqi üçün əsas məlumat mənbələri kimi aşağıdakılar müəyyənləşdirilmişdir:

- Statistika müşahidələri (rəsmi statistika hesabatları, müayinələr, sorğular);
- Kənd təsərrüfatının siyahıyaalınması;
- Əhalinin siyahıyaalması;
- İqtisadi və sosial-demoqrafik məsələlər üzrə statistik tədqiqatlar;
- İnzibati sənədlər və məlumatlar.

DSK-nın başçılığı altında digər əlaqədar dövlət qurumların nümayəndələrinin iştirakı ilə iqtisadiyyatın bütün sahələrini əhatə edən 3 işçi qrupu yaradılmışdır. Bu işçi qrupların yaradılmasında əsas məqsədlər aşağıdakılardan ibarətdir:

(i) inzibati məlumatların rəsmi statistikada istifadəsinin genişləndirilməsini və

(ii) inzibati məlumat bazalarının DSK-nın statistik məlumat bazasına inteqrasiyasını təmin etməkdən ibarətdir.

Ölkədə DİM-lərin Milli Monitorinq Mexanizminin formalaşması mərhələləri aşağıdakı diaqramda əyani təsvir olunmuşdur.

DİM-lərin Milli Monitorinq mexanizmi




Mənbə: [9]

DSK DİM göstəricilərinə dair hesabat vermə imkanlarını nəzərdən keçirmiş və rəsmi statistik məlumatlardan təxminən 70 göstərici üzrə hesabat verilə biləcəyini bildirmişdir. Bundan başqa, əlavə 30 göstəricini də əhatə edə bilən əhəmiyyətli inzibati məlumatların da mövcud olduğu təxmin edilir.

Aparılan müzakirələr və araşdırmalar göstərir ki, ölkədə DİM-lər üzrə milli məlumat sistemlərinin maddi-texniki və kadr potensialını və proqram təminatını gücləndirməklə əhatəliliyinin və dərinliyinin artırılmasına və əlaqələndirilməsinin yaxşılaşdırılmasına, təhlil və qiymətləndirmə üzrə potensialın inkişaf etdirilməsinə ehtiyac vardır. Bu istiqamətlərdə görüləcək işlərə aşağıdakıları aid etmək olar:

- Göstəricilərin müəyyən olunması və məlumat toplama: milli prioritetlərə uyğun hədəf və göstəricilərin, onlar üçün baza illərinin və başlanğıc vəziyyətə dair məlumatların müəyyənləşdirilməsi;
- Təfsilatlı məlumatlar: "heç kimi geridə buraxmamaq" və DİM-lərdə bərabərsizliyə və ayrı-seçkiliyə yol verməmək öhdəliyi səylərin orta səviyyəli təbəqələrdən ən təcrid olunmuş əhali qruplarına doğru yönləndirilməsini tələb edir. Bunu üçün "heç kimi geridə buraxmamaq" prinsipinə uyğun olaraq cins, yaş, gəlir/rifah, yerləşmə, etnik mənsubiyyət, əlilliyi olmaq, qaçqın və məcburi köçkün olmaq və digər səciyyəvi sosial-iqtisadi xüsusiyyətlərə görə məlumatların təfislatlandırılması (dezaqriqasiya olunması) tələb olunur;
- Monitorinq və hesabat vermə sistemləri: mövcud məlumatlarla və məlumatların özlərinə dair hesabat vermə sistemləri ilə işləmək və informasiya mübadilələri, o cümlədən, əsas göstəricilərə dair hesabat vermə və həm üfüqi, həm də şaquli əlaqələndirməyə imkanlar yaratmaq üçün onlayn sistemlər yaratmaq tələb edir;
- Hesabatlılıq prosesləri və mexanizmləri: milli və regional səviyyələrdə uyğunlaşdırılmış DİM-lər üzrə tərəqqiyə dair hesabat hazırlamağı nəzərdə tutur.

Hazırda qeyd olunan istiqamətlərdə müəyyən tədbirlər görülür. BMTİP də ölkədə DİM gündəliyinin icrasının dəstəklənməsi çərçivəsində bu istiqamətlərdə DSK-ya və əlaqədar qurumlara müəyyən dəstək göstərmək niyyətindədir.

Dəstəklə bağlı aşağıdakılar daxil olmaqla əlavə təhlillərin aparılmasına da ehtiyac duyulur:

- Rəsmi və inzibati statistik məlumatlardan, xüsusilə “iri həcmli məlumat”lardan istifadə potensialının qiymətləndirilməsi. Bu təhlildə “iri həcmli məlumat”ların toplamasının və sorğuların necə aparıldığının öyrənilməsu əsasında onların tədricən DİM göstəricilərinə uyğunlaşdırılması üçün əlavə nə işlər görülməli olduğu müəyyənləşdirilə bilər;

- Məlumat sistemlərini, o cümlədən onların avadanlıq və proqram təminatını yaxşılaşdırmaq üçün bu sahədə mövcud potensialın qiymətləndirilməsi və ehtiyacların müəyyənləşdirilməsi;

- Bu proseslərin ölkənin e-idarəçilik sistemləri üzrə əldə etdiyi nailiyyətlərlə əlaqələndirmə imkanlarının nəzərdən keçirilməsi.

Gözlənilir ki, bu tədbirlər hökumət qurumlarının DİM-lər üzrə fəaliyyətlərini tam əhatə edən və bu fəaliyyətləri DİM-lər üzrə tərəqqiyə dair hesabat vermə və cavabdehliklə əlaqələndirən daha təkmil məlumat toplama, monitorinq, qiymətləndirmə və hesabatlılıq mexanizmlərinin yaradılmasına kömək edəcəkdir.

## 6. TEMATİK MÖVZUYA UYĞUN MƏQSƏDLƏR ÜZRƏ GÖRÜLMÜŞ İŞLƏR VƏ ƏLDƏ OLUNMUŞ NAİLİYYƏTLƏR

Məlum olduğu kimi, 17-19 iyul 2017-ci ildə Nyu-York şəhərində BMT-nin mənzil-qərargahında keçirilməsi planlaşdırılan Yüksək Səviyyəli Forumda müzakirə olunmaq üçün “Dəyişən dünyada yoxsulluğun azaldılması və rifahın təşviqi” adlı tematik mövzu seçilmişdir. Bu mövzu altında 1, 2, 3, 5, 9, 14 və 17-ci məqsədlər üzrə 44 ölkənin hazırlayacağı könüllü milli hesabatların müzakirəsi nəzərdə tutulmuşdur. Bu ölkələrdən biri kimi Azərbaycan Respublikası da özünün ilk könüllü milli hesabatında yuxarıda göstərilən məqsədlər üzrə mövcud vəziyyət və imkanlar, görülmüş işlər, əldə olunmuş ilkin nailiyyətlər, qarşıya çıxan problemlər və onların aradan qaldırılması üçün görülən tədbirlərlə bağlı təhlillər və qiymətləndirmələrin nəticələrinə xüsusi yer verilmişdir.

### MƏQSƏD 1. Hər yerdə yoxsulluğun bütün formalarına son qoymaq




*1.1. Hazırda günə 1,25 ABŞ dollarından az qazancla yaşayan insanlarla ölçülən kəskin yoxsulluğa 2030-cu ilədək hər yerdə hamı üçün son qoymaq.*

*1.2. Milli anlayışlara uyğun olaraq bütün formalarda yoxsulluq içərisində yaşayan bütün yaşlarda kişilərin, qadınların və uşaqların sayını 2030-cu ilədək ən azı yarıya qədər azaltmaq.*

*1.3. Hamı, o cümlədən ağır şəraitdə yaşayanlar üçün milli səviyyədə uyğun sosial müdafiə sistemlərini və tədbirlərini həyata keçirmək və 2030-cu ilədək yoxsul və aztəminatlı əhalinin əhəmiyyətli şəkildə təminatına nail olmaq.*

*1.4. 2030-cu ilədək, bütün kişilərin və qadınların, xüsusən də yoxsul və aztəminatlı əhalinin iqtisadi resurslara bərabər şəkildə çıxış hüquqlarına, habelə əsas xidmətlərə, torpaq və digər formalarda əmlak üzərində sahiblik və nəzarət, miras, təbii resurslar, müvafiq yeni texnologiyalar və maliyyə xidmətlərinə, o cümlədən mikro-maliyyə xidmətlərinə çıxış imkanlarına malik olmalarını təmin etmək.*

*1.5. 2030-cu ilədək, yoxsulların və aztəminatlı əhalinin dayanıqlığını artırmaq və onların iqlimlə bağlı kəskin hadisələrə və digər iqtisadi, sosial və ekoloji təsirlərə və fəlakətlərə məruz qalma hallarını və bunlara qarşı zəifliyini azaltmaq.*

*1.a. Bütün ölçülərdə yoxsulluğa son qoymağa yönələn proqramları və siyasətləri həyata keçirmək üçün, inkişaf etməkdə olan ölkələri, xüsusən də ən zəif inkişaf etmiş ölkələri lazımi və əvvəlcədən məlum olan vasitələrlə təmin etmək məqsədilə, inkişafla bağlı əməkdaşlığın genişləndirilməsi yolu da daxil olmaqla müxtəlif mənbələrdən əhəmiyyətli şəkildə resursların səfərbər olunmasını təmin etmək.*

*1.b. Yoxsulluğun aradan qaldırılması tədbirlərinə sürətləndirilmiş şəkildə yatırıma dəstək göstərmək üçün yoxsullara yönələn və gender məsələlərinə həssaslıqla yanaşılan strategiyalar əsasında, milli, regional və beynəlxalq səviyyələrdə güclü siyasi çərçivələr yaratmaq.*

DİM-lərin birincisi və ən önəmlilərindən biri məhz dünyanın hər yerində hamı üçün yoxsulluğun bütün formalarına son qoymaqdır. Bu məqsədə nail olmaq üçün Azərbaycanda həyata keçirilən siyasətin əsas hədəfi, bütün səviyyələrdə yoxsulluqla mübarizə tədbirlərini gücləndirməklə, ölkədə mütləq yoxsulluq səviyyəsini mümkün olan minimum səviyyəyə endirmək və əhalinin bütün təbəqələrinin rifah halını yüksəltməkdir.

Azərbaycan 2000-ci ildə Minilliyin Bəyənnaməsinə qoşularaq yoxsulluqla mübarizə sahəsində kompleks tədbirlər həyata keçirmiş və mühüm nəticələr əldə etmişdir. Bir sıra dövlət proqramlarının, o cümlədən YAİİDP və YADİDP-in qəbulu və icrası nəticəsində ölkədə ifrat yoxsulluğa son qoyulmuş, mütləq yoxsulluq səviyyəsi xeyli dərəcədə azaldılmış, əhalinin rifahının yaxşılaşdırılmasına nail olunmuş, sosial cəhətdən həssas əhali qruplarının sosial müdafiəsi gücləndirilmişdir. Hazırda bu sahədə əldə olunmuş nailiyyətlərin möhkəmləndirilməsi və daha da artırılması üzrə tədbirlər davam etdirilir.

**Yoxsulluq səviyyəsi və mövcud sosial müdafiə sistemi.** 2001-ci ildən başlayaraq ölkədə milli yoxsulluq həddindən aşağı səviyyədə yaşayan əhalinin xüsusi çəkisi (49,0%) 8,6 dəfə azalaraq 2015-ci ildə 4,9% səviyyəsinə düşmüş, 2007-ci ildən etibarən isə ölkədə ifrat yoxsulluğa son qoyulmuşdur (2001-2003-cü illərdə ölkədə ifrat yoxsulluq 10,0% ətrafında olduğu halda, 2006-cı ildə 0,5%, 2007-ci ildən isə nəzərə alınmayacaq dərəcədə kiçik, 0,1%-dən də az, səviyyəyə düşmüşdür). Bu dövrdə ölkədə yoxsulluq səviyyəsinin azalması milli yoxsulluq həddinin dəyərinin mütəmadi olaraq artırılması (2001-24 AZN, 2015-135,6 AZN) fonunda baş vermişdir ki, bu da əldə olunmuş nəticənin daha əhəmiyyətli olduğuna dəlalət edir.

2016-cı ildə yoxsulluq həddi 148,5 AZN (əvvəlki ilə nisbətən 9,4% artmış), yoxsulluq səviyyəsi isə 5,9% (əvvəlki ilə nisbətən 1 faiz bəndi artmış) olmuşdur. Yoxsulluq səviyyəsində son ildəki artım dünya bazarında neftin qiymətinin kəskin ucuzlaşmasının neqativ təsiri ilə izah olunur və keçici xarakterə malik olması proqnozlaşdırılır. Belə ki, növbəti illərdə azalma meylinin güclənməsi gözlənilir.

Bu gün Azərbaycan kifayət qədər geniş əhali kateqoriyalarını əhatə edən sosial təminat sisteminə malik və həssas əhali qruplarına münasibətdə humanist yanaşmalara əsaslanan bir ölkədir. Ölkədə sosial müdafiəyə xas olan bütün elementləri özündə cəmləşdirən əhatəli və ünvanlı sosial müdafiə sistemi formalaşmışdır. Ötən dövr ərzində bu sahədə ciddi islahat tədbirləri həyata keçirilmiş və sosial müdafiə sisteminin müasir tələblərə uyğunlaşdırılması istiqamətində bir sıra addımlar atılmışdır. ƏƏSMN-nin məlumatına görə, Azərbaycanın sosial müdafiə sistemi vasitəsilə ölkə əhalisinin 28,3%-i (təqribən 2,8 mln. nəfər) dövlətdən müxtəlif sosial ödəmələr alır. Bu sosial ödəmələr içərisində xüsusi çəkisinə görə əsas olanları əmək pensiyaları, ünvanlı dövlət sosial yardımı, sosial müavinətlər və Azərbaycan Respublikası Prezidentinin təqaüdləridir.

2016-cı il ərzində ƏƏSMN-in tabeliyində olan sosial xidmət müəssisələrində ümumilikdə 1085 nəfər tam dövlət təminatında olmuşdur. 1237 nəfər sosial xidmətçi tərəfindən 11590 tənha ahıl şəxsə evdə sosial məişət xidməti göstərilmişdir.

2016-cı il ərzində ƏƏSMN-nin tabeliyindəki əlillərin bərpa mərkəzlərində və Protez Ortopedik Bərpa Mərkəzində 7991 nəfər (2015-ci ildə 6097 nəfər) əlilliyi olan şəxs müalicə almışdır. 15296 nəfər əlilliyi olan şəxsə 32764 sayda protez ortopedik məmulat və reablitasiya vasitələri, o cümlədən 1124 nəfərə əlil arabası, 665 nəfər əlilliyi olan şəxsə eşitmə aparatı, həmçinin 2434 ədəd yuxarı və aşağı ətraf protez və ortezləri, 4846 cüt ortopedik ayaqqabı, 23695 sayda müxtəlif reablitasiya vasitələri təqdim edilmişdir. Bununla yanaşı, Protez Ortopedik Bərpa Mərkəzi tərəfindən respublikanın 41 rayonunda 1000 nəfərə yaxın şəxsə səyyar qaydada xidmət göstərilmişdir.

**Ünvanlı dövlət sosial yardımı sistemi yoxsulluğun azaldılmasının əsas lokomativi kimi.** Ünvanlı dövlət sosial yardım (ÜDSY) proqramı 2006-cı ildən ölkədə passiv sosial müdafiə tədbiri kimi tətbiq olunmuşdur. ÜDSY sosial müdafiə aləti kimi yoxsul aztəminatlı əhalinin minimum maddi tələbatının ödənilməsi məqsədini daşıyır.

ƏƏSMN-nin məlumatına görə, 2016-cı ildə orta aylıq hesabla 126,7 min ailə (540,2 min nəfər ailə üzvü) ÜDSY ilə təmin olunmuşdur ki, bu da 2015-ci illə müqayisədə 25,65 min ailə (25,4%) çoxdur. ÜDSY alanların orta hesabla 48%-i kişilər, 52%-i isə qadınlar, 53,2%-ini 18 yaşadək uşaqlar, təqribən 1%-ini sağlamlıq imkanları məhdud uşaqlar, 0,27%-ini əlilliyi olan şəxslər, 0,68%-ini isə yaşa görə pensiya alanlar təşkil etmişdir. 2016-cı ildə ÜDSY-nin bir ailəyə düşən orta aylıq məbləği 156,1 manat, ailənin bir üzvünə düşən məbləği isə 36,6 manat olmuşdur. Tətbiq olunduğu dövrdən bəri ölkədə ÜDSY proqramının maliyyələşdirilməsinə yönəldilən vəsaitlər də əhəmiyyətli dərəcədə artmışdır. 2016-cı il ərzində bu məqsədlərə 237,3 milyon manat xərclənmişdir ki, bu da 2006-cı ilə nisbətən 6 dəfə çoxdur.

**Yoxsulluğun qarşısını alan sosial müavinət və pensiya sistemi.** ƏƏSMN-nin məlumatına görə, 2016-cı ildə ölkə əhalisinin təqribən 7,3%-inə və ya 713,1 min nəfərə aylıq və birdəfəlik sosial müavinət təyin olunub ödənilmişdir. 2016-cı ildə sosial müavinətlər və təqaüdlərin maliyyələşdirilməsi üçün 339,1 milyon vəsait xərclənmişdir ki, bu da 2015-ci illə müqayisədə 35,2 milyon manat və ya 11,6% çoxdur. 2017-ci ilin əvvəlinə 2016-cı ilin əvvəlinə nisbətən sosial müavinət və təqaüdlərin orta aylıq məbləği 10%, əmək pensiyalarının orta aylıq məbləği isə 8,2% artmışdır.

Ötən illər ərzində həyata keçirilən islahatlarla Azərbaycanda müasir və sosial baxımdan yüksək səmərəyə malik pensiya təminatı sisteminin yaradılmasına nail olunmuşdur. 2006-cı ildən etibarən ölkədə yeni, beynəlxalq təcrübədə özünü doğrultmuş üçpilləli struktura (baza, sığorta və yığım hissələrindən ibarət) əsaslanan əmək pensiyaları sistemi fəaliyyətdədir. Bu islahatlar nəticəsində ölkədə sosial sığorta,

fərdi uçot və pensiya təminatı sahəsindəki funksiyaların bir-birini tamamladığı vahid dövlət pensiya təminatı sistemi formalaşdırılmışdır. Həmin sistemin fəaliyyəti müasir tələblər səviyyəsində təşkil olunmuş, o cümlədən sığortaolunanlara fərdi hesablar açılaraq, ödənilən məcburi dövlət sosial sığorta haqlarının bu hesablarda fərdi uçotunun aparılması, vətəndaşların pensiya hüquqlarının dəyər ifadəsində həmin uçotun məlumatları əsasında müəyyənləşdirilməsi mexanizmi yaradılmışdır.

**Layiqli iş yerlərinin yaradılması ilə yoxsulluğun aradan qaldırılması strategiyası.** Uzunmüddətli inkişaf üçün vacib amil olan iqtisadiyyatın şaxələndirilməsi, neft strategiyası dividendlərinin qeyri-neft sektorunun və regional inkişafın təmin olunmasına yönəldilməsi yoxsulluğun azaldılması üçün vacib olan yeni iş yerlərinin açılmasında və məşğulluq imkanlarının artırılmasında xüsusi əhəmiyyət kəsb edir.

Ardıcıl dövlət dəstəyi nəticəsində son 13 ildə qeyri-neft sektorunun canlanması hesabına ölkədə əksəriyyəti daimi və regionlarda olmaqla 1 milyon 600 mindən çox yeni iş yeri yaradılmışdır ki, bunun da 71,4%-i regionların, 84,9%-i iqtisadiyyatın qeyri-dövlət sektorunun payına düşür. Yeni iş yerlərinin yaradılması əhalinin məşğulluğunun artmasına təsir göstərmiş və 2016-cı ildə məşğulluq səviyyəsi 62,7% təşkil etmişdir.

2005-ci ildə ölkədə işsizlik səviyyəsi 7,3% olmuş və həyata keçirilmiş tədbirlər nəticəsində davamlı şəkildə aşağı düşərək 2015-ci ildə 5% təşkil etmişdir. Qadınlar üzrə bu göstərici 5,9%-ə, kişilər üçün isə 4,1%-ə bərabər olmuşdur.

15-24 yaşda gənclər arasında işsizlik səviyyəsi 2005-ci ildəki 15,4 faizdən (qadınlar arasında 16,2 faizdən) 2015-ci ildə 13,4 faizədək (qadınlar arasında 15,8 faizədək) azalmışdır. 2015-ci ildə 15-29 yaşda gənclər arasında isə bu göstərici 9,6 faiz (qadınlar arasında 11,6 faiz) təşkil etmişdir.

**Müasir çağırışlara cavab verən sosial-iqtisadi siyasət.** Hökumətin əhalinin müxtəlif kateqoriyalarının sosial ehtiyaclarının dolğun şəkildə ödənilməsinə yönələn sosial-iqtisadi siyasəti ümumən insan amilinin inkişafına təkan verir. Azərbaycan Respublikasının dövlət büdcəsinin xərclərinin strukturu da (Cədvəl 6.1) göstərir ki, obyektiv səbəblərdən çalışmaq və gəlir əldə etmək imkanı olmayan insanların problemləri xüsusi diqqət mərkəzində saxlanılır. Belə ki, dövlət büdcəsinin xərclərində sosial-mədəni tədbirlərə yönəldilən xərclərin xüsusi çəkisi artıma meyillidir və 2016-cı ildə 2015-ci illə müqayisədə 7,6 faiz bəndi artaraq 32,6% səviyyəsinə çatmışdır.

**Cədvəl 6.1. Dövlət büdcəsinin xərclərinin strukturu, mln. manat**

| Göstəricilər | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|
| **Dövlət büdcəsinin xərcləri-cəmi** | **11 765,9** | **15 397,5** | **17 416,5** | **19 143,5** | **18 709,0** | **17 784,5** | **17 751,3** |
| **o cümlədən:** | | | | | | | |
| **sosial-mədəni tədbirlər üzrə** | 2 901,4 | 3 447,2 | 4 072,9 | 4 081,8 | 4 484,4 | 4 442,9 | 5 789,6 |
| **onlardan:** | | | | | | | |
| ***Təhsil*** | *1 180,8* | *1 268,5* | *1 453,2* | *1 437,7* | *1 553,9* | *1 605,1* | *1 754,4* |
| ***Səhiyyə*** | *429,2* | *493,4* | *609,4* | *618,9* | *665,3* | *708,2* | *702,5* |
| ***Sosial müdafiə və sosial təminat*** | *1 123,0* | *1 495,4* | *1 769,5* | *1 750,3* | *1 971,2* | *1 857,2* | *2 645,3* |
| ***Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət*** | *168,4* | *189,9* | *240,8* | *274,9* | *294,0* | *272,4* | *687,4* |

Mənbə: MN

Hökumət sərbəst bazar iqtisadi münasibətlərinə, azad rəqabətə, özəl mülkiyyətçiliyə və sahibkarlığın inkişafına zəruri kömək göstərməklə yanaşı, cəmiyyətdə himayəyə, dəstəyə ehtiyacı olan təbəqəni də nəzərdən qaçırmır. Son 13 il ərzində ölkəmizdə 3 mindən çox məktəb, 600-dən çox tibb müəssisəsi tikilib və əsaslı təmir edilib, 90-dan çox yeni qəsəbə salınmaqla 250 mindən çox məcburi köçkün mənzillə təmin olunub. Ölkədə savadlılıq səviyyəsi 100% -dir.

Sosial-iqtisadi hüquqların müdafiəsi sahəsində dövlətin əsas vəzifəsi mütərəqqi iqtisadi və sosial islahatları həyata keçirmək, iqtisadi inkişaf prosesində hər bir vətəndaşın iştirakını təmin etmək, mövcud potensialdan hər bir fərdin bacarıq və qabiliyyətinə görə ədalətli şəkildə yararlanmasına şərait yaratmaqdır. Azərbaycan Hökumətinin iqtisadi siyasətinin sosialyönümlü səciyyə daşıması da bununla əlaqədardır və dünyanın sosialyönümlü bazar iqtisadiyyatı yolu ilə inkişaf etmiş dövlətlərinin mütərəqqi təcrübəsinə əsaslanır. Sosial sahəyə diqqətin ildən-ilə artırılması ölkə vətəndaşlarının rifah halının yüksəlməsi ilə nəticələnir.

Qeyri-neft sektorunun və sahibkarlığın inkişafı, yeni müəssisələrin isə salınması məqsədilə reallaşdırılan islahatlar yoxsulluğun səviyyəsinin azalmasna, əmək qabiliyyətli əhalinin iqtisadi fəallığının yüksəlməsinə, eləcə də ölkənin məşğulluq strategiyasının səmərəliliyinə imkan vermişdir.

Ümumi dövlət xərclərində təhsil, səhiyyə və sosial müdafiə və təminata çəkilən xərclərin xüsusi çəkisi artıma meyillidir. .Bu xərclərin dövlət büdcəsinin ümumi xərclərində xüsusi çəkisi 2016-cı ildə 2015-ci illə müqayisədə 5,31 faiz bəndi artaraq 28,76% səviyyəsinə çatmışdır. Bu xərclərin ÜDM-ə nisbəti də artıma meyillidir və 2016-cı ildə 2015-ci illə müqayisədə 0,8 faiz bəndi artaraq 8,5% səviyyəsinə çatmışdır. 2016-cı ildə dövlət büdcəsindən təhsilə - 1754,4 mln. manat, səhiyyəyə - 702,5 mln manat və sosial müdafiə və sosial təminata – 2645,2 mln.manat vəsait xərclənmişdir. Ölkədə həyata keçirilən siyasətin sosial yönümlü olması sosial təyinatlı xərclərin bundan sonra da artacağını nəzərdə tutur.

**Yoxsulluğun azaldılması sahəsində strateji hədəflər.** Aparılan araşdırmalar nəticəsində, bu qənaətə gəlinir ki, Azərbaycanda 2030-cu ilədək olan dövr üçün yoxsulluğun azaldılması üzrə strateji istiqamətlərə aşağıdakıları aid etmək olar:

- sosial müdafiə sistemində çevikliyin artırılması;
- sosial müdafiə sistemində aktiv sosial müdafiə tədbirlərinin, xüsusilə də məşğulluğun rolunun artırılması;
- sosial müdafiə sistemində əhatəliliyin genişləndirilməsi, ünvanlılığın artırılması, eləcə də ədalətliliyin tam təmin olunması;
- sosial xidmətlərə əlçatanlığın artırılması, sosial xidmətlərin maksimal dərəcədə avtomatlaşdırılması və elektron xidmətlər formasında əhaliyə çatdırılması;
- pensiya sisteminin təkmilləşdirilməsi;
- pensiya təminati sisteminin cari, ortamüddətli və uzunmüddətli dövr üzrə maliyyə dayanıqlılığına nail olunması;
- pensiya təminatının pensiyaçı vətəndaşların sosial müdafiəsini və layiqli hayat səviyyəsini təmin etməsi;
- əmək pensiyalarının könüllü yığım komponentinin real praktikada tətbiqi və qeyri-dövlət pensiya institutlarının formalaşdırılması və inkişafı üçün zəmin hazırlanması;
- sosial müavinətlər sisteminin unifikasiyası;
- əhalinin xüsusilə hassas qruplarının sosial müdafiəsinin və cəmiyyətə inteqrasiyasının gücləndirilməsi;
- sosial xidmətlərin keyfiyyətinin və ünvanlılığının artırılması;
- əmək bazarında sabitliyin təmin edilməsi və layiqli iş imkanlarının genişləndirilməsi üçün məşğulluqyönümlü makroiqtisadi siyasətin həyata keçirilməsi, kiçik və orta sahibkarlığın dəstəklənməsi;
- əmək bazarının səmərəliliyinin artırılması və çevik siyasətin həyata keçirilməsini təmin etmək üçün qanunvericilik bazasının və institusional strukturun təkmilləşdirilməsi;
- işçi quvvəsinin rəqabətqabiliyyətliliyini və əmək məhsuldarlığını artırmaq məqsədilə işçi qüvvəsinin bacarıqlarının inkişaf etdirilməsi, peşə hazırlığı sisteminin yenidən qurulması, kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması;

- inklüziv məşğulluğu təmin etmək məqsədi ilə aktiv əmək bazarı tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi, səmərəliliyinin artırılması;
- sosial cəhətdən həssas olan və dəstəyə ehtiyacı olan əhali qruplarının əmək bazarına inteqrasiyasının gücləndirilməsi;
- işsiz, işaxtaran və məşğul əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə sosial dialoqun inkişaf etdirilməsi, əmək standartlarının gücləndirilməsi və qeyri-formal əmək münasibətlərinin azaldılması;
- işsizlikdən sığorta sisteminin formalaşdırılması;
- əmək bazarı və məşğulluq siyasətinin səmərəliliyini artırmaq məqsədi ilə əmək bazarının monitorinqi və proqnozlaşdırılması sisteminin inkişaf etdirilməsi.

## MƏQSƏD 2. Aclığa son qoymaq, ərzaq təhlükəsizliyinə və daha yaxşı qidalanmaya nail olmaq və dayanıqlı kənd təsərrüfatını təşviq etmək




2.1. 2030-cu ilədək, aclığa son qoymaq və hamının, xüsusən də yoxsulların və aztəminatlı insanların, o cümlədən körpələrin il boyu təhlükəsiz, qidalandırıcı və kifayət qədər ərzağa çıxış imkanını təmin etmək.
2.2. 2030-cu ilədək, bütün pis qidalanma hallarına son qoymaq, o cümlədən, 2025-ci ilədək, 5 yaşadək olan uşaqlarda inkişafdan qalma (bəstəboyluq) və arıqlıq halları ilə bağlı beynəlxalq səviyyədə razılaşdırılmış hədəflərə çatmaq və yeniyetmə qızların, hamilə və ya uşağına süd verən qadınların və yaşlı insanların qidalanma ilə bağlı ehtiyaclarını təmin etmək.
2.3. 2030-cu ilədək, kənd təsərrüfatında məhsuldarlığı və başqa yollarla yanaşı torpağa, digər istehsal resurslarına və yatırımlara, biliklərə, maliyyə xidmətlərinə, bazarlara və əlavə dəyər və kənd təsərrüfatı ilə bağlı olmayan məşğulluq üçün imkanlara təhlükəsiz və bərabər çıxışla kiçik ərzaq istehsalçılarının, xüsusilə də qadınların, yerli xalqların, ailə kənd təsərrüfatlarının, fermer-maldarların və balıqçıların gəlirlərini ikiqat artırmaq.
2.4. 2030-cu ilədək, dayanıqlı ərzaq istehsalı sistemlərini təmin etmək və məhsuldarlığı və istehsalı artıran, ekosistemlərin saxlanmasına kömək edən, iqlim dəyişikliyinə, kəskin hava şəraitinə, quraqlığa, daşqınlara və digər təbii fəlakətlərə uyğunlaşma üçün potensialı gücləndirən, habelə yerin və torpağın keyfiyyətini tədricən artıran dayanıqlı kənd təsərrüfatı təcrübələrini tətbiq etmək.
2.5. 2030-cu ilədək, başqa üsullarla yanaşı, milli, regional və beynəlxalq səviyyələrdə düzgün idarə olunan və şaxələndirilmiş toxum və bitki bankı vasitəsilə, toxumların, becərilən bitkilərin və ferma şəraitində yetişdirilən və əhliləşdirilən heyvanların və onlarla bağlı yabanı növlərin genetik müxtəlifliyini qorumaq və beynəlxalq səviyyədə razılaşdırılmaqla genetik resurslardan və bununla bağlı ənənəvi biliklərdən istifadə nəticəsində meydana çıxan faydalardan yararlanmanı və onların ədalətli və bərabər şəkildə bölüşülməsini təmin etmək.
2.a. İnkişaf etməkdə olan ölkələrdə, xüsusən də ən zəif inkişaf etmiş ölkələrdə kənd təsərrüfatındakı istehsal potensialını artırmaq məqsədilə, başqa üsullarla yanaşı beynəlxalq əməkdaşlığı gücləndirməklə, kənd infrastrukturuna, kənd təsərrüfatında tədqiqat və genişləndirmə xidmətlərinə, texnologiyaların inkişaf etdirilməsinə və bitki və mal-qara banklarına yatırımı artırmaq.
2.b. Doha İnkişaf Raundunun mandatına uyğun olaraq, başqa yollarla yanaşı kənd təsərrüfatında ixrac subsidiyalarını və eyni təsirə malik olan bütün ixrac tədbirlərini paralel şəkildə aradan qaldırmaqla, dünya kənd təsərrüfatı bazarlarında ticarətə qarşı məhdudiyyətləri və yanlışlıqları düzəltmək və onların qarşısını almaq.
2.c. Ərzağın qiymətində kəskin dəyişkənlikləri məhdudlaşdırmağa kömək etmək məqsədilə, ərzaq malları bazarlarının və onlardan törəmə müəssisələrin düzgün şəkildə fəaliyyət göstərməsini təmin etmək və bazara, o cümlədən ərzaq ehtiyatlarına dair informasiyaya vaxtlı-vaxtında çıxış imkanına kömək etmək.

**Etibarlı sosial müdafiə və ərzaq təminatı aclığın və pis qidalanmanın qarşısına alan vasitə kimi.** Azərbaycanda əhalinin etibarlı sosial müdafiəsi və ərzaq təminatı ilə əlaqədar həyata keçirilən məqsədyönlü siyasət ölkədə ifrat yoxsulluğun və aclığın qarşısını almışdır. Artıq bu məsələlər Azərbaycan üçün aktual deyildir. Belə ki, ölkədə 2007-ci ildən bəri ifrat yoxsulluq səviyyəsi (<0,1%) və 5 yaşadək azçəkili uşaqların xüsusi çəkisi (0,6%) nəzərəalınmaycaq bir səviyyəyə düşmüşdür. Buna görə də, siyasət ölkədə mütləq yoxsulluq səviyyəsinin azaldılmasına və qidalanmanın keyfiyyətinin yaxşılaşdırılmasına yönəldilmişdir və hazırda əhalinin etibarlı ərzaq təminatı dövlətin sosial-iqtisadi siyasətinin başlıca istiqamətlərindən birini təşkil edir.

2001-ci ildə ölkə Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı" təsdiq edilmiş və bu Proqram çərçivəsində görülmüş işlər nəticəsində kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı əhəmiyyətli dərəcədə artmışdır. Buna baxmayaraq, ölkədə əsas ərzaq məhsullarına olan tələbatın yerli istehsal hesabına tam təmin olunması mümkün olmamışdır. Dünya ərzaq bazarlarında müşahidə olunan qeyri-sabitlik Azərbaycanda da ərzaq məhsulları qiymətlərinə öz təsirini göstərir. Məhz bu məqsədə nail olmaq üçün Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" təsdiq edilmişdir. Bundan başqa Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulan strateji hədəflərdən biri də ərzaq təhlükəsizliyinin dayanıqlılığının təmin edilməsi üçün institusional potensialın gücləndirilməsidir.

**Etibarlı ərzaq təminatında kiçik və orta sahibkarlığın rolu.** Azərbaycanda əhalinin gəlirlərinin artmasında və ərzaq təminatının yaxşılaşmasında sahibkarlığın, xüsusilə də KOS-ların rolu günü-gündən artmaqdadır. 2015-ci ildə kənd təsərrüfatı məhsullarının istehsalında kiçik, orta və iri təsərrüfatların payı Cədvəl 6.2-də verilmişdir. Bu da 2-ci DDİM-in "fermer təsərrüfatlarının / heyvandarlıq və meşə təsərrüfatlarının ölçüsünə görə qruplara bölməklə istehsal vahidlərində istehsalın məbləği" göstəricisi üzrə müəyyən təsəvvür əldə etməyə imkan verir.

**Cədvəl 6.2. 2015-ci ildə kənd təsərrüfatı məhsullarının istehsalında kiçik, orta və iri təsərrüfatların payı, faizlə**

| | Kiçik təsərrüfatlar | Orta təsərrüfatlar | İri təsərrüfatlar |
|---|---|---|---|
| **Bitkiçilik təsərrüfatları** | 80,6 | 18,8 | 0,6 |
| **Heyvandarlıq təsərrüfatları** | 71,7 | 27,0 | 1,3 |
| ***Kənd təsərrüfatının ümumi istehsalında*** | **43,6** | **42,2** | **14,2** |
| ***Bitkiçilik məhsulları istehsalında*** | ***51,3*** | ***32,6*** | ***16,1*** |
| ***O cümlədən*** | | | |
| ***taxıl*** | *36,6* | *36,9* | *26,5* |
| ***qarğıdalı*** | *46,3* | *13,1* | *40,6* |
| ***paxlalılar*** | *94,0* | *2,9* | *3,1* |
| ***tərəvəz*** | *81,2* | *10,5* | *8,4* |
| ***kartof*** | *87,2* | *9,4* | *3,4* |
| ***bostan*** | *73,2* | *26,1* | *0,7* |
| ***meyvə*** | *48,5* | *21,2* | *30,3* |
| ***üzüm*** | *27,4* | *31,2* | *41,5* |
| ***pambıq*** | *37,5* | *28,7* | *33,8* |
| ***yonca*** | *61,8* | *30,6* | *7,5* |
| ***digər yem bitkiləri*** | *38,6* | *37,7* | *23,8* |
| ***Heyvandarlıq məhsulları istehsalında*** | ***38,7*** | ***48,6*** | ***12,7*** |
| ***O cümlədən*** | | | |
| ***mal əti*** | *41,2* | *48,4* | *10,4* |
| ***mal südü*** | *50,2* | *42,3* | *7,4* |
| ***qoyun əti*** | *16,7* | *66,6* | *16,7* |
| ***qoyun südü*** | *33,3* | *57,5* | *9,2* |
| ***yun*** | *14,7* | *51,4* | *33,9* |
| ***quş əti*** | *56,1* | *32,4* | *11,5* |
| ***yumurta*** | *34,2* | *15,4* | *50,4* |
| ***bal*** | *54,3* | *39,7* | *6,1* |

Mənbə: KTN, FTMS-in 2015-ci il üzrə hesabatı

Aqrar siyasətin nəticələrinin və kənd təsərrüfatı istehsalı ilə məşğul olan sahibkarların fəaliyyətinin effektivliyinin mütəmadi olaraq qiymətləndirilməsi üçün BMT-

nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) metodiki dəstəyi ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən “Fermer Təsərrüfatları Məlumatlarının Monitorinqi Sistemi” (FTMS) formalaşdırılmışdır. Avropa Birliyinin FADN *(Farm Accountancy Data Network)* təcrübəsinə əsaslanaraq yaradılan bu sistemin tətbiqinə 2015-ci ildən etibarən başlanılmışdır.

Monitorinqin nəticəsi onu deməyə əsas verir ki, 2015-ci ildə ölkədə bitkiçilik və heyvandarlıq təsərrüfatlarının müvafiq olaraq 80,6 və 71,7%-i kiçik təsərrüfatların payına düşmüşdür. Kiçik təsərrüfatlar kənd təsərrüfatının ümumi istehsalının 43,6 %-ni təmin etmişlər. Kənd təsərrüfatının ümumi istehsalının qalan 42,6%-i orta, 16,1%-i isə iri təsərrüfatların payına düşmüşdür (Cədvəl 6.2).

"Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 aprel 2016-ci il tarixli Sərancamı ilə əhalinin özünüməşğulluğuna kömək göstərilməsi məqsədilə Azərbaycan Respublikasının 2016-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının ƏƏSMN-ə 6,0 (altı) milyon manat vasait ayrılmışdır ki, uğurlu hesab olunan layihələrin 83,6%-i kənd təsərrüfatını (qoyunçuluq, iribuynuzlu südlük heyvandarlıq, iribuynuzlu ətlik heyvandarlıq, quşçuluq, istixanaların qurulması, inkubatorların yaradılması) əhatə edir.

"Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 sentyabr tarixli Fərmanı əsasında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində yaradılan "ABAD" publik hüquqi şəxs vasitəsilə ölkə üzrə ailə təsərrüfatlarına və kiçik və orta sahibkarlara dəstək layihələrinin həyata keçirilməsi, onlara məhsullarının istehsalı üçün müasir texnoloji istehsal avadanlıqlarından istifadə edilməsinə şərait yaradılması, biznes planların hazırlanması, marketinq, brendinq və dizayn, maliyyə-mühasibat, hüquqi yardım xidmətlərinin göstərilməsi, istehsal olunan məhsulun sertifikatlaşdırılmasının sadələşdirilmiş qaydada "bir pəncərə" prinsipi əsasında təşkili və o cümlədən, istehsal olunan məhsulun daşınmasının və satışının təşkili nəzərdə tutulur.

Hazırda ailə təsərrüfatlarının inkişaf etdirilməsi istiqamətində "ABAD" publik hüquqi şəxsin fəaliyyətinin prioritet istiqamətlərindən olan dekorativ-tətbiqi xalq sənətkarlığı sahəsində fəaliyyət göstərən Masallı, Balakən, İsmayıllı, Şəki və Bakı şəhərlərindən 63 ailə ilə əməkdaşlıq qurulmuşdur. Bakı şəhərində "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində yerləşən "ABAD" mağazasında həmin ailələrin 500 adda 2000-dən çox sənət nümunəsinin və 10 adda kənd təsərrüfatı məhsullarının satışı təşkil edilir.

**Torpaqlardan səmərəli istifadə olunması** əhalinin ərzaqla təminatında mühüm rol oynayır. Bununla əlaqədar olaraq, torpaqların mühafizəsi, deqradasiyaya məruz qalmış torpaqların kənd təsərrüfatına yararlı hala salınması və onlardan səmərəli istifadə olunması Azərbaycan hökumətinin diqqət mərkəzindədir. Məhsuldar və dayanıqlı kənd təsərrüfatı təyinatlı torpaqların xüsusi çəkisinin dinamikasını əks etdirən Cədvəl 6.3-ün məlumatları göstərir ki, bu istiqamətdə ölkədə müsbət dinamika müşahidə olunur.

**Cədvəl 6.3. Kənd təsərrüfatına yararlı torpaq sahəsi ilin əvvəlinə, min hektar**

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|
| **Kənd təsərrüfatına yararlı torpaq (əkin yeri, dincə qoyulmuş torpaqlar, çoxillik əkmələr, otlaqlar və biçənəklər) sahəsi ilin əvvəlinə, min hektar** | 4757,3 | 4766,8 | 4768,7 | 4768,3 | 4769,8 | 4769,7 | 4769,8 |

Mənbə: Əmlak Məsələləri Dövlət Komitəsi

Azərbaycanın ümumi torpaq fondu 8641,5 min hektar təşkil edir ki, onun 4769,8 min hektarı və ya 55,2%-i kənd təsərrüfatına yararlı torpaqlardır. 2010-cu illə müqayisədə 2016-cı ildə ölkənin kənd təsərrüfatına yararlı torpaq sahəsi 0,3 % artmışdır (Cədvəl 6.3).

Araşdırmalar göstərir ki, torpaqların deqradasiyası, əsas etibarilə, zəif torpaq idarəçiliyi səbəbindən baş verir. Yüksək temperatur, yağışın xarakterinin dəyişməsi, ekstremal hava şəraiti (quraqlıq və s.) kimi iqlim faktorlarının bitkiçilik və heyvandarlıq sahələrində məhsuldarlığın aşağı düşməsinə səbəb olduğu nəzərə alınmalı, bu dəyişikliklərə uyğunlaşdırılmış bitki sortlarının və heyvan cinslərinin tətbiqi genişləndirilməli və “iqlim əsaslı ağıllı kənd təsərrüfatı”nın inkişafı təşviq edilməlidir.

Torpaqların səmərəli istifadə edilməsi məqsədilə onun su, qida, hava, istilik rejimləri düzgün tənzimlənməli kənd təsərrüfatı bitkilərinin fenoloji və bioloji xüsusiyyətləri nəzərə alınmalıdır.

**Genetik ehtiyatların qorunması, artırılması və səmərəli istifadəsi** də əhalinin etibarlı ərzaq təminatında mühüm əhəmiyyət kəsb edən amildir. Azərbaycanda məsələnin vacibliyi nəzərə alınaraq, Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi sisteminə daxil olan elmi-tədqiqat institutları və Azərbaycan Dövlət Aqrar Universiteti tərəfindən yeni bitki sortlarının və heyvan cinslərinin yaradılması və ya mövcud sortların və cinslərin təkmilləşdirilməsi istiqamətində elmi tədqiqatlar və təcrübələr aparılır.

Kənd Təsərrüfatı Nazirliyi yanında Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidməti tərəfindən həyata keçirilən sort-sınaq işlərinin nəticələrinə əsasən yeni bitki sortları dövlət reyestrində qeydiyyata alınır. 2011 - 2015-ci illərdə yeni yaradılmış və dövlət reyestrində qeydiyyata alınmış bitki sortları barədə məlumatlar aşağıdakı Cədvəl 6.4-də verilmişdir.

**Cədvəl 6.4.** 2011-2015-ci illər ərzində dövlət reyestrində qeydiyyata alınmış bitki sortları

| **Bitki sortu** | | **Sortun sayı** | **2011** | **2013** | **2014** | **2015** | **2016** |
|---|---|---|---|---|---|---|---|
| **Dənli və dənli-paxlalı bitkilər** | payızlıq yumşaq buğda | ədəd | 5 | 2 | 5 | 1 | 3 |
| | payızlıq bərk buğda | ədəd | - | - | - | 1 | |
| | payızlıq arpa | ədəd | 1 | 2 | 1 | - | 1 |
| | noxud | ədəd | - | 1 | 1 | - | |
| | qarğıdalı | ədəd | 1 | - | 1 | - | 2 |
| | mərcimək | ədəd | | | | | 1 |
| **Yağlı bitkilər** | yer fındığı | ədəd | - | - | 1 | - | |
| **Yem bitkiləri** | yonca | ədəd | 1 | - | 1 | 1 | |
| **Texniki bitkilər** | pambıq | ədəd | - | 1 | 3 | 1 | 4 |
| | tütün | | | | | | 1 |
| **Tərəvəz bitkiləri** | kələm | ədəd | - | - | 2 | 4 | 3 |
| | pomidor | ədəd | 4 | - | 4 | 3 | 20 |
| | badımcan | ədəd | 1 | - | 1 | - | 1 |
| | xiyar | ədəd | 1 | - | 1 | 3 | 15 |
| | soğan | ədəd | 1 | - | 1 | - | |
| | sarımsaq | ədəd | - | - | - | 1 | |
| | bibər | ədəd | - | - | 1 | - | 3 |
| | tərəvəz lobyası | ədəd | - | - | 2 | - | 1 |
| | kahı | ədəd | - | - | - | 3 | 2 |
| | kartof | | | | | | 11 |
| **Meyvə** | Alma | ədəd | - | - | 3 | 2 | 3 |
| | Feyxoa | ədəd | 2 | - | 2 | - | |
| | Kivi | ədəd | - | - | 1 | - | |
| **Tut** | Yarpağı ipəkqurdu üçün istifadə olunanlar | ədəd | 1 | 1 | - | - | 2 |
| **İpəkqurdu** | | ədəd | 4 | 7 | - | 11 | |
| ***Cəmi*** | | | **22** | **14** | **31** | **31** | **73** |

Mənbə: KTN

Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi, dövlət toxumçuluq müəssisələri və özəltoxumçuluq təsərrüfatları tərəfindən 2014-2016-cı illər ərzində istehsal olunaraq

sertifikatlaşdırılmış taxıl bitkilərinin toxumları barədə məlumatlar isə Cədvəl 6.5-də əks olunmuşdur.

**Cədvəl 6.5.** 2014-2016-cı illər ərzində sertifikatlaşdırılmış taxıl bitkilərinin toxumları, ton

| İllər | Orijinal | Super-elit | Elit | R1 | R2 |
|---|---|---|---|---|---|
| 2014 | 26,2 | 158,75 | 2181,0 | 16308,0 | 44876,0 |
| 2015 | 41,8 | 200,2 | 1612,0 | 22561,0 | 43068,0 |
| 2016 | 37,8 | 223,5 | 2425,2 | 20951,58 | 50956,9 |
| Cəmi | 105,8 | 582,45 | 6218,2 | 59820,6 | 138900,9 |

Mənbə: KTN

Cədvəl 6.5-dən göründüyü kimi orijinal kateqoriyada olan taxıl bitkilərinin həcmi 2016-cı ildə 2014-cü illə müqayisədə 11,6 ton və ya 44,3% artmışdır. O cümlədən Super-elit, Elit, R1 və R2 toxum kateqoriyasından olan toxumların da həcmində nəzərəçarpacaq artım müşahidə olunmuşdur.

Mövcud genetik resursların ədalətli və bərabər şəkildə bölüşdürülməsini və istehsalçıların bu resurslardan yararlanmalarını təmin etmək məqsədilə dövlət tərəfindən istehsalçıların məhsuldar bitki sortları toxumları və cins heyvanlarla təminatına dəstək verilir.

Sertifikatlı toxum və tinglərin istehsalına və satışının subsidiyalaşdırılmasına görə toxumçuluq təsərrüfatlarına, habelə elmi tədqiqat təşkilatları tərəfindən istehsal edilmiş orijinal, superelit və elit toxumlarının istehsalına çəkilən xərclərin ödənilməsinə görə 2011 - 2015-ci illər ərzində ayrılmış dövlət büdcəsi vəsaiti barədə məlumatlar Cədvəl 6.6-da verilmişdir.

**Cədvəl 6.6.** Toxum istehsalçılarına dövlət büdcəsi vəsaiti hesabına verilmiş birbaşa subsidiyalar, milyon manat

| | 1-ci və 2-ci reproduksiyalı toxumlara görə | Orijinal, superelit və elit toxumlara görə |
|---|---|---|
| 2011 | 5,8 | 0,93 |
| 2012 | 7,4 | 0,93 |
| 2013 | 7,4 | 0,92 |
| 2014 | 9,8 | 0,91 |
| 2015 | 5,3 | 0,92 |
| Cəmi | 35,7 | 4,61 |

Mənbə: KTN və MN

Heyvandarlıq təsərrüfatlarında seleksiya-damazlıq işlərinin elmi əsaslarla aparılması və heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması məqsədilə dövlət büdcəsindən ayrılmış vəsait hesabına xarici ölkələrdən yüksək məhsuldarlığa malik cins damazlıq heyvanları idxal edilərək dəyərinə 50% güzəşt tətbiq edilməklə 3 il müddətinə məhsul istehsalçılarına lizinq yolu ilə satılır.

2011-2015-ci illər ərzində ölkəyə xaricdən idxal edilmiş və istehsalçılara güzəştli lizinq şərtləri ilə verilmiş yüksək məhsuldarlığa malik cins damazlıq heyvanlar barədə məlumatlar Cədvəl 6.7-də verilmişdir.

**Cədvəl 6.7.** İdxal edilmiş və istehsalçılara güzəştli lizinq şərtləri ilə satılmış cins damazlıq heyvanlar, baş

| | İribuynuzlu heyvanlar | Xırdabuynuzlu heyvanlar |
|---|---|---|
| 2011 | 844 | - |
| 2012 | 3002 | - |
| 2013 | 2563 | - |
| 2014 | 2985 | 4897 |
| 2015 | 5593 | 1050 |
| Cəmi | 14987 | 5947 |

Mənbə: KTN

Təsərrüfatlarda mövcud olan heyvanların cins tərkibinin yaxşılaşdırılması məqsədilə süni mayalanmanın aparılmasına dövlət dəstəyi verilir. Süni mayalandırma yolu ilə alınmış hər baş buzova görə heyvan sahiblərinə 100 manat subsidiyanın verilməsini müəyyən edən Azərbaycan Respublikası Prezidentinin "Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında" 2015-ci il 19 avqust tarixli 1364 nömrəli Sərəncamına və bu sərəncamın icrası ilə əlaqədar qəbul edilmiş Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 24 dekabr tarixli 401 nömrəli qərarı ilə təsdiq edilmiş "Süni mayalandırma yolu ilə alınmış hər buzova görə heyvan sahiblərinə subsidiyanın verilməsi Qaydası"na əsasən 2016-cı ildə 4154 heyvan sahibinə 472,2 min manat subsidiya ödənilmişdir.

**Kənd təsərrüfatına dövlət dəstəyi sistemi onun inkişafını sürətləndirən amildir.** Bu amil nəzərə alınaraq, Azərbaycanda kənd təsərrüfatına dövlət dəstəyi ildən ilə artırılır (Cədvəl 6.8).

**Cədvəl 6.8.** Kənd təsərrüfatı sahəsinə verilən birbaşa subsidiyalar və digər dəstək tədbirləri, milyon manat

| Xərclər | illər üzrə milyon manat | | | | |
|---|---|---|---|---|---|
| | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
| **Buğda və çəltik səpininə görə subsidiya** | 23,4 | 25,2 | 24,9 | 20,1 | 17,1 |
| **Yanacaq və motor yağlarına görə subsidiya** | 52,8 | 56,7 | 57,4 | 51,8 | 63,2 |
| **Mineral gübrələrin güzəştli satışına görə subsidiya** | 13,5 | 17,98 | 24,9 | 29,5 | 54,8 |
| **I və II reproduksiyalı toxumların və tinglərin güzəştli satışına görə subsidiya** | 5,8 | 7,4 | 7,4 | 9,8 | 5,3 |
| **Orijinal, superelit və elit toxumların istehsal xərclərinə görə subsidiya** | 0,93 | 0,93 | 0,92 | 0,91 | 0,92 |
| **Kənd təsərrüfatı texnikasının güzəştli satışına görə subsidiya** | - | - | - | 0,5 | 11,1 |
| **İdxal olunan damazlıq heyvanların güzəştli satışına görə subsidiya** | 3,1 | 5,6 | 6,4 | 16,4 | 6,9 |
| **"Aqrolizinq" ASC- yə ayrılan vəsait** | 35,0 | 35,0 | 35,0 | 35,0 | 40,0 |
| **Cəmi** | 134,58 | 148,84 | 156,95 | 164,05 | 199,29 |

Mənbə: KTN və MN

Ölkədə dövlət dəstəyi aşağıdakı istiqamətləri əhatə edir:

Buğda və çəltik səpininə görə subsidiya - Nazirlər Kabinetinin 15 fevral 2007-ci il tarixli 32 nömrəli Qərarına əsasən kənd təsərrüfatı məhsul istehsalçılarına hər hektar buğda və çəltik əkininə görə 40 manat yardım verilir. Həmçinin eyni qərarla kənd təsərrüfatı məhsul istehsalçılarına hər hektara sərf etdikləri yanacaq və motor yağlarına görə 50 manat (2011-2014-cü illərdə 40 manat) miqdarında yardım verilir.

Mineral gübrələrin güzəştli satışına görə subsidiya - Nazirlər Kabinetinin yuxarıda qeyd olunan Qərarına əsasən hər hektara istifadə olunan mineral gübrənin qiymətinə dövlət büdcəsinin vəsaiti hesabına 70% (2011-2014-cü illərdə 50%) həcmində güzəşt tətbiq olunur.

Nazirlər Kabinetinin 25 iyun 2007-ci il tarixli 103 nömrəli “Qərarına əsasən I və II reproduksiyalı toxumların və tinglərin təsdiq olunmuş məbləğdə güzəştli satışına görə subsidiya verilir.

Bundan başqa, Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş kvota əsasında orijinal, superelit və elit toxumların istehsalına çəkilən xərclər dövlət büdcəsi vəsaiti hesabına ödənilir.

Nazirlər Kabinetinin 13 avqust 2014-cü il tarixli 273 nömrəli Qərarına əsasən "Aqrolizinq" ASC tərəfindən lizinqə verilən kənd təsərrüfatı texnikasının ilkin dəyərinin

20%-i ödənildikdə, dövlət büdcəsinin vəsaiti hesabına ilkin dəyərin 40%-i həcmində güzəşt tətbiq edilir.

Nazirlər Kabinetinin 22 sentyabr 2008-ci il tarixli 226 nömrəli Qərarına əsasən dövlət vəsaiti hesabına idxal olunan damazlıq heyvanlar 50% güzəştlə lizinq yolu ilə kənd təsərrüfatı məhsulları istehsalçılarına satılır.

Cədvəl 6.9-dan göründüyü kimi kənd təsərrüfatına çəkilən xərclər ilbəil artmaqdadır. Belə ki, 2011-ci ilə nisbətən 2015-ci ildə 13% artmışdır, bununla yanaşı kənd təsərrüfatında yaradılan əlavə dəyərin həcmi artaraq 2011-ci ildəki 2643,5 milyon manatdan, 2015-ci ildə 3359,3 milyon manata çatmışdır. Kənd təsərrüfatında yaradılan əlavə dəyərin artması bu sahənin ÜDM-də payını da artırmışdır.

**Cədvəl 6.9.** Dövlət xərclərinin strukturunda kənd təsərrüfatına ayrılmaların indeksi

| Göstəricilər | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|
| **Kənd təsərrüfatı xərcləri, milyon manat** | 1101,7 | 1214,1 | 1280,6 | 1233,7 | 1245,4 |
| **Kənd təsərrüfatının ümumi dövlət xərclərində payı, faizlə** | 7,2 | 7,0 | 6,7 | 6,6 | 7,0 |
| **Kənd təsərrüfatı sahəsində yaradılmış əlavə dəyərin həcmi, milyon manat** | 2643,5 | 2813,7 | 3122,2 | 3139,2 | 3359,3 |
| **Kənd təsərrüfatının ÜDM-da payı, faizlə** | 5,1 | 5,1 | 5,4 | 5,3 | 6,2 |
| **Kənd təsərrüfatına ayrılmaların indeksi** | **1,4** | **1,4** | **1,3** | **1,3** | **1,1** |

Mənbə: KTN və MN

**Ərzaq qiymətlərinin anomallıq qiymət göstəricisi.** 2015-ci ilin avqust ayından etibarən Kənd Təsərrüfatı Nazirliyinin BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə birgə həyata keçirilən layihə çərçivəsində kənd təsərrüfatı məhsullarının elektron qiymət informasiya portalı www.azagro.net yaradılmışdır. Bunun hesabına Kənd Təsərrüfatı Nazirliyi tərəfindən mütəmadi olaraq 46 adda meyvə, tərəvəz və bostan məhsullarının 400 növü üzrə topdan və pərakəndə satış qiymətləri toplanır və qiymət dəyişmələri təhlil olunur.

2017-ci ildə kənd təsərrüfatı məhsullarının qiymət informasiya portalı təkmilləşdirilmişdir. Belə ki, portalda heyvandarlıq məhsulları, taxılçılıq məhsulları, texniki bitkilər və bəzi kənd təsərrüfatı istehsalı vasitələri üzrə topdan və pərakəndə satış qiymətləri, fermer satış qiymətləri və tədarük müəssisələri tərəfindən satın alınan qiymətləri də əhatə edən yeni məlumat bazası hazırlanmışdır.

## MƏQSƏD 3. Bütün yaşlarda hamı üçün sağlam yaşayışı təmin etmək və rifahı təşviq etmək

3.1. 2030-cu ilədək, dünyada ana ölümü nisbətini hər 100,000 canlı doğuşa 70-dən aşağı səviyyəyə qədər azaltmaq.
3.2. 2030-cu ilədək, bütün ölkələr tərəfindən neonatal ölüm hallarının ən azı hər 1,000 canlı doğuşa 12 hal və 5 yaşadək uşaq ölümü hallarının isə ən azı hər 1,000 canlı doğuşa 25 belə halın baş verdiyi səviyyəyə qədər endirilməsi məqsəd kimi qarşıya qoyulmaqla, körpə və uşaqların qarşısı alına bilən ölüm hallarına son qoymaq.
3.3. 2030-cu ilədək, QİÇS-in, vərəmin, malyariyanın və kifayət qədər diqqət yetirilməyən tropik xəstəliklərin epidemiyasına son qoymaq və hepatitlə, sudan keçən xəstəliklərlə və digər yoluxucu xəstəliklərlə mübarizə aparmaq.
3.4. 2030-cu ilədək, profilaktika və müalicə vasitəsilə qeyri-yoluxucu xəstəliklərdən erkən ölüm hallarını üçdə birə qədər azaltmaq və əqli sağlamlığı və sağlam yaşayışı təşviq etmək.
3.5. Zərərli maddələrdən sui-istifadənin, o cümlədən narkotik maddələrdən sui-istifadə və alkoqoldan zərərli istifadə hallarının qarşısının alınması və müalicə edilməsi işini gücləndirmək.
3.6. 2020-ci ilədək, dünyada yol qəza hadisələrindən ölüm və xəsarət alma hallarını yarıya qədər azaltmaq.
3.7. 2030-cu ilədək, hamının cinsi və reproduktiv səhiyyə xidmətlərinə, o cümlədən ailə planlaşdırması,

informasiya və təhsillə bağlı xidmətlərə çıxış imkanının təmin edilməsi və reproduktiv sağlamlığın milli strategiyalara və proqramlara daxil edilməsi.
3.8. Maliyyə riskindən qoruma da daxil olmaqla, hamı üçün tibbi sığorta təminatına, əsas keyfiyyətli səhiyyə xidmətlərinə çıxış imkanına və təhlükəsiz, effektiv, keyfiyyətli və əlçatan şəkildə əsas dərman preparatlarına və peyvəndlərə çıxış imkanına nail olmaq.
3.9. 2030-cu ilədək, zərərli kimyəvi maddələrdən və havadan, suyun və torpağın çirklənməsindən və korlanmasından ölüm və xəstələnmə hallarının sayını əhəmiyyətli dərəcədə azaltmaq.
3.a. Zərurət olduqda, bütün ölkələrdə Ümumdünya Səhiyyə Təşkilatının Tütünə Nəzarət üzrə Çərçivə Konvensiyasının yerinə yetirilməsi işini gücləndirmək.
3.b. Əhalinin sağlamlığının qorunması və xüsusən də hamının dərman preparatlarına çıxış imkanının təmin olunması üçün uyğunlaşdırma imkanlarına dair Əqli Mülkiyyət Hüquqlarının Ticarətlə Bağlı Aspektləri üzrə Sazişdəki (TRİPS) müddəalardan inkişaf etməkdə olan ölkələrin tam həcmdə yararlanmaq hüququnu bir daha bəyan edən TRİPS Sazişi və Səhiyyə haqqında Doha Bəyannaməsinə uyğun olaraq, ilk növbədə inkişaf etməkdə olan ölkələrə təsir edən yoluxucu və qeyri-yoluxucu xəstəliklər üçün peyvəndlərlə və dərman preparatları ilə bağlı tədqiqatlara və onların hazırlanmasına dəstək göstərmək, əlçatan şəkildə əsas dərman preparatlarına və peyvəndlərə çıxış imkanını təmin etmək.
3.c. İnkişaf etməkdə olan ölkələrdə, xüsusən də ən zəif inkişaf etmiş ölkələrdə və kiçik adalarda yerləşən inkişaf etməkdə olan ölkələrdə səhiyyənin maliyyələşməsini və səhiyyədə çalışan işçi qüvvənin seçilməsi, inkişaf etdirilməsi, təlim keçməsi və saxlanması işini əhəmiyyətli dərəcədə artırmaq.
3.d. Bütün ölkələrin, xüsusən də inkişaf etməkdə olan ölkələrdə erkən xəbərdarlıq, riskin azaldılması və milli və qlobal səhiyyə risklərinin idarə olunması üçün potensialı gücləndirmək.

**Ana və uşaqların sağlamlığına dövlət qayğısı müntəzəm olaraq artır.** Hər yerdə olduğu kimi Azərbaycanda da sağlam həyat dayanıqlı inkişafın əsas şərtlərindən hesab olunur. Bununla əlaqədar olaraq, ölkə əhalisinin keyfiyyətli və əlverişli şərtlərlə tibbi xidmətlə təmin olunması ölkənin sosial-iqtisadi inkişaf strategiyasında xüsusi yer tutur. Ölkədə əhalinin ümumi sağlamlığının, o cümlədən ana və uşaq sağlamlığının yaxşılaşdırılmasına dövlət qayğısı vardır və 2000-ci illərin əvvəllərindən ölkənin imkanları genişləndikcə bu qayğının daha da artması müşahidə olunur. Belə ki, 2000-2015-ci illərdə.dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitlərin məbləği 17,3 dəfədən çox artmış, səhiyyə obyektlərinin tikintisi, təmiri, bərpası və yenidən qurulması üçün xeyli maliyyə vəsait ayrılmışdır. 2016-cı ildə dövlət büdcəsindən səhiyyəyə 702,5 miln AZN vəsait ayrılmışdır ki, bu da büdcə xərclərinin 3,96%-ni təşkil edir.

Bununla yanaşı, Azərbaycanda əhalinin tibbi xidmətlərə əlçatanlığının artırılması, keyfiyyətli tibbi xidmətlərin həyata keçirilməsinin stimullaşdırılması, səhiyyə sahəsində dayanıqlı maliyyə mənbələrinin formalaşdırılması istiqamətində ən mühüm tədbirlərdən biri kimi icbari tibbi sığortanın tətbiqinə başlanılmışdır. Bu məqsədlə 2016-cı ildə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında İcbari tibbi sığorta üzrə Dövlət Agentliyinin əsasnaməsi və strukturu təsdiq edilmiş iki pilot rayonda işlərə başlanılmşdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 sentyabr 2006-cı il tarixli 211 saylı Qərarı ilə "Ana və uşaqların sağlamlığının qorunması üzrə Tədbirlər Proqramı" təsdiq edilmişdir. Proqramın əsas məqsədi ana və uşaqların sağlamlığının möhkəmləndirilməsi, əhalinin reproduktiv sağlamlığının qorunması, sağlam və arzuolunan uşaqların doğulması üçün zəruri şəraitin yaradılması, ana və uşaqlar arasında xəstələnmə və ölüm hallarının azaldılmasıdır. Bu proqramın davamı olaraq Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 iyun tarixli Sərəncamı ilə "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir. Bu proqramın əsas məqsədi ölkədə qadınlara və uşaqlara göstərilən müalicə-profilaktika yardımının keyfiyyətini yüksəltmək, onların sağlamlıq vəziyyətini daha da yaxşılaşdırmaqdan ibarətdir.

Ölkədə ana ölümü ilə əlaqədar vəziyyət Cədvəl 6.10-da əks olunmuşdur.

**Cədvəl 6.10.** Ana ölümü (hər 100 min nəfər diri doğulana)

| | 2000 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|
| **Ana ölümü hər 100 000 diri doğulana** | 37,6 | 15,7 | 15,3 | 14,9 | 14,5 | 14,6 | 14,4 | 13,8 |

Mənbə: DSK

Cədvəl 6.10-dan göründüyü kimi, Azərbaycanda ana ölümü səviyyəsinin keçid dövründə nəzərə çarpacaq dərəcədə artaraq 2000-ci ildə hər 100 min nəfər diri doğulana 37,6 nəfərə çatmasına baxmayaraq, sonrakı illərdə anaların sağlamlığının yaxşılaşdırılması istiqamətində atılan addımlar sahədə irəliləyişlərə nail olunmaqla nəticələnmişdir. Belə ki, 2000-2015-ci illər ərzində bu göstərici azalaraq 14,4 nəfərə, 2016-cı ildə isə 13,8 nəfərə düşmüşdür.

Bu sahədə vəziyyətin yaxşılaşmasına həmin dövrdə ixtisaslı tibb işçiləri tərəfindən qəbul edilən doğuşların xüsusi çəkisinin artması da (Cədvəl 6.11) müsbət təsir göstərmişdir.

**Cədvəl 6.11.** İxtisaslı səhiyyə kadrları tərəfindən qəbul edilən doğuşların xüsusi çəkisi

| | 2000 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|
| **İxtisaslı tibb işçiləri tərəfindən qəbul edilən doğuşların xüsusi çəkisi, %** | 92,1 | 99,6 | 99,7 | 99,8 | 99,9 | 99,9 | 99,8 |

Mənbə: DSK

Baxılan dövrdə ölkədə 5 yaşadək uşaqlar arasında ölüm halları sahəsində vəziyyət də xeyli yaxşılaşmışdır. Belə ki, 2000-2015-ci illər ərzində hər 1000 nəfər diridoğulana 5 yaşadək uşaqlar arasında ölüm halları 30,5 nəfərdən 13,3 nəfərə düşmüşdür (Cədvəl 6.12). Təhlillər göstərir ki, 2015 və 2016-cı illərdə bu göstəricinin kəmiyyətininin cüzi artması bu illərdə dünyada baş verən neqativ proseslərlə əlaqədardır və müvəqqəti xarakterə malikdir.

**Cədvəl 6.12.** 5 yaşadək uşaqlar arasında ölüm (1000 nəfər diridoğulana)

| | 2000 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|
| **5 yaşadək uşaqlar arasında ölüm (hər 1000 diridoğulana)** | 30,5 | 14,2 | 13,5 | 13,0 | 12,9 | 12,6 | 13,3 | 13,8 |

Mənbə:DSK

Neonatal ölüm. 2011-2015-ci illər ərzində neonatal dövrdə ölən körpələrin sayı 1152-dən 981-ə qədər, hər 1000 diri doğulana nisbətdə 6,5-dən 5,9-a qədər azalmışdır. 2016-cı ildə müvafiq göstəricinin qiyməti 5,5-ə düşmüşdür.

Yuxarıda ana və uşaqların sağlamlığının qorunması ilə bağlı adı çəkilən Dövlət Proqramları ilə yanaşı "Uşaqların icbari dispanserizasiyası haqqında" Azərbaycan Respublikası Qanunu qəbul olunmuşdur. Səhiyyə Nazirliyinin məlumatına görə Uşaqların icbari dispanserizasiyası proqramı çərçivəsində 2015-ci ildə uşaqların 92%-dən çoxu müayinələrə cəlb olunmuşdur. Tibbi müayinədən keçirilmiş uşaqların 6%-i sağlamlıq vəziyyətinə görə dispanser qeydiyyata götürülmüş, 1%-i isə ixtisaslaşdırılmış tibb müəssisələrinə hospitalizasiya olunmuşdur.

Həmçinin, 1999-cu ildə Şərqi Avropa və MDB məkanında ilk dəfə olaraq qəbul olunmuş "Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası"nın və onun əsasında hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 11 noyabr 2004-cü il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı"nın xüsusi rolu olmuşdur. Bu siyasət sənədlərində nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi əhalinin optimal təkrar istehsalına nail olmağa, orta ömür uzunluğunu artırmağa, ana və uşaqların müdafiəsini gücləndirməyə, ailələrin inkişafı üçün əlverişli sosial-iqtisadi zəmin yaratmağa və miqrasiya proseslərinin tənzimlənməsinin səmərəliliyini artırmağa yönəlmişdir.

**İİV-lə mübarizə.** Azərbaycan Respublikasında İİV-lə mübarizə məqsədi ilə bu infeksiyanın aşkarlanması, profilaktikası və İİV-li insanların müalicəsi sahəsində mühüm tədbirlər həyata keçirilir. "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" Azərbaycan Respublikasının 2010-cu il 11 may tarixli 1001-IIIQ nömrəli Qanununun qəbul edilməsi bu infeksiyaya qarşı kompleks tədbirlərin həyata keçirilməsinə zəmin yaratmışdır.

Azərbaycan İİV-ə yoluxma səviyyəsi aşağı ölan ölkələr sırasındadır. Ümumilikdə, 2015-ci ilin sonuna ölkədə İİV/QİÇS infeksiyasına yoluxmuş 5629 nəfər insan qeydiyyata alınmışdır. Cədvəl 6.13 2010-2015-ci illəri əhatə edən dövrdə hər 1000 nəfər sağlam adamdan İİV-ə yeni yoluxmuşların sayını əks etdirir. Cədvəldən görünür ki, göstərici üzrə vəziyyət dəyişərək 0,05-dən-0,07-yə qədər artmışdır. Kişilər və qadınlar üzrə hər ikisində artan meyl müşahidə olunmuşdur. 2015-ci ildə kişilər üzrə bu əmsal 2010-cu illə müqayisədə 66,7% artaraq 0,06-dan 0,1-ə, qadınlar üzrə isə 2,5 dəfə artaraq 0,02-dən 0,05-ə çatmışdır.

**Cədvəl 6.13.** Hər 1000 nəfər sağlam adamdan İİV-ə yeni yoluxmuşların sayı

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|
| **Cəmi** | 0,05 | 0,06 | 0,05 | 0,05 | 0,06 | 0,07 |
| **o cümlədən:** | | | | | | |
| **Kişilər** | 0,06 | 0,09 | 0,07 | 0,07 | 0,08 | 0,10 |
| **Qadınlar** | 0,02 | 0,03 | 0,03 | 0,04 | 0,05 | 0,05 |

Mənbə: DSK

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 17 fevral tarixli 63 nömrəli “2016-2020-ci illər üçün İİV/QİÇS-lə mübarizə üzrə Tədbirlər Proqramı”nın təsdiq edilməsi haqqında qərarı qəbul edilmişdir. Tədbirlər Proqramı “Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyası”na uyğun olaraq hazırlanmış və qeyd olunan dövrdə İİV-lə mübarizə sahəsində bir sıra tədbirləri əhatə edəcəkdir.

**Digər yoluxucu xəstəliklər.** Təhlil göstərir ki, ölkədə həyata keçirilən ardıcıl və davamlı tədbirlər nəticəsində Azərbaycan Respublikasında vərəm, malyariya, Hepatit B və tropik xəstəliklər kimi yoluxucu xəstəliklərin yayılmasının qarşısı alınmış və ölkə əhalisinin bu tip xəstəliklərə tutulma halları azalmışdır (Cədvəl 6.14).

**Cədvəl 6.14.** Vərəm, malyariya, Hepatit B və tropik xəstəliklərə yoluxanalrın sayı

| | 2000 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|
| **Vərəmə yoluxanların sayı, əhalinin hər 100 min nəfərinə** | 64,3 | 53,7 | 53,4 | 50,3 | 48,7 | 46,6 | 41,9 |
| **Malyariyaya, əhalinin hər 100 min nəfərinə** | 19,4 | 0,6 | 0,1 | 0,03 | - | - | - |
| **Hepatit B, əhalinin hər 100 min nəfərinə** | 2,5 | 4,1 | 2,8 | 2,8 | 2,4 | 1,9 | 1,5 |
| **Tropik xəstəliklərdən müalicəyə ehtiyaci olan, lakin kifayat qədər diqqət göstərilməyən insanların sayı** | Tropik xəstəliklər aşkar edilməyib | | | | | | |

Mənbə: DSK və SN

“Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunundan irəli gələn tələblərin yerinə yetirilməsi üçün bir sıra normativ sənədlər hazırlanmış və ÜST tərəfindən tövsiyə edilən strategiyalar qəbul edilmişdir. O cümlədən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 26 noyabr tarixli 226 nömrəli qərarı ilə təsdiq edilmiş “2011-2015-ci illər üçün vərəmlə mübarizə üzrə Tədbirlər Proqramı” qəbul olunmuşdur. Proqram qəbul edildikdən sonra respublikada vərəm xəstəliyi ilə mübarizə aparan bir çox tibb müəssisələrinin tikintisi və təmiri həyata keçirilmiş, bu müəssisələrin maddi-texniki bazası gücləndirilmişdir. Cədvəl 6.14-dən də göründüyü kimi proqramın icra olunduğu dövrdə əhalinin hər 100 min nəfərinə vərəmə yoluxanların sayı 2010-cu ildə 53,7-dən 2015-ci ildə 41,9-a qədər azalmışdır.

Bu proqramın ardınca Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 28 yanvar tarixli 16 nömrəli qərarı ilə “2016-2020-ci illər üçün vərəmlə mübarizə üzrə Tədbirlər Proqramı” təsdiq edilmişdir. Tədbirlər Proqramının başlıca məqsədi Azərbaycan Respublikasında vərəm xəstəliyinin yayılma səviyyəsinin aşağı salınması

və bu xəstəliklə bağlı əlilliyin və ölüm hallarının azaldılmasından ibarətdir. Proqramın həyata keçirilməsindən aşağıdakı nəticələr gözlənilir:

- xəstəlik hallarının erkən aşkar edilməsi;
- aşkar edilmiş xəstələri vaxtında müalicəyə cəlb etməklə sağalma səviyyəsinin yüksəldilməsi;
- tibb müəssisələrində epidemiya əleyhinə tədbirləri gücləndirməklə xəstəxanadaxili yoluxmaların qarşısının alınması;
- vərəmli xəstələrin qeydiyyatının yaxşılaşdırılması;
- vərəmlə bağlı əlillik və ölüm hallarının azaldılması;
- vərəmin profilaktikası sahəsində əhalinin maariflәndirilməsi.

Cədvəl 6.14-dən məlum olur ki, görülən tədbirlər nəticəsində ölkəmizdə maliyariya ilə bağlı epidemioloji vəziyyət yaxşılaşmış və faktiki olaraq 2013-cü ildən sonra xəstələnmə halı qeydə alınmamışdır, eyni zamanda tropik xəstəliklərlə yoluxma halı da aşkar edilməmişdir. Hepatit B virusuna gəldikdə isə ölkədə hepatit viruslarına qarşı mübarizə səylərini gücləndirmək məqsədilə ÜST Assambleyasının 2010-cu ildə qəbul etdiyi 18 saylı Qərara uyğun olaraq, 28 iyul tarixi Beynəlxalq Hepatitlə Mübarizə Günü elan edilmişdir.

Səhiyyə Nazirliyinin məlumatına əsasən, 2016-cı il ərzində ölkədə B və C hepatit xəstəlikləri ilə mübarizə işi davam etdirilərək Səhiyyə Nazirliyində yaradılmış komissiya tərəfindən 2648 nəfər xəstə müayinə olunmuş, onlardan 1766 nəfər pulsuz dərman preparatları ilə uzunmüddətli müalicə kursu alır. Ümumilikdə Hepatit B virusuna yoluxanların sayı göstəricisi 2010-cu ildə əhalinin hər 100 000 nəfərinə 4,1 təşkil edirdirsə, 2015-ci ildə bu göstərici 1,5-ədüşmüşdür. Hazırda göstərilən istiqamətlərdə qarşıda duran əsas vəzifə azalma meylini qorumaqdır.

**Ürək-damar xəstəliyi, xərçəng, diabet, tənəffüs yollarının xroniki xəstəlikləri ilə mübarizə** də ölkədə diqqət mərkəzindədir. Araşdırmalar göstərir ki, son 10 ildə ölkədə qan dövranı sistemi xəstəlikləri 5%, tənəffüs üzvlərinin xəstəlikləri 11%, endokrin sistemi xəstəlikləri 2,5 dəfə, o cümlədən şəkərli diabet 3,7 dəfə, sinir sistemi xəstəlikləri 15%, bədxassəli yenitörəmələr 30% artmışdır. Qeyd olunan müddət ərzində dünya üzrə qeyri-infeksion xəstəliklər (QİX) ilə xəstələnmə halları təxminən 14% artmışdır.Əksər ölkələrdə olduğu kimi, Azərbaycanda da xəstələnmə və ölüm hallarının əsas səbəbləri QİX-dir. Xəstələnmənin strukturunda 50%-dən artıq QİX, o cümlədən qan dövranı sistemi xəstəlikləri 17,6%, tənəffüs sistemi xəstəlikləri 15%, endokrin sistemi xəstəlikləri 15%, bədxassəli yenitörəmələr 2,7% təşkil edir [SN].

Cədvəl 6.15-in məlumatlarına nəzər saldıqda Azərbaycanda da son 5 ildə QİX-dən ölənlərin payı ümumi ölümlərin sayında yüksəlmişdir.

**Cədvəl 6.15.** Ürək-damar xəstəliyi, xərçəng, diabet, tənəffüs yollarının xroniki xəstəliklərindən ölüm, faizlə

| | 2000 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|
| **Qan dövranı sisteminin xəstəlikləri, şəkərli diabet, yenitörəmələr, tənəffüs sistemininn xəstəliklərindən ölüm** | 78,3 | 79,6 | 78,0 | 78,8 | 79,5 | 77,7 | 78,7 | 80,5 |
| **Qan dövranı sisteminin xəstəliklərindən ölüm** | 56,1 | 60,8 | 61,1 | 63,3 | 63,2 | 59,8 | 60,0 | 60,2 |
| **Şəkərli diabetdən ölüm** | 2,3 | 2,0 | 1,7 | 1,6 | 1,7 | 1,8 | 2,3 | 2,5 |
| **Yenitörəmələrdən ölüm** | 10,9 | 12,4 | 11,2 | 10,7 | 11,8 | 12,6 | 13,3 | 14,6 |
| **Tənəffüs sisteminin xəstəliklərindən ölüm** | 9,0 | 4,4 | 4,0 | 3,2 | 2,8 | 3,5 | 3,1 | 3,2 |

Mənbə: DSK

Ölkədə QİX-lə mübarizə istiqamətində əhalinin sağlamlığının yaxşılaşdırılması, o cümlədən QİX-lə bağlı vaxtından əvvəl ölüm hallarının mümkün qədər azaldılmasına nail olmaq və xəstəliklə mübarizədə əhalinin maarifləndirilməsi məqsədilə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsasən Azərbaycan Respublikasında qeyriinfeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

QİX-lə bağlı təsdiq olunmuş Strategiya ümumilikdə QİX-lə mübarizə məqsədi daşıyır. Lakin QİX-ə daxil olan ayrı-atrı xəstəliklər üzrə də ayrılıqda mühüm dövlət sənədləri qəbul edilmişdir. Bunlara misal olaraq, ""Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 fevral tarixli, 32 nömrəli Fərmanına əsasən hazırlanmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 7 iyun tarixli, 101 nömrəli qərarı ilə təsdiq olunmuş 2006-2010-cu illəri əhatə edən "Şəkərli diabet üzrə Dövlət Proqramı"nı göstərmək olar. Dövlət proqramı qəbul edildikdən sonrakı dövr ərzində şəkərli diabet xəstələrinin dərmanla təminatı xeyli yaxşılaşmış, xəstələrin əksəriyyəti özünənəzarət vasitələri - qlükometrlərlə təmin edilmişdir. Həmçinin bu Dövlət Proqramının məntiqi davamı olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 26 noyabr tarixli 222 nömrəli qərarı ilə "2011-2015-ci illər üçün şəkərli diabet üzrə Tədbirlər Proqramı" təsdiq edilmişdir. Tədbirlər proqramının nəticəsi olaraq şəkərli diabetin fəsadlarının profilaktikası məqsədi ilə tibb müəssisələrində diabet təlim məktəbləri yaradılmış və bu şəbəkə genişləndirilmişdir. Hazırda Naxçıvan Muxtar Respublikasında, Bakı, Gəncə, Sumqayıt, Mingəçevir şəhərlərində, Salyan, Şirvan, Lənkəran, Şəki, Bərdə, Balakən rayonlarında belə məktəblər fəaliyyət göstərir. Eyni zamanda, şəkərli diabet xəstələrinin aşkar edilməsi işinin yaxşılaşdırılması nəticəsində qeydiyyata götürülən xəstələrin sayı son 10 il ərzində 3 dəfədən çox artmış, bu xəstəlik səbəbindən ölüm səviyyəsi 2 dəfədən çox azalmışdır.

Bundan başqa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 28 yanvar tarixli 15 nömrəli qərarı ilə "2016-2020-ci illər üçün şəkərli diabet xəstəliyi üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. Bu Dövlət Proqramı da özündən əvvəlki proqramların davamı olaraq şəkərli diabetin profilaktikasına, xəstələrə göstərilən tibbi yardımın daha da təkmilləşdirilməsinə və xəstəlik nəticəsində yaranan fəsadların qarşısının alınmasına yönəldilmişdir.

Bədxassəli şişlərdən yüksək xəstələnmə və ölüm göstəriciləri bu xəstəliklə mübarizə işinə dövlətin prioritet istiqamətlərindən biri kimi yanaşmağa əsas verir. Son illərdə ölkə əhalisi arasında yenitörəmələrdən ölüm halları artmışdır (Cədvəl 6.15). Bu baxımdan, ölkədə onkoloji xəstələrin müalicəsinin keyfiyyətinin yaxşılaşdırılması və lazımi preparatlarla təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 19 iyul tarixli 178 nömrəli qərarı ilə "Onkoloji xəstələrin şiş əleyhinə əsas preparatlarla təminatı üzrə Tədbirlər Proqramı" təsdiq edilmişdir. Proqram qəbul edildikdən sonra bədxassəli şişlərlə mübarizə işində nəzərəçarpacaq irəliləyiş əldə olunmuşdur. Onkoloji yardım göstərən tibb müəssisələrinin maddi-texniki bazası yaxşılaşdırılmışdır. Milli Onkoloji Mərkəzi ən müasir tibbi texnika ilə, o cümlədən mobil diaqnostik kompleksla də təchiz edilmişdir.

2006-2008-ci illərdə onkoloji xəstələr üçün, müvafiq olaraq, 14, 27, 37 adda kimya terapiyası dərmanları alınmışdırsa, 2012-ci ildə bunların sayı 46-yə çatdırılmışdır [25].

**İntihar (özünəqəsd) nəticəsində ölənlər.** 2015-ci il ərzində ölkə üzrə 240 , 2016-ci il ərzində isə 295 intihar hadisəsi qeydə alınmışdır ki, bu da ölkədə hər 100 000 nəfər əhaliyə düşən intiharların 2015-ci ildə 2,5 hadisə, 2016-cı ildə isə 3,1 hadisə təşkil etdiyini göstərir. 2010-2015-ci illərdə intihar hadisələri nəticəsində ölənlər, ölkə üzrə

ölənlərin ümumi sayına nisbətən 0,6%-dən 0,4%-ə qədər azalmışdır. 2016-cı ildə bu göstərici 0,5% təşkil etmişdir.

Hər bir intihar hadisəsi ilə bağlı prokurorluq orqanları tərəfindən zəruri istintaq hərəkətləri aparılmaqla və hər bir hadisə ilə bağlı məhkəmə psixiatrik və psixoloji ekspertizaların tədiqiqinə dair rəylər alınmaqla, həmin hadisələrin baş verməsinin səbəb və şəraiti müəyyən edilmişdir.

Psixoaktiv maddələrdən istifadə səbəbindən pozuntuların müalicə dairəsi (medikamentoz, sosial-psixoloji və reabilitasiya xidmətləri və növbəti qulluğa görə xidmətlər) üzrə ölkədəki vəziyyət Cədvəl 6.16-da əks olunmuşdur. Cədvəldən də göründüyü kimi, əhalinin alkoqolizm, narkomaniya və toksikomaniya ilə xəstələnməsi halları artıma meyillidir. Bu isə, əsasən, narkomaniya üzrə artımla əlaqədardır. Belə ki, 2010-cu illə müqayisədə 2015-ci ildə əhalinin hər 100 000 nəfərinə müalicə - profilaktika müəssisələrində qeydiyyatda olan narkomaniya xəstəliyinə düçar olmuş şəxslərin sayı 21,2 nəfər artaraq 297,9 nəfər təşkil etmişdir. 2016-cı ildə bu göstərici bir qədər də artaraq 303,9 nəfərə çatmışdır. Baxılan dövrdə toksikomaniya xəstəliyinə düçar olanların sayında da artım müşahidə edilmişdir.

**Cədvəl 6.16.** Əhalinin alkoqolizm, narkomaniya və toksikomaniya ilə xəstələnməsi *(əhalinin hər 100 000 nəfərinə müalicə - profilaktika müəssisələrində qeydiyyatda olan xəstələrin sayı, nəfər)*

| | 2000 | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Alkoqol,narkotik və toksiki maddələrin qəbulundan yaranan psixi və davranış pozuntuları diaqnozu ilə** | **421,7** | **441,6** | **499,7** | **514,7** | **532,2** | **535,5** | **539,3** | **526,9** | **532,2** |
| **o cümlədən:** | | | | | | | | | |
| **alkoqolizm və alkoqol psixozu** | 245,1 | 230,1 | 221,6 | 222,9 | 228,5 | 230,7 | 235,2 | 227,2 | 226,1 |
| **narkomaniya** | 175,3 | 210,1 | 276,7 | 290,4 | 302,2 | 303,3 | 302,4 | 297,9 | 303,9 |
| **toksikomaniya** | 1,3 | 1,4 | 1,4 | 1,4 | 1,4 | 1,4 | 1,6 | 1,6 | 1,9 |
| **bir neçə narkotik maddənin qəbul edilməsi və digər psixoaktiv maddələrdən istifadə nəticəsində yaranan psixi və davranış pozuntuları** | ... | ... | ... | ... | 0,1 | 0,1 | 0,1 | 0,2 | 0,3 |

Mənbə: Dövlət Statistika Komitəsi

Ölkədə narkomaniyaya düçar olmuş insanların normal həyata və cəmiyyətə qaytarılması məsələsinin vacibliyini nəzərə alınaraq Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 371 nömrəli Fərmanı ilə “Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram” və 2007-ci il 28 iyun tarixli 2271 nömrəli Sərəncamı ilə “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram (2007-2012-ci illər üçün)” təsdiq edilmiş və uğurla həyata keçirilmişdir. Prezidentin 2013-cü il 24 iyun tarixli 2966 nömrəli Sərəncamı ilə növbəti 5 illik üçün“Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair Dövlət Proqramı (2013-2018-ci illər üçün)” təsdiq edilmişdir. Bu proqramın həyata keçirilməsi üzrə “Tədbirlər Planı"nın 4.2.7-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti 13 avqust 2014-cü il tarixli 276 nömrəli qərarı ilə "Narkomanlığa düçar olmuş şəxslərin müalicəsi, reabilitasiyası və resosializasiyası üzrə Proqram"ı təsdiq etmişdir.

**Yol-nəqliyyat hadisələri nəticəsində ölənlərin sayı.** 2010-2016-cı illərdə yol-nəqliyyat hadisələrində ölənlərin sayında ən yüksək göstərici 2013-cü ildə (1293 nəfər), ən aşağı göstərici isə 2016-cı ildə (829 nəfər) qeydə alınmışdır (Cədvəl 6.17).

**Cədvəl 6.17.** Yol-nəqliyyat hadisələri nəticəsində ölənlərin sayı

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|
| **Yol nəqliyyat hadisələri nəticəsində ölənlərin sayı, nəfər** | 1005 | 1070 | 1233 | 1293 | 1140 | 953 | 829 |
| **Ölənlərin ümumi sayına nisbətən, %-lə** | 1,9 | 2,0 | 2,2 | 2,4 | 2,0 | 1,7 | 1,5 |

Mənbə: DSK

Baş vermiş ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin əsasən gecə saatlarına təsadüf etməsi nəzərə alınaraq gecə saatlarında yol-patrul xidməti əməkdaşlarının iş rejiminin gücləndirilməsi, mütəmadi olaraq yol-nəqliyyat hadisələri baş verən ərazilərdə yol-patrul xidməti avtomobilinin sayrışan işığından istifadə edilməklə sürücülərə təhlükəli ərazi barədə (xarab yol, təhlükəli döngə və sairə) məlumat verilməsi və yol-nəqliyyat hadisələrinin qarşısını almaq məqsədilə digər bu kimi ciddi tədbirlər görülmüşdür.

**Reproduktiv sağlamlığın təmin olunması.** Mövcud məlumatlara **(**2011-ci il) görə) ölkədə reproduktiv yaş həddində olan (15-49 yaş) və ailə planlaşdırılmasına görə ehtiyaclarını müasir üsullarla təmin edən qadınların xüsusi çəkisi 8% təşkil edir. Bu göstəricinin qiyməti 2011-ci ildə Səhiyyə Nazirliyi tərəfindən keçirilmiş Demoqrafiya və Sağlamlıq Sorğusundan götürülmüşdür. Növbəti sorğu ilə bağlı tədbir "Azərbaycan Respublikasının əhali sakinliyi və demoqrafik inkişaf sahəsində Dövlət Proqramı (2017-2030-cu illər)"nın layihəsinə daxil edilmişdir.

Diri doğulanların ümumi sayında 15-19 yaşda analar tərəfindən dünyaya gətirilən uşaqların xüsusi çəkisi 2011-ci ildəki 11,9%-dən 2015-ci ildə 11,6%-ə düşmüşdür, bu yaş qrupunda olan hər 1000 qadına düşən diri doğulanların sayı 56,7-dən 52,4-ə qədər azalmışdır. 2016-cı ildə bu göstəricinin qiyməti 52,8 olmuşdur (Cədvəl 6.18).

**Cədvəl 6.18.** Müvafiq yaş qruplarında olan yeniyetmələr arasında doğum (15-19 yaşda), hər 1000 qadına

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|
| **Müvafiq yaş qruplarında olan yeniyetmələr arasında doğum (15-19 yaşda), hər 1000 qadına, nəfər** | 60,0 | 56,7 | 53,3 | 47,2 | 52,9 | 52,4 | 52,8 |

Mənbə: DSK

Avropa regionunda və MDB məkanında ilk dəfə olaraq reproduktiv sağlamlıq üzrə Azərbaycanlı mütəxəssisləri tərəfindən hazırlanmış və Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş "Reproduktiv sağlamlığa dair milli strategiya" (2008-2015) böyük əhəmiyyət kəsb etmişdir.

Ölkədə əhalinin reproduktiv sağlamlığının qorunması ilə bağlı məsələlərin müasir standartlar səviyyəsində təşkili məqsədilə "Reproduktiv sağlamlıq haqqında" qanun layihəsinin qəbulunun sürətləndirilməsi məqsədilə Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Milli Məclisə müraciət etmişdir.

Bununla yanaşı, hazırda bu sahədə qarşıya qoyulan vəzifələrin səmərəli icrasını təmin etmək məqsədilə 2017-2025 illər üçün "Azərbaycanda Reproduktiv Sağlamlıq Strategiyası"nın hazırlanması istiqamətində iş aparılmaqdadır.

**Əsas səhiyyə-sanitar xidmətlərilə əhatə dairəsi.** Cədvəl 6.19-da diri doğulanların sayı və stasionarda infeksion və parazitar xəstəliklərdən müalicə almış şəxslərin xüsusi çəkisi əks olunmuşdur. 2010-cu illə müqayisədə 2015-ci ildə ölkədə diri doğulanların sayı 0,3% artaraq 166210 nəfər olmuşdur. Eyni zamanda analoji dövr

üzrə infeksion və parazitar xəstəliklərdən müalicə alanların xüsusi çəkisi 4,4%-dən 4%-ə qədər azalmışdır. 2016-cı ildə bu göstərici 4,5%-ə qədər artmışdır.

**Cədvəl 6.19.** Diri doğulanların sayı və stasionarda infeksion va parazitar xəstəliklərdən müalicə almış şəxslərin xüsusi çəkisi

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|
| **Diri doğulanların sayı, nəfər** | 165643 | 176072 | 174469 | 172671 | 170503 | 166210 | 159464 |
| **Stasionarda infeksion va parazitar xəstəliklərdən müalicə almış şəxslərin xüsusi çəkisi, faizlə** | 4,4 | 4,3 | 4,0 | 4,2 | 4,3 | 4,0 | 4,5 |

**Tibbi sığorta.** Azərbaycan Respublikasında icbari tibbi sığorta pilot layihə olaraq Mingəçevir şəhəri və Yevlax rayonunun inzibati ərazilərində tətbiq olunur. İcbari tibbi sığorta çərçivəsində pilot ərazilərdə qeydiyyatda olan 228,1 min nəfər əhali (əhalinin 100 %-i) baza zərfinə daxil olan tibbi xidmətlərlə əhatə olunur. Gələcəkdə icbari tibbi sığortanın ölkə səviyyəsində tətbiqi zamam bütün əhalinin sığorta təminatına alınması əsas məqsəd olaraq qarşıya qoyulmuşdur.

**Tütündən istifadə.** Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin QİX ilə bağlı apardığı araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanda QİX-in böyük əksəriyyətinin baş verməsi tütündən istifadə, artıq çəki və qeyri-sağlam qidalanma kimi risk amilləri ilə bağlıdır. Ölkədə 2013 və 2014-cü illərdə yaşı 15-dən yuxarı şəxslər arasında tütün məmulatlarından istifadə səviyyəsi artaraq 18,4 və 18,2 % olsa da 2015-ci ildə azalaraq 17%-ə, 2016-cı ildə isə 16,2%-ə düşmüşdür (Cədvəl 6.20).

**Cədvəl 6.20.** Yaşı 15-dən yuxarı olan şəxslər arasında tütün məmulatlarından istifadənin yayılma səviyyəsi

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|
| **Yaşı 15-dən yuxarı olan şəxslər arasında tütün məmulatlarından istifadənin yayılma səviyyəsi, faizlə** | 17,0 | 16,7 | 16,5 | 18,4 | 18,2 | 17,0 | 16,2 |

Mənbə: DSK

Gözlənilir ki, QİX-ə qarşı mübarizə üzrə ÜST-nin tövsiyə etdiyi səmərəli tədbirlərin geniş tətbiqi ölkədə bu istiqamətdə nailiyyətlər əldə olunmasına töhfə verəcək. Bununla yanaşı, "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya"-da ölkədə 2014-cü illə müqayisədə 2020-ci ildə tütündən istifadənin 10% azaldılması qoyulan hədəflər arasındadır.

**Tibb işçilərinin sayı.** Hazırda ölkədə tibbi təhsil və kadr hazırlığı sistemlərinin islahatları səhiyyənin dünya standartları əsasında inkişafına xidmət edir. Ölkədə son illər ərzində bu sahədə müstəsna əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Bu baxımdan, çox vacib və mühüm məsələlərdən biri ölkədə istifadə olunan həkim ixtisaslarını dünyanın inkişaf etmiş ölkələrində qəbul olunmuş reyestrə və "Təhsil haqqında" Qanuna uyğunlaşdırmaqdır. Bununla bağlı Səhiyyə Nazirliyi tərəfindən müəssisələrdə istifadə olunan həkim ixtisaslarının yeni siyahısı hazırlanmışdır. Yeni siyahıya 40 ixtisas daxildir və bu ixtisaslara uyğun olaraq səhiyyə müəssisələrində çalışan mütəxəssislərin vəzifələrinin nomenklaturası təsdiq edilmişdir. Eyni zamanda, əhalinin tibbi kadrlarla və çarpayılarla təminatının say hədləri müəyyənləşdirilmişdir.

Hazırda səhiyyə sahəsində əhalinin hər 1000 nəfərinə 3,39 həkim, 5,73 orta tibbi işçiləri düşür (Şəkil 6.1). 2011-ci ilin yanvar ayından tibb işçilərinin bütün dünyada qəbul edilən sertifikasiyasının həyata keçirilməsinə başlanılmışdır.

**Şəkil 6.1.** Əhalinin hər 1000 nəfərinə düşən tibb işçilərinin dinamikası




Mənbə: DSK

Ölkədə, Azərbaycan Tibb Universiteti və Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu və 11 elmi-tədqiqat institutu və mərkəzləri də fəaliyyət göstərir.

**MƏQSƏD 5. Gender bərabərliyinə nail olmaq və bütün qadınların və qızların səlahiyyətlərini genişləndirmək**




5.1. Hər yerdə bütün qadın və qızlara qarşı bütün formalarda ayrı-seçkiliyə son qoymaq.
5.2. Dövlət və özəl sahələrdə bütün qadın və qızlara qarşı bütün formalarda zorakılığın, o cümlədən insan alveri və cinsi və digər növlərdə istismarın aradan qaldırılması.
5.3. Uşaq, erkən və məcburi nigah və qadınların cinsi zəmində alçaldılması kimi bütün zərərli halları aradan qaldırmaq.
5.4. İctimai xidmətlər göstərməklə, infrastruktur və sosial müdafiə siyasətləri və milli səviyyədə zərurət olduqda evdə və ailədə ümumi öhdəlikləri təşviq etməklə, ödənişsiz qayğı və işi nəzərə almaq və dəyərləndirmək.
5.5. Siyasi, iqtisadi və ictimai həyatda qərar qəbul etmənin bütün səviyyələrində qadınların tam və effektiv iştirakını və rəhbərlik üçün bərabər imkanları təmin etmək.
5.6. Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransın Fəaliyyət Proqramı və Pekin Fəaliyyət Platforması və digər nəzarət konfranslarının yekun sənədlərinə uyğun olaraq razılaşdırıldığı kimi, hamı üçün cinsi və reproduktiv sağlamlıq xidmətlərinə çıxış imkanını və reproduktiv hüquqları təmin etmək.
5.a. Milli qanunlara uyğun olaraq, qadınlara iqtisadi resurslara bərabər çıxış hüquqlarının, habelə torpaq və digər əmlak formaları üzərində sahiblik və nəzarət, maliyyə xidmətləri, miras və təbii resurslara çıxış imkanın verilməsi üçün islahatlar aparmaq.
5.b. Qadınların səlahiyyətlərinin genişləndirilməsini təşviq etmək üçün imkanlar yaradan texnologiyalardan, xüsusən də informasiya və kommunikasiya texnologiyalarından istifadəni genişləndirmək.
5.c. Gender bərabərliyinin təşviq olunması və bütün səviyyələrdə bütün qadınların və qızların səlahiyyətlərinin genişləndirilməsi üzrə güclü siyasətlər və qanunvericilik qəbul etmək və onları gücləndirmək.

Gender məsələsi, o cümlədən gender bərabərliyinin təmin olunması, dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da aktual problemlər sırasında durur. Gender bərabərliyinin əldə olunması və qadınların, qızların səlahiyyətləri və imkanlarının genişləndirilməsi dayanıqlı inkişaf üçün əsas amillərdir. Gender bərabərliyi həmçinin yoxsulluğun azaldılması, davamlı inkişafın təmin olunması və səmərəli idarəçiliyin qurulması üçün zəruri olan şərtlərdən biridir. Bu istiqamətdə Azərbaycanda həyata keçirilən siyasətin əsas hədəfi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün

formalarını aradan qaldırmaqla, kişi və qadınlara cəmiyyət həyatının siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanlar yaratmaqla gender bərabərliyinin təmin edilməsinə nail olmaqdır. Qadın hüquqlarının qorunması, onların ictimai-siyasi fəallığının artırılması, gender bərabərliyinin təşviqi xarici siyasətdə hər zaman önəm verilən məsələlərdən olmuşdur. 2017-ci ilin əvvəlinə olan məlumatlara əsasən, Azərbaycan əhalisinin 50,14%-ni qadınlar təşkil edir və onların məşğul əhalinin ümumi sayındakı xüsusi çəkisi 48,2 faizdir. Fərdi sahibkarlar arasında qadınların xüsusi çəkisi artaraq 20,9 % təşkil etmişdir. Ölkənin ümumi təhsil müəssisələrində müəllimlərin 78,1 faizi, orta ixtisas təhsil müəssisələrində 76,1 faizi, ali təhsil müəssisələrində 51,9 faizi, həkimlərin isə 64,9 faizi qadınlardır. Elmin inkişafında da qadınların müstəsna rolu vardır. Elmi işçilərin 56,0 faizini qadınlar təşkil edir. Son 5 ildə həm elmlər doktoru, həm də fəlsəfə doktoru elmi dərəcəsi olan qadınların sayı 2,0 dəfə artmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvlərindən 9-u, müxbir üzvlərindən isə 12-si qadındır.

2015-ci ildə Azərbaycan 0,326 gender bərabərsizliyi indeksi ilə188 ölkə arasında 68-ci yerdə qərarlaşmışdır. Bu göstərici 2013-cü ildə 0,340, 2014-cü ildə 0,303 olmuşdur. Qeyd edək ki, Gender Bərabərsizliyi İndeksi (Gender Inequality Index, GII) üç sahə - reproduktiv sağlamlıq, səlahiyyətlərin genişləndirilməsi (parlamentdə iştirak və təhsil səviyyəsi) və əmək bazarı göstəriciləri əsasında hesablanır. Bu vaxta qədər həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycanda orta və ali təhsil sahəsində gender bərabərliyinə nail olunmuşdur (15-24 yaşlı savadlı qadınların eyni yaşlı savadlı kişilərə nisbəti 100% təşkil edir). Bu bərabərliyin ölkədə baş verən çevik sosial-iqtisadi inkişaf zamanı qorunub saxlanılması Azərbaycan hökumətinin əsas prioritetlərindən biridir. Azərbaycanda bütün təhsil pillələri üzrə gender bərabərsizliyinin aradan qaldırılması üzrə əsaslı nailiyyətlər əldə olunmuşdur. Ümumi təhsil müəssisələrində şagirdlərin 46,5 faizi, ali təhsil müəssisələrinin tələbələrinin 48,3 faizi qızlardır. Orta-ixtisas təhsili müəssisələrində oxuyanlar arasında isə qızlar üstünlük (66,4%) təşkil edir.

**Cinsinə görə bərabərlik və qeyri-ayrı seçkiliyi təşviq və təmin edən tənzimləyici normativ-hüquqi bazaya** aşağıdakıları aid etmək olar:

- Azərbaycan Respublikasının Konstitusiyası, Ailə Məcəlləsi, Əmək Məcəlləsi, Cinayət Məcəlləsi, Mülki Məcəlləsi və İnzibati Xətalar Məcəlləsi;
- “Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 289 nömrəli Fərmanı;
- Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 9 avqust tarixli, 444 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə";
- "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının 2006-cı il 10 oktyabr tarixli 150-IIIQ nömrəli Qanunu, “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının 2010-cu il 22 iyun tarixli Qanunu;
- 1998-ci il 14 yanvar tarixli Fərmanı ilə gender siyasətinin həyata keçirilməsi məqsədilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. 1998-ci ildə yaradılmış “Qadın Problemləri üzrə Dövlət Komitəsi”nin səlahiyyətləri bazasında Azərbaycan Respublikası Prezidentinin 6 fevral 2006- cı il tarixli Fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır.

Eyni zamanda, Azərbaycan dövləti gender bərabərliyi sahəsində bütün əsas beynəlxalq sazişlərə, o cümlədən CEDAW konvensiyasına, Pekin Bəyannaməsi və Fəaliyyət Platformasına, Minilliyin Bəyannaməsi və Minilliyin İnkişaf Məqsədlərinə qoşulmuşdur.

BMT-nin İnkişaf Proqramı (BMTİP) tərəfindən qəbul olunmuş 2014-2017-ci illər üzrə Gender Bərabərliyi Strategiyasında gender bərabərliyinin inkişafına nail olmaq və qadınların səlahiyyətləndirilməsi məsələləri nəzərdə tutulmuşdur.

2011-ci ildə keçirilmiş Demoqrafiya və Sağlamlıq sorğusuna əsasən 15 və 18 yaşına qədər nikaha və ya ittifaqa girmiş 20-24 yaş həddində olan qadınların xüsusi çəkisi həmin ildə 1,9% təşkil etmişdir.

Ölkədə erkən nikah probleminin həlli məqsədilə Ailə Məcəlləsinə dəyişiklik edilərək qızların minimum nikah yaşı oğlanlarla bərabərləşdilərək 18 yaşa qaldırılmışdır. Bunun nəticəsidir ki, 2011-ci ildə ölkədə erkən nikahların sayı 5138 idisə, 2015-ci ildə bu göstərici 388-ə düşmüşdür.

**Ölkə parlamentində və yerli hakimiyyət orqanlarında qadınlar tərəfindən tutulan yerlərin xüsusi çəkisi.** Ölkə parlamentində qadınlar tərəfindən tutulan yerlərin xüsusi çəkisi 1990-cı ildə 4,3%, 2000-ci ildə isə 10,7% təşkil edirdisə, 2010-cu ildə 16%, 2015-ci ildə 16,8 %-ə çatmışdır. Milli Məclis sədrinin üç müavinindən biri, ölkənin ilk milli Ombudsmanı da qadındır. 2014-cü il dekabr ayında keçirilmiş sonuncu seçkilərdə 5236 nəfər qadın bələdiyyə üzvü seçilmişdir ki, bu da bütövlükdə bələdiyyə üzvlərinin təxminən 35 faizini (2004-cü ildə keçirilmiş ilk bələdiyyə seçkilərində 4 faiz) təşkil edir. 2016-cı ilin sonuna ölkə üzrə 87 yerli icra hakimiyyəti orqanında başçıların qadın müavinlərinin sayı 80 nəfər, ümumilikdə dövlət qulluğunda çalışanlar arasında qadınların xüsusi çəkisi isə 28,6% təşkil etmişdir. Hakim vəzifəsində çalışanlar arasında qadınların xüsusi çəkisi də müntəzəm olaraq artır. Belə ki, 2010-cu ildə bu göstərici 11,5% təşkil edirdisə, 2016-cı ildə 12,2%-ə yüksəlmişdir.

«2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı» nəzərdə tutulan əsas hədəflərdən biri kimi “2015-ci ilin sonunadək qərarların qəbul edilməsi prosesində qadınların iştirak səviyyəsinin yüksəldilməsini təmin etmək” qəbul edilmişdir. Hədəf əsasən mərkəzi icra strukturlarının rəhbərləri arasında, parlament üzvləri, bələdiyyə üzvləri, hakimlər arasında qadınların iştirak səviyyəsi artırılmasına yönəlmişdir. Qadın liderliyinin dəstəklənməsi istiqamətində həyata keçirilən tədbirlərin nəticəsi olaraq ölkədə qərar qəbuletmə səviyyəsində qadınların təmsilçiliyində müəyyən irəliləyişlər əldə edilmişdir. Lakin ölkədə qadınlar cəmiyyətin bütün sahələrində təmsil olunsalar da rəhbər vəzifələrdə onların sayı qənaətbəxş deyil. Qadınların əksəriyyət təşkil etdiyi sosial sahələrdə də rəhbər vəzifələrdə qadınların sayı azdır.

2010-2016-cı illər ərzində ölkədə 4-7-ci təsnifatlar üzrə dövlət qulluğunda rəhbər vəzifələrdə çalışanlar arasında qadınların xüsusi çəkisi 0,2 faiz bəndi artaraq 9,7%-dən 9,9%-ə yüksəlmişdir.

2015-ci il kənd təsərrüfatının siyahıya alınmasına dair məlumatlara görə, qadınların kənd təsərrüfatı işlərində çalışanların cəmi sayında xüsusi çəkisi 48,6% olmuşdur.

2015-ci il kənd təsərrüfatının siyahıya alınmasına dair məlumatlara görə fərdi sahibkar, ailə-kəndli və ev təsərrüfatlarında mülkiyyətində və (və ya) istifadəsində torpaqları olan təsərrüfat başçılarının ümumi sayında qadın təsərrüfat başçılarının xüsusi çəkisi 9,4% təşkil etmişdir.

2015-ci ildə ölkədə əhalinin hər 100 nəfərinə düşən mobil telefon abunəçilərinin sayı 112-yə, internet istifadəçilərinin sayı isə 77-yə yüksəlmişdir. Bu isə ölkədə qadınların da müasir informasiya cəmiyyətinə fəal qoşulması üçün geniş imkanlar yarandığını göstərir.

Ombudsman ölkədə qadın hüquqlarının daha səmərəli təyin edilməsi məqsədilə qadın hüquqları və gender bərabərliyi üzrə ixtisaslaşmış müşavirin təyin edilməsini, Bakı Dövlət Universitetinin hüquq fakültəsində və digər fakültələrdə "İnsan hüquqları" və "Genderə giriş" fənnlərinin tədrisini, Hüquq fakültəsinin magistratura pilbsində insan hüquqları üzrə kadr hazırlığının davam etdirilməsini təklif etmişdir.

***Gender məsələsi ilə bağlı hədəflər.*** Araşdırmalar göstərir ki, Azərbaycanda gender siyasəti sahəsində aktual məsələlərə aşağıdakıları aid etmək olar:

- Gender ekspertizasının keçirilməsi və ölkənin bütün dövlət strukturlarında qadınların təmsil olunma faizinin kişilərlə eyni səviyyədə olmasının təmin edilməsi;
- ölkədəd cəmiyyət həyatının bütün sahələrində qadınların müstəqilliyinin dərk edilməsinə əsaslanan yeni mexanizmlərin yaradılması;
- Heydər Əliyev Mərkəzlərinin nəzdində qadınların, bilik və bacarıqlarının inkişaf etdirilməsinə xidmət edən Qadın resurs Mərkəzlərinin yaradılması istiqamətində işlərin gücləndirilməsi;
- «Azərbaycan ailəsi Strategiyası»nın, "Gender bərabərliyi üzrə Milli Fəaliyyət Planı"nın, "Uşaq Məcəlləsi"nin və "Milli Uşaq Strategiyası"nın hazırlanması və qəbulu üzrə işlərin sürətləndirilməsi. Eyni zamanda, «Ailə psixoloqu» institutu, məişət zorakılığına məruz qalmış şəxslər üçün yardım mərkəzləri və sığınacaqlar, həmçinin ölkədə zorakılıq, təhsildən yayınma və erkən nigah halları üzrə monitorinq sisteminin yaradılması da işin xeyrinə olardı;
- Ölkədə "qadın sahibkarlığının inkişafı və stimullaşdırılması" da əsas hədəflərdən biridir. Bu istiqamətdə əsas problemlər qadınların biznes sahəsində biliklərinin məhdudluğu, onlar üçün informasiyanın lazımi səviyyədə əlçatan olmaması, maliyyə, infrastruktur çətinliklərinin olmasıdır. Hədəfə nail olmaq üçün əsasən regionlarda qadın sahibkarlara biznesin formalaşdırılmasında və idərə olunmasında dəstəyin göstərilməsi ilə bağlı tədbirlərin gücləndirilməsinə ehtiyac duyulur.

Qeyd olunanlarla yanaşı, aşağıdakı kimi konkret ***problemlərin*** aradan qaldırılması istiqamətində fəaliyyətlərin gücləndirilməsi də **təklif** olunur.

Cinsi mənsubiyyətə görə baş vermiş ayrı-seçkilik halları da daxil olmaqla, qadınlara qarşı zorakılığın bütün növlərinə, həmçinin məişət zorakılığına dair statistik məlumat bankının təşkili və etibarlı statistik qiymətləndirmə üçün müntəzəm olaraq məlumatların yığılması təmin edilməlidir (belə ki, qlobal, regional, milli və yerli səviyyədə inkişafın gedişatına aid göstəricilərin cinslər üzrə bölgüsü zəruridir, çünki bu cür gender statistikası bir çox hallarda ümumi statistikanın aydın açıqlamadığı problemləri nümayiş etdirir);

Azərbaycanın regionlarında qadınlar hələ də zorakılıq, siyasi və iqtisadi həyatdan sıxışdırılma, işəgötürmədə ayrı-seçkilik və peşə həyatı ilə şəxsi həyatın uzlaşdırılmasında çətinliklər səbəbindən kişilərlə eyni imkanlara malik deyillər. Kişilər və qadınlar arasında gender bərabərliyi haqqında maarifləndirilmə işlərinin aparılmasına ehtiyac var;

Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyə yol vermiş hüquqi və fiziki şəxslərə qarşı lazımi tədbirlərin görülməsinə, bu məqsədlə qanunvericilikdə müvafiq sahədə işlək mexanizmlərin formalaşdırılması məqsədəuyğundur;

Azərbaycanda il ərzində orta hesabla qadınlara qarşı məişət zorakılığı hallarının insan alveri hallarından 8-9 dəfə çox olduğunu və ağır fasadlara səbəb olduğunu, ailələri sarsıtdığını nəzərə alaraq bu problemə diqqətin artırılması, xüsusilə məişət zorakılığı qurbanları üçün dövlət yardım mərkəzinin yaradılması çox önəmlidir. Bu istiqamətdə məişət zorakılığından zərər çəkənlər üçün hərtərəfli və səmərəli müdafiə vasitələri yaradılsa da, məişət zorakılığının qarşısının alınması üzrə "Milli Fəaliyyət Planı"nın qəbul edilməsinə ehtiyac vardır;

Gender bərabərliyi sahəsində vəziyyəti öyrənmək məqsədilə müvafiq yerli strukturlarda, icmalarda, ailələrdə, idarə, müəssisə və təşkilatlarda araşdırma və monitorinqlərin aparılması və bunların əsasında yekun məruzənin hazırlanması da faydalı olardı;

Qadın siyasətçilər, sahibkarlar və müxtəlif qeyri-hökumət təşkilatlarında təmsil olunan qadınlardan ibarət "fəal qadınlar şəbəkəsi"nin yaradılması və onun gender

bərabərliyinin təmin edilməsinə dəstək istiqamətində təşkilatlandırılmasına da ehtiyac duyulur;

Digər bir problem 15-17 yaş həddində olan qız uşaqları tərəfindən uşaq dünyaya gətirilməsi hallarına səbəb olan erkən nikahlarla əlaqədardır. Gender bərabərliyinin əsas meyarlarından biri olan reproduktiv sağlamlıq baxımından bu məsələnin qarşısının alınması istiqamətində tədbirlərin gücləndirilməsi çox önəmlidir.

Azərbaycanda genderlə bağlı ən ciddi problemlərdən biri də Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın 20% torpaqlarının işğal olunması və ölkədə bir milyondan çox qaçqın və məcburi köçkünün məskunlaşması ilə əlaqədardır. Bunların əksər hissəsini evlərini, işlərini və ailə üzvlərini itirmiş qadınlar (400 mindən çox) və uşaqlar (300 mindən çox) təşkil edir. Məhz bunlar da bu işğalın ən çox əzabını çəkən qurbanlar sırasına daxildirlər. Odur ki, işğal olunmuş ərazilərin azad olunması və qaçqın və məcburi köçkünlərin öz daimi yaşayış yerlərinə təhlükəsiz şəraitdə qayıtmasının və layiqli yaşayışının təmin olunması qaçqın və məcburi köçkün qadınların pozulmuş hüquqlarının bərpası üçün çox vacibdir.

## MƏQSƏD 9. Möhkəm infrastruktur qurmaq, inklüziv və dayanıqlı sənayeləşdirməni təşviq etmək və innovasiyaları həvəsləndirmək




9.1. Hamı üçün əlçatan və bərabər çıxış imkanına diqqət yetirməklə, iqtisadi inkişafa və insan rifahına dəstək göstərmək məqsədilə, keyfiyyətli, etibarlı, dayanıqlı və möhkəm infrastrukturu, o cümlədən regional və transsərhəd infrastrukturu inkişaf etdirmək.
9.2. İnklüziv və dayanıqlı sənayeləşdirməni təşviq etmək və 2030-cu ilədək, milli şəraitlərə uyğun olaraq məşğulluqda və ümumi daxili məhsulda sənayenin payını xeyli yüksəltmək.
9.3. Xüsusən də inkişaf etməkdə olan ölkələrdə kiçik ölçülü sənaye və digər müəssisələrin maliyyə xidmətlərinə, o cümlədən əlçatan şəkildə kreditlərə çıxış imkanını artırmaq və onların dəyər şəbəkələrinə və bazarlara inteqrasiyası.
9.4. 2030-cu ilədək, resurslardan səmərəli istifadəni artırmaqla və təmiz və ekoloji baxımdan uyğun texnologiyaları daha geniş şəkildə qəbul etməklə, öz müvafiq imkanlarına uyğun tədbir görən bütün ölkələrlə, infrastrukturu yeniləmək və dayanıqlı etmək üçün sənayeləri müasirləşdirmək.
9.5. Bütün ölkələrdə, xüsusən də inkişaf etməkdə olan ölkələrdə elmi tədqiqatları genişləndirmək, sənaye sektorlarında texniki imkanları artırmaq, o cümlədən, 2030- cu ilədək, innovasiyaların həvəsləndirilməsi və hər 1 milyon insana nisbətdə tədqiqat və inkişafla məşğul olanların sayının və dövlət və özəl tədqiqat və inkişaf məsrəflərinin əhəmiyyətli şəkildə artırılması.
9.a. Afrika ölkələrinə, ən zəif inkişaf etmiş ölkələrə, dənizə çıxışı olmayan ölkələrə və kiçik adalarda yerləşən inkişaf etməkdə olan ölkələrə maliyyə, texnoloji və texniki dəstəyi artırmaqla inkişaf etməkdə olan ölkələrdə dayanıqlı və möhkəm infrastrukturun qurulmasına kömək etmək.
9.b. Digər vasitələrlə yanaşı sənayedə şaxələndirmə və mallara əlavə dəyər vermək üçün əlverişli siyasət mühitini təmin etməklə, inkişaf etməkdə olan ölkələrin daxilində texnologiyaların inkişafına, tədqiqatlara və innovasiyalara dəstək göstərmək.
9.c. 2020-ci ilədək ən zəif inkişaf etmiş ölkələrdə informasiya və kommunikasiya texnologiyalarının əldə edilməsi imkanların əhəmiyyətli dərəcədə genişləndirilməsi habelə İnternetə ümumi və hamı üçün əlçatan çıxış imkanlarını təmin etmək.

**Milli xüsusiyyətlər.** İnfrastruktur, sənayeləşmə və innovasiyanın inkişafına yönəldilən investisiyaların səmərəliliyi iqtisadi artımın, sosial inkişafın və ekoloji təhlükəsizliyin təminatıdır. Bu məqsəd üzrə əsas infrastruktur vahidlərinə yollar, informasiya və kommunikasiya texnologiyaları, təmiz içməli su və elektrik enerjisi təchizatı aiddir. Azərbaycanda ***infrastrukturun yaxşılaşdırılması*** istiqamətində mühüm addımlar atılmışdır. Uzun müddət ərzində dövlət büdcəsindən infrastrukturun yaxşılaşıdırılmasına yönəldilən xərclərin artması hesabına əsas infrastruktur sahələri, xüsusən nəqliyyat infrastrukturu dinamik inkişaf etmişdir. Bunun nəticəsidir ki, hazırda Azərbaycanın 19 min km avtomobil yolu, 2446 km dəmiryol xətti, 5355 km magistral boru kəməri olan inkişaf etmiş nəqliyyat sistemi var. Ümumi nəqliyyat üzrə 2010-cu illə müqayisədə 2016-cı ildə yükdaşımaların həcmi 1,1 dəfə, sərnişin daşımaların həcmi 1,4

dəfə artmışdır. Yükdaşımalar üzrə avtomobil nəqliyyatının, sərnişin daşımalar üzrə isə hava nəqliyyatının daha çox artımı səciyyəvidir.

_Ölkədə infrastrukturun informasiya və kommunikasiya texnologiyalarının tətbiqi ilə inkişaf etdirildiyi, xidmətlərin "bir pəncərə" prinsipi əsasında vətəndaşlara təqdimini həyata keçirən "ASAN xidmət" mərkəzləri, "ASAN ödəniş" sistemi, "ASAN Kommunal" mərkəzi, " ASAN Viza" sistemi və "ASAN qatar" xidmətləri istifadəyə verilmişdir.

Həmin qurumlar üzrə təqdim edilmiş xidmətlərin həcmi Cədvəl 6.21-də təsvir olunmuşdur (2017-ci il 26 aprel tarixinədək).

**Cədvəl 6.21.** "ASAN" xidmət şəbəkəsi ilə təqdim olunan xidmətlərin həcmi

| Xidmət növü | Məlumatların təqdim edildiyi müddət aralığı | Say |
|---|---|---|
| **"ASAN xidmət" mərkəzləri üzrə** | 2013-2017 | 14 947 648 müraciət |
| **"ASAN ödəniş" portalı üzrə** | 2015-2017 | 160 584 ödəniş |
| **"ASAN Kommunal" üzrə** | 2017 | 18 414 müraciət |
| **"ASAN Viza" üzrə** | 2017 | 52 634 viza |
| **"ASAN qatar" üzrə** | 2017 | 15 481 müraciət |

Ölkə sənayesində mədənçıxarma sənayesilə yanaşı ***emal sənayesi*** də inkişaf etdirilir. 2016-cı ildə emal sənayesində yaradılmış əlavə dəyərin xüsusi çəkisi ÜDM-in 5,2 faizini, sənayenin bu sahəsində çalışanların məşğul əhalinin ümumi sayında xüsusi çəkisi isə 5,1 faiz təşkil etmişdir. Emal sənayesində yaradılmış əlavə dəyər son 7 ildə 1,3 dəfə artmış və onun əhalinin hər nəfərinə düşən həcmi 323,6 manata çatmışdır.

Lakin təhlil göstərir ki, emal sənayesində **məşğulluğun səviyyəsi** o qədər də artmayıb. Bunu sahədə **kiçik müəssisələrin** zəif inkişafı ilə əlaqələndirmək olar. Məlumdur ki, sənayenin inkişafında və ölkədə məşğulluğuq səviyyəsinin artırılmasında kiçik müəssisələr əhəmiyyətli rol oynayır.. 2010-2016-cı illər üzrə statistik məlumatlar göstərir ki, ölkədə sənayenin xalis məhsulunda kiçik müəssisələrin xüsusi çəkisi 2,2%-dən çox deyil. 2016-cı ildə sənayenin xalis məhsulunda kiçik müəssisələrin payı 2,1% təşkil etmişdir.

Təhlil göstərir ki, emal sənayesinin orta və yüksək texnoloji sahələrində yaradılan əlavə dəyərin sənayenin bu bölməsində ümumilikdə istehsal olunan əlavə dəyərdə xüsusi çəkisi ildən-ilə artır.Ölkə üzrə bu göstərici 2016-cı ildə 18,5 faizdir. Qeyd edək ki, bu göstərici 2010-cu ildə 9,1%, 2012-ci ildə 10,5% və 2014-cü ildə 13,7% olmuşdur. Hazırda göstəricinin artan səviyyəsi texnoloji inkişafın dəstəklənməsilə əlaqədardır.

DİM-lər davamlı inkişaf şərtləri daxilində dayanıqlı inkişafı hədəfləyir. Davamlı inkişafın əsas tərkib hissələrindən olan ekoloji mühitin qorunması hədəfi sənayedə texnologiyaları inkişaf etdirərkən ekoloji təmizliyin təmin edilməsinin vacibliyini göstərir. Bu zaman əsas qiymətləndirmə göstəricisi $CO_2$ emissiyasının azalmasına nail olmaqdır. Azərbaycanda $CO_2$ emissiyası hər vahid (dollar qiymətində) əlavə dəyərə 0,3 kq təşkil edir. Dünya Bankının 2003-2014-cü illər üzrə təqdim etdiyi statistikaya əsasən, emal sənayesi və tikintidən $CO_2$ emissiyası artmaqdadır. Azərbaycanda emal sənayesi və tikintidən $CO_2$ emissiyasının ümumi yanacaq tullantısında xüsusi çəkisi 2010-cu ildə 6,2%-dən 2014-cü ildə 7,5%-ə qədər artmışdır. Dünya üzrə 2014-cü ildə bu göstərici 19,9% olmaqla əvvəlki illərlə müqayisədə artandır. Bununla əlaqədar, yaşıl texnologiyalara keçid, alternativ enerji mənbələrinin səmərəli istifadəsi istiqamətində işlərə başlanmışdır. Azərbaycanda artan $CO_2$ emissiyasının azaldılmasını nəzərdə tutan bu məqsəd üzrə hədəflərin icrası prosesinə Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi fəal iştirak edir. Ölkə $CO_2$ emissiyasını azaltmaqla onun əlavə dəyərin hər vahidinə düşən həcmini də azaltmış olur.

**ETTKİ (elmi-tədqiqat və təcrübə-konstruktor işləri)-yə çəkilən xərclər.** Mütərəqqi dünya təcrübəsi göstərir ki, həm infrastrukturun, həm də sənayenin inkişafı innovasiyaların inkişafı ilə sıx əlaqədardır. İnnovasiyaların inkişafı isə, tədqiqat və işləmələrə çəkilən xərclərin təzahürüdür. Cədvəl 6.22-də əks olunan məlumatlar göstərir ki, ölkə üzrə dövlət büdcəsindən tədqiqat və işləmələrə ayrılan xərclər ÜDM-in 0,2%-ini təşkil edir və son 6 ildə bu göstərici dəyişməz qalmışdır.

**Cədvəl 6.22.** Elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə çəkilən xərclər

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|
| **Xərc(mln. manat)** | 92,8 | 109,8 | 117,3 | 122 | 123,8 | 120,9 |
| **ÜDM-də xüsusi çəkisi, faizlə** | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,2 |

**Mənbə:** DSK

**Tədqiqatçıların sayı.** Ölkədə elmi-tədqiqat işləri ilə məşğul olan tədqiqatçıların sayı, əhalinin hər 1 000 000 nəfərinə nisbətdə Cədvəl 6.23-də göstərilmişdir.

**Cədvəl 6.23.** Əhalinin hər 1 000 000 nəfərinə tədqiqatçıların sayı

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|
| **Əhalinin 1000 000 nəfərinə tədqiqatçıların sayı** | 1228,0 | 1305,0 | 1660,0 | 1687 | 1725,0 | 1683,0 | 1623,0 |

Mənbə: DSK

Əhalinin hər 1 000 000 nəfərinə 2015-ci ildə 1683 nəfər tədqiqatçı düşmüşdür ki, bu da 2010-ci illə (1228) müqayisədə 37% çoxdur. 2016-cı ildə isə müvafiq göstərici 1623 nəfər olmuşdur.

İnnovasiya yönümlü inkişafın əsas göstəricilərindən biri də mobil şəbəkə ilə əhatə edilən əhalinin xüsusi çəkisidir. 2015-ci ildə əhalinin 99,9%-i mobil şəbəkə ilə əhatə edilmişdir.

Hazırda ölkədə sənayeləşmənin, innovasiyaların və infrastrukturun inkişafı istiqamətində hədəflərə nail olmaq üçün dövlətin iqtisadi siyasəti davam etdirilir. Emal sənayesində yaradılan xalis məhsulun və məşğulluğun artırılması məqsədilə çoxsaylı proqramlar işlənməkdədir. Bunlara: "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"; "Azərbaycan Respublikası Regionlarının 2014-2018-ci illərdə Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı"; "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi"; "Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi"; "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi", həmçinin, kiçik ölçülü sənaye və digər müəssisələrin maliyyə xidmətlərinə, o cümlədən əlçatan şəkildə kreditlərə çıxış imkanını artırmaq məqsədi daşıyan "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi" aiddir.

Həmçinin, ölkədə yenidən sənayeləşmənin müasir çağırışlara uyğun qurulması üçün sənaye parkları, sənaye məhəllələri, texnologiya parklarına rezidentlərin cəlb edilməklə, innovasiyaların tətbiqi və işlənməsi müxtəlif güzəştlərlə (vergi, gömrük və digər) stimullaşdırılır. Hazırda ölkədə Sumqayıt Kimya Sənaye Parkı, Balaxanı Sənaye Parkı, Mingəçevir Sənaye Parkı, Qaradağ Sənaye Parkı, Pirallahı Sənaye Parkı, Neftçala Sənaye Məhəlləsi və Masallı Sənaye Məhəlləsi fəaliyyət göstərir.

**Beynəlxalq tərəfdaşların dəstəyi.** Sənayenin inkişafını sürətləndirmək məqsədilə Avropa İttifaqının "Azərbaycanda sənaye sektorunun və İqtisadiyyat Nazirliyinin Sənaye şöbəsinin inkişafına dəstək" adlı Texniki yardım layihəsi həyata keçirilmişdir(2016-cı ildə icrası bitmişdir). Hazırda Avropa İttifaqının "Azərbaycanda iqtisadiyyatın qeyri-neft sektorunun rəqabət qabiliyyətliliyinin artırılması" adlı Texniki

yardım layihəsi tender mərhələsindədir. Həmçinin, Avropa İttifaqının büdcəyə dəstək mexanizmi vasitəsi ilə həyata keçirilən “Regionların inkişafına dəstək qrant proqramı” çərçivəsində “Xüsusi iqtisadi zonaların inkişafına dəstək” layihəsi üzrə AMEA “YT Park”ın fəaliyyət istiqamətləri üzrə məsləhət xidmətlərinin göstərilməsi nəzərdə tutulmuşdur. Avropa İttifaqının TAIEX aləti çərçivəsində yardım göstərilməsi üçün AMEA tərəfindən aidiyyəti üzrə müraciət edilmişdir. Hazırda, YT Parkın institusional inkişafı üçün Avropa İttifaqının Qonşuluq İnvestisiya Aləti (NIF) və Kiçik və Orta Sahibkarlıq Müəssisələrinin Rəqabətliliyi (COSME) proqramlarından bəhrələnməsi imkanları araşdırılır.

**Problemlər və həll yolları.** Bu DİM üzrə müəyyən edilmiş hədəflərə nail olmaq üçün ölkə üzrə emal sənayesi və innovasiyaların inkişafının sürətləndirilməsinə ehtiyac duyulur. Bu zaman nəzərə almaq vacibdir ki, sənayenin inkişafı ekoloji mühitin qorunması ilə təmin edilməlidir. 9-cu Məqsəd üzrə seçilmiş hədəflərə nail olunması müxtəlif institutsional vahidlərin birgə və qarşılıqlı fəaliyyətni nəzərdə tutur. Bu məqsədlə Azərbaycanda İqtisadiyyat Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində “ASAN xidmət” mərkəzi, Azərbaycan Milli Elmlər Akademiyası, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi müvafiq hədəflərə nail olmaq üçün görülən işlərə cəlb edilmiş və hazırda bu istiqamətdə əməli fəaliyyətə başlanılmışdır. Ümumilikdə ölkədə innovasiya fəallığının yüksəldilməsinə də ehtiyac duyulur.

## MƏQSƏD 14. Dayanıqlı inkişaf üçün okeanları, dənizləri və dəniz resurslarını qorumaq və onlardan dayanıqlı şəkildə istifadə etmək




14.1. 2025-ci ilədək, bütün növlərdə, xüsusən də yerüstü fəaliyyət nəticəsində, o cümlədən tullantıların dənizə axıdılması və qida məhsullarından çirklənmə nəticəsində dənizin çirklənməsi hallarının qarşısını almaq və bu halları əhəmiyyətli dərəcədə azaltmaq.
14.2. 2020-ci ilədək, başqa vasitələrlə yanaşı dayanıqlığı artırmaqla, ciddi mənfi təsirlərdən yayınmaq üçün dəniz və sahilyanı ekosistemləri dayanıqlı şəkildə idarə etmək və qorumaq və təmiz və məhsuldar okeanlara nail olmaq məqsədilə onların bərpası üçün tədbir görmək.
14.3. Digər vasitələrlə yanaşı, elmi əməkdaşlığı genişləndirməklə okeanların turşulaşmasının təsirlərini minimuma endirmək və bu təsirlərin qarşısını almaq.
14.4. 2020-ci ilədək, məhsul yığımını effektiv şəkildə tənzimləmək və həddən artıq balıq tutma, qanunsuz, məlumat vermədən və tənzimlənməyən şəkildə balıq ovu və ziyanlı şəkildə balıq ovu hallarına son qoymaq və mümkün olan ən qısa müddətdə, onların bioloji xüsusiyyətlərinə görə müəyyənləşdirilən maksimum dayanıqlı məhsul verə bilən səviyyələrə qədər balıq ehtiyatlarını bərpa etmək üçün elmi əsaslı idarəçilik planlarını həyata keçirmək.
14.5. 2020-ci ilədək, milli və beynəlxalq qanunvericiliyə uyğun olaraq və mövcud olan ən qabaqcıl elmi məlumat əsasında, sahilyanı və dəniz ərazilərin ən azı 10%-ini qoruyub saxlamaq.
14.6. 2020-ci ilədək, inkişaf etməkdə olan və ən zəif inkişaf etmiş ölkələr üçün uyğun və effektiv xüsusi və fərqli rejimin Ümumdünya Ticarət Təşkilatı çərçivəsində balıqçılığa subsidiyaların ayrılmasına dair danışıqların tərkib hissəsi olmalı olduğunu etiraf edərək, balıqçılığa, imkanlardan artıq və hədsiz balıq ovuna şərait yaradan müəyyən formalarda subsidiyaları qadağan etmək, qanunsuz, məlumat verilmədən və tənzimlənməyən şəkildə balıq ovuna şərait yaradan subsidiyaları aradan qaldırmaq və bu cür yeni subsidiyaları tətbiq etməkdən çəkinmək ( Ümumdünya Ticarət Təşkilatının cari danışıqlarını, Doha İnkişaf Proqramını və Honq Konq nazirlər mandatını nəzərə alaraq)
14.7. 2030-cu ilədək, digər vasitələrlə yanaşı balıqçılıq təsərrüfatları, akvamədəniyyət və turizmin dayanıqlı şəkildə idarə olunması ilə dəniz ehtiyatlarından dayanıqlı istifadənin kiçik adalarda yerləşən inkişaf etməkdə olan ölkələr və ən zəif inkişaf etmiş ölkələr üçün iqtisadi faydalarını artırmaq.
14.a. Okeanların təmizliyini artırmaq və inkişaf etməkdə olan ölkələrin, xüsusən də kiçik adalarda yerləşən inkişaf etməkdə olan ölkələrin və ən zəif inkişaf etmiş ölkələrin inkişafına dəniz biomüxtəlifliyinin köməyini artırmaq məqsədilə, Hökumətlərarası Okeanoqrafiya Komissiyasının Meyarlarını və Dəniz Texnologiyalarının Ötürülməsi üzrə Rəhbər Prinsipləri nəzərə alaraq, elmi bilikləri artırmaq, tədqiqat aparma potensialını inkişaf etdirmək və dəniz texnologiyalarını ötürmək.

14.b. Xırda peşəkar balıqçıların dəniz resurslarına və bazarlara çıxış imkanını təmin etmək.
14.c. "Bizim İstədiyimiz Gələcək" adlı sənədin 158-ci maddəsində bir daha qeyd olunmaqla, okeanların və onların ehtiyatlarının qorunması və onlardan dayanıqlı istifadə üçün hüquqi çərçivəni təmin edən BMT-nin Dəniz hüququ üzrə Konvensiyasında (UNCLOS) əks olunduğu kimi, beynəlxalq hüququ tətbiq etməklə okeanların və onların ehtiyatlarının qorunmasını və onlardan dayanıqlı istifadəni artırmaq.

**Ölkə üçün əhəmiyyəti.** Hazırkı mərhələdə bəşəriyyətin üzləşdiyi və hər bir ölkənin ictimai və iqtisadi həyatına güclü təsir göstərən məsələlərdən biri də bütövlükdə dünya miqyasında illər boyu sürətlənən sənayeləşmə nəticəsində ekoloji tarazlığın pozulmasıdır. Bütün bunlar isə ölkənin iqtisadi və sosial həyatına birbaşa təsir edir və bu səbəbdən müvafiq siyasət tədbirlərinin işlənilib hazırlanmasında nəzərə alınması zəruri olan amillərdir.

Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Sazişinə qoşulmuş və karbon emissiyasının miqdarının baza ili ilə müqayisədə 2030-cu ilədək 35%, azaltmaq məqsədini qəbul etmişdir[1].

Okeanlar, onların temperaturu, kimyəvi tərkibi, axını suda yaşayan canlılar və insan həyatı üçün mühüm əhəmiyyət kəsb edir. 3 milyarddan çox insanın həyatı bilavasitə dəniz və sahilboyu bio-müxtəliflikdən asılıdır. Amma bu gün biz dünya dəniz ehtiyatlarının dördə üç hissəsinin aşırı istismar olunduğunu görürük. Okeanlar insanların istehsal etdiyi karbon qazının 30%-ə qədərini udur. Amma biz əvvəlki dövlərlə müqayisədə daha çox karbon qazı istehsal edirik. Belə ki, sənaye inqilabının başlamasından bəri, okeanlar 26% daha çox turşulaşıb. Eyni zamanda, bizim tulladığımız zibillər də buna əlavə olunur – okeanın hər kvadrat kilometrinə 13000 plastik zibil parçası düşür [28].

Dünya səviyyəsində qeyd olunan problem və təhlükələrin aradan qaldırılması istiqamətində səyləri artırmaq məqsədilə DİM-lər suyun altındakı həyatı idarə etmək və qorumaq üçün hədəfləri göstərir.

Azərbaycan Respublikası çaylar, su hövzələri ilə zəngin olmaqla yanaşı, Xəzər dənizi ilə həmsərhəddir. Bu baxımdan da, DİM-də göstərilən bu məqsəd Azərbaycan üçün də xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycanın ümumilikdə 2020-ci ilə kimi prioritet istiqamətlərini müəyyən edən "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasına əsasən, ekoloji təhlükəsizliyin təmin olunması üçün ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və mühafizəsinin təkmilləşdirilməsi, indiki və gələcək nəsillərin tələbatını ödəmək məqsədilə təbii sərvətlərdən səmərəli istifadə, alternativ enerji mənbələrindən yararlanmaq və enerji effektivliyinə nail olmaq, qlobal ekoloji problemlərin milli səviyyədə həlli yollarının müəyyənləşdirilməsi, beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi dövlətin ekoloji siyasətinin əsas istiqamətləri kimi götürülüb. Konsepsiyada müasir dövrümüzün əsas çağırışları kimi göstərilən istiqamətlərdən biri də məhz ekoloji problemlər, əsasən də Abşeron yarımadasında və Xəzər dənizində ekoloji vəziyyət, şirin su ehtiyatlarının əldə olunması və təhlükəsizliyidir. Yerli və regional kontekstdə Azərbaycan üçün ekoloji problemlər, əsasən Abşeron yarımadasında və Xəzər dənizində ekoloji nəticələr nəzərə alınmadan qeyri-təkmil üsullarla onilliklər ərzində aparılmış neft hasilatı ilə bağlıdır. Azərbaycanın şirin su ehtiyatlarının böyük həcminin qonşu ölkələrdə formalaşması və bu ölkələrin ərazilərində kimyəvi, radioaktiv və digər zərərli maddələrlə intensiv çirklənməyə məruz qalması əhalinin içməli su ilə təmin olunmasında problemlər yaradır.

Hazırda FAO tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyinə balıqçılıq təsərrüfatının inkişafı üçün Milli strategiyanın hazırlanmasına dəstək göstərilir. Milli strategiyanın əsas məqsədləri balıqçılıq təsərrüfatında rəqabətliliyin, istehsalın və məhsuldarlılığın artırılması və həmçinin akvakultura sektorunun davamlı artımı və inkişafıdır.

[1] http://www4.unfccc.int/ndcregistry/PublishedDocuments/Azerbaijan%20First/INDC%20Azerbaijan.pdf

2016-cı ildə "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017–2020-ci illər üçün Milli Strategiya" təsdiq edilib. Adıçəkilən Milli Strategiya bu sahədə islahatların aparılmasına təkan verməklə yanaşı, bioloji müxtəliflik və ümumiyyətlə ətraf mühitin mühafizəsi üzrə proqram fəaliyyətlərində beynəlxalq təşkilatlar və hökumətlər arasında əməkdaşlığın artırılmasına müsbət təsir göstərəcək.

2014-cü ildə Rusiyanın Həştərxan şəhərində keçirilmiş Xəzəryanı ölkələrin dövlət başçılarının 4-cü Sammitində "Xəzər dənizinin su bioloji resurslarının mühafizəsi və səmərəli istifadəsi haqqında Saziş" imzalanmışdır. Saziş bütün Xəzəryanı ölkələri tərəfindən ratifikasiya edilərək 26 may 2016-cı il tarixində qüvvəyə minib. Xəzər dənizinin su bioloji resurslarının mühafizəsi və səmərəli istifadəsi haqda Sazişi Xəzər dənizində balıq ehtiyatlarının birgə idarə olunması, qanunsuz balıq ovuna qarşı mübarizə və su bioresursların artırılması üzrə tədbirlərin həyata keçirilməsi sahəsində əməkdaşlıq prinsiplərini müəyyən edir.

**Xırda peşəkar balıqçıların dəniz resurslarına və bazarlara çıxış imkanını təmin etmək.** Azərbaycanda balıqçılıq üzrə mövcud hüquqi və siyasət çərçivəsi sürətlə inkişaf edən akvakultura sektorunu əhatə etmir. Buna görə də sektorun gələcək hüquqi və siyasət çərçivəsinin beynəlxalq standartlara, qabaqcıl təcrübəyə uyğunluğunun təmin edilməsi üçün 2011-ci ilin əvvəlindən başlayaraq FAO ilə əməkdaşlıq aparılır. FAO-nun texniki dəstəyi ilə hazırlanan təkmilləşdirilmiş "Balıqçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib (2014-cü ilin 27 iyun tarixli). Bu Qanun Azərbaycan Respublikasında balıqçılığın təşkilinin, idarə edilməsinin və balıq ehtiyatlarının artırılmasının, istifadəsinin və mühafizəsinin hüquqi əsaslarını müəyyən edir. Akvakultura sahəsinin davamlı inkişafı Azərbaycanın kənd ərazilərində yeni iş yerlərinin və alternativ gəlir mənbələrinin yaranmasına səbəb olan, ölkə əhalisinin sosial vəziyyətinə və sağlamlığına, ərzaq təhlükəsizliyi məsələlərinin həllinə müsbət təsir göstərə bilər. Eyni zamanda, "Balıqçılıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 27 iyun tarixli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 avqust tarixli 243 nömrəli Fərmanının 1.5-ci bəndinin icrası məqsədi ilə Akvakulturanın həyata keçirilməsi Qaydası hazırlanmış və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təsdiq edilmək üçün təqdim edilmişdir. Bu qaydalarda akvakulturanın istiqamətləri və növləri, akvakultura infrastrukturunun yaradılması və istifadəsi, su obyektlərindən akvakultura məqsədləri üçün istifadə şərtləri, akvakultura ilə məşğul olmaq üçün lazım olan bioloji və texnoloji əsaslandırmanın hazırlanmasının şərtləri və nümunəvi forması, qeydiyyatı, akvakultura sahəsində uçot və hesabatlılıq, akvakulturaya dövlət nəzarəti kimi vacib məsələlər şərh edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 24 sentyabr tarixli, 152 nömrəli qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında balıq ehtiyatlarınının mühafizəsi və balıq ovu qaydalarına əsasən balıq ovu aşağıdakı məqsədlərlə həyata keçirilir: sənaye, həvəskarlıq və idman; elmi-tədqiqat, balıqartırma və nəzarət; təbii mühitə uyğunlaşdırma və köçürmə.

Qeyd olunan fəaliyyətlərin tənzimlənməsi ilə bağlı aşağıdakı kimi bir sıra hüquqi-normativ sənədlər qəbul olunmuşdur və hazırda bu proses davam etdirilir. Belə ki, mütərəqqi beynəlxalq təcrübələr öyrənilir və onlar əsasında yeni qanunlar, strategiya və proqramlar hazırlanır:

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 6 sentyabr tarixli 146 nömrəli qərarı təsdiq edilmiş "Balıqçılıq su obyektlərinə zərərli təsirin yol verilən normaları" Azərbaycan Respublikası Su Məcəlləsi və "Balıqçılıq haqqında" Azərbaycan Respublikası Qanununa əsasən tərtib edilmiş və balıqçılıq su obyektlərinə aid olan yerüstü su axınları və su tutarları, habelə Xəzər dənizinin Azərbaycan Respublikasına

mənsub olan bölməsinin tullantı və tullantı suları ilə çirklənməsinin qarşısının alınması məqsədini daşıyır.

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 8 may tarixli, 82 nömrəli qərarı ilə təsdiq edilmiş Balıqçılıq və ovçuluq təsərrüfatlarının ehtiyacları üçün su obyektlərindən istifadə qaydaları - Bu Qaydalar Azərbaycan Respublikasının Su Məcəlləsinə və "Azərbaycan Respublikasının 1997-ci il 26 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Su Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 mart tarixli, 685 nömrəli Fərmanına əsasən hazırlanmışdır və balıqçılıq, o cümlədən akvakultura və ovçuluq təsərrüfatlarının ehtiyacları üçün su obyektlərindən istifadə qaydalarını müəyyən edir. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş balıqçılıq su obyektləri və ovçuluq obyektinə aid edilən su quşlarının və qiymətli xəzdərili heyvanların məskunlaşdığı su hövzələri balıqçılıq və ovçuluq təsərrüfatlarının ehtiyacları üçün istifadə oluna bilər.
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 9 noyabr tarixli 206 nömrəli qərarı ilə təsdiq edilmiş Nərə cinsli balıq ehtiyatlarının istifadəsi və dövriyyəsinin tənzimlənməsi qaydaları Azərbaycan Respublikasında nərə cinsli balıq ehtiyatlarının qorunub saxlanılması, istifadəsi və dövriyyəsinin dövlət tərəfindən idarə edilməsinin təkmilləşdirilməsini və bu sahədə elmi tədqiqat işlərinin aparılmasının hüquqi əsaslarını müəyyən edir.

ETSN-in məlumatına görə, XX əsrin ortalarından başlayaraq Xəzər dənizinin və Kür çayının unikal ixtiofaunasında bir sıra antropogen və təbii amillərin (qlobal iqlim dəyişiklikləri, dəniz səviyyəsinin tərəddüdü, çay axınının ekoloji cəhətdən yol verilən həddən artıq tənzimlənməsi, kimyəvi və bioloji çirklənmə, qanunsuz balıq ovu və s.) birgə təsiri nəticəsində böyük dəyişikliklər baş vermişdir. Bir çox qiymətli vətəgə əhəmiyyətli balıqların - nərəkimilərin (Acipenseridae), qızılbalıqkimilərin (Salmonidae), kilkələrin (Clupeonella), çəkikimilərin (Cyprinidae) ehtiyatının və ovunun azalması (bəzi növlərdə kəskin) müşahidə olunur. Azərbaycan Respublikasında çəki cinsli balıqların sənaye ovu həm Xəzər dənizində, həm də Kür çayında aparılır. Ölkəmizdə çəkikimilərin ovunun maksimal göstəriciləri XX əsrin 30-cu illərində qeydə alınmışdır (1931-1935-ci illərdə orta hesabla 28,5 min ton). Sonrakı illərdə onların ov miqdarı (həm Xəzərdə, həm də dənizin Azərbaycana aid sularında) dəfələrlə azalmışdır. Son illərdə (2010-2016-ci illər) çəkikimillərin Kür çayında ov miqdarı 60-85,9 ton arasında, Xəzər dənizinin Azərbaycan akvatoriyasında isə 102,3-155,5 ton arasında tərəddüd etmişdir. Hazırda Xəzər dənizinin Azərbaycan sektorunda çəkikimi balıq ovunda artım meyli nəzərə çarpır. Kür çayında və Xəzər dənizinin Azərbaycan sektorunda sənaye balıq ovunda 20-dən artıq növ qeydə alınır. 2010-2016-ci illərdə Kür çayında aparılan vətəgə ovunda 8 növ, Xəzər dənizinin Azərbaycan sularında isə 9 növ çəki cinsli balıq ovlanmışdır (2 növ dabanbalığı Carassius carassius və Carassius gibelio statistikada bir növ kimi qeydə alınır). Kür çayında ovlanan çəkikimilərin əksəriyyətini çapaq (Abramis brama) təşkil etmiş, müxtəlif illərdə ümumi çəki cinsli balıq ovunda miqdarı 39-71% arasında dəyişmişdir. Dənizdə aparılan sənaye balıq ovunda isə kütüm (Rutilus frisii kutum) üstünlük təşkil edir (40-84%). Çəki cinsli balıqların vətəgə ovunda ikinci yeri külmə (Rutilus caspicus) tutur. Kür çayında bu balığın ov miqdarı 14-23 %, Xəzər dənizində isə 12-32 % arasında tərəddüd etmişdir. Son illərdə respublikanın ixtiofaunası üçün invaziv (gətirilmə) növlər olan dabanbalıqlarının sayının ovda artması qeydə alınır. Bu balıqların ayrı-ayrı illərdə Kür çayında ovlanan çəkikimilərin 14,8%-ə qədərini təşkil edir. Kür çayında ovlanan balıqlar içərisində çəkinin (Cyprinus carpio) və şəmayinin (Alburnus chalcoides) miqdarı 1-12 % arasında dəyişilir. Xəzərin Azərbaycan sektorunda aparılan vətəgə balıq ovunda çəkinin ov miqdarı 1-17 % arasında dəyişir. Dənizdə aparılan balıq ovundakı əhəmiyyətinə görə sonrakı yerlər çapaq və qarasolun (Vimba vimba) payına düşür. Sənaye balıq ovunda həşəmin (Aspius aspius) və qalınalının (Hypophthalmichthys) ov miqdarı çox da yüksək deyildir.

Son onillikdə antropogen və təbii amillərin təsiri Xəzər dənizi ekosisteminin deqradasiyasına gətirib çıxarmışdır. Xəzər dənizində ümumi balıq ovunun azalması birbaşa kilkə balıqlarının ovunun azalması ilə əlaqədardır. Xəzər dənizində ovlanan balıqların 80-85%-ni kilkələr təşkil etmişdir. XX əsrin sonlarında Qara dənizdən Xəzər dənizinə gəmilərin ballast suları ilə invaziv növ daraqlı Mnemiopsis leidyinin düşməsi nəticəsində kilkə balıqlarının ehtiyatı və ovu kəskin azalmışdır.

2001-ci ilə kimi kilkələr Xəzərdə bütövlükdə sənaye balıq ovunun əsasını təşkil edirdilər, Xəzəryanı dövlətlər tərəfindən hər il stabil olaraq 200-250 min ton kilkə ovlanırdı. Bir neçə onillik ərzində kilkə ovu ançousabənzər kilkə və irigöz kilkə ehtiyatının istifadəsinə əsaslanırdı, bu 2 növ ümumi kilkə ovunun 99 %-ə qədərini təşkil edirdi. Adi kilkənin ov miqdarı ümumi kilkə ovunda təxminən 1% idi. Azərbaycanda 2000-ci ildən kilkə ovu 18520 tondan 316 tona (2016-cı il) qədər azalmışdır. Hazırda kilkə ovunun əsasını adi kilkə təşkil edir (80-85 %), ikinci yer (10-15%) ançousabənzər və üçüncü yer isə irigöz kilkənin payına (1-2 %) düşür.

Siyənək (Clupeidae) balıqlarının ovu Xəzərin cənubi-qərb hissəsində aparılır. 2010-2015-ci illər ərzində siyənək ovu 798,4 tondan 256,5 tona qədər azalmış, 2016-cı ildə isə 401,7 tona qədər artmışdır. Xəzərin Azərbaycan sahilində kefal (Mugilidae) balıqlarının ovu 2010-2016-cı illər ərzində 62,2 tondan 157 tona qədər artmışdır. Vətəgənin intensivləşdirilməsi vasitəsilə xüsusi ov alətlərini istifadə edərək kefal balıqlarının ümumi ovunu artırmaq olar.

Son 30 il ərzində Xəzər dənizində nərə balıqlarınının ümumi ovu 30 dəfə azalıb (1980-ci ildə 27 000 tondan 2010-cu ildə 0,6 min tona qədər). Azərbaycanda 2000-2010-cu illər ərzində nərəkimilərin ümumi ovu 70 tondan 2 tona qədər azalmışdır. 2011-ci ildən Xəzər dənizində nərə balıqlarının vətəgə ovuna texniki moratorium elan edilib və nərəkimilərin yalnız elmi-tədqiqat məqsədləri üçün ovuna icazə verilir.

## 7. DAYANIQLI İNKİŞAF ÜÇÜN QLOBAL TƏRƏFDAŞLIQDA İŞTİRAK

**MƏQSƏD 17. İcra vasitələrini gücləndirmək və dayanıqlı inkişaf naminə qlobal tərəfdaşlığı yenidən canlandırmaq**

**Maliyyə**

17.1. Vergi və digər gəlirlərin yığımı ilə bağlı daxili potensialı artırmaq üçün, inkişaf etməkdə olan ölkələrə beynəlxalq dəstək yolu ilə, daxili vəsait toplama işini gücləndirmək.

17.2. İnkişaf etmiş ölkələr tərəfindən inkişafa rəsmi yardım öhdəliklərinin, o cümlədən bir çox inkişaf etmiş ölkələr tərəfindən inkişaf etməkdə olan ölkələr üçün İRY/ÜMG-nin 0,7 %-nə və ən zəif inkişaf etmiş ölkələr üçün İRY/ÜMG-nin 0,15%-0,2%-nə nail olmaq öhdəliyinin tam şəkildə yerinə yetirilməsi; İRY göstərənlər ən zəif inkişaf etmiş ölkələr üçün İRY/ÜMG-nin ən azı 0,20%-ini təmin etməyi hədəf kimi qarşıya qoymaq məsələsini nəzərdən keçirməyə çağırılır.

17.3. Çoxsaylı mənbələrdən inkişaf etməkdə olan ölkələr üçün əlavə maliyyə vəsaitləri toplamaq.

17.4. Borc maliyyələşdirməsinə, müvafiq hallarda borcların azaldılmasına və borcların yenidən təşkilinə şərait yaratmağı məqsəd kimi qarşıya qoyan əlaqələndirilmiş siyasətlər vasitəsilə uzunmüddətli borc dayanıqlığına nail olmaqda inkişaf etməkdə olan ölkələrə yardım etmək və borcla bağlı gərginliyi azaltmaq üçün yüksək borcu olan yoxsul ölkələrin xarici borc probleminə diqqət yetirmək.

17.5. Ən zəif inkişaf etmiş ölkələr üçün yatırımların təşviqi rejimlərini qəbul etmək və həyata keçirmək.

**Texnologiya**

17.6. Digər vasitələrlə yanaşı mövcud olan mexanizmlər arasında, xüsusən də Birləşmiş Millətlər Təşkilatı səviyyəsində əlaqələndirməni təkmilləşdirməklə və qlobal texnoloji yardım mexanizmləri vasitəsilə, elm, texnologiya və innovasiyalar üzrə Şimal-Cənub, Cənub-Cənub və üçtərəfli regional və beynəlxalq əməkdaşlığı və onlara çıxış imkanını genişləndirmək və qarşılıqlı şəkildə razılaşdrılmış şərtlər altında biliklərin bölüşülməsini artırmaq.

17.7. Qarşılıqlı şəkildə razılaşdırılmaqla, əlverişli şərtlər, o cümlədən güzəştli və imtiyazlı şərtlər altında inkişaf etməkdə olan ölkələrdə ekoloji baxımdan sağlam texnologiyaların inkişaf etdirilməsini, ötürülməsini, yayılmasını və genişləndirilməsini təşviq etmək.

17.8. 2017-ci ilədək, ən zəif inkişaf etmiş ölkələr üçün texnologiya bankını və elm, texnologiya və innovasiyalar üzrə potensialı inkişaf etdirmə mexanizmini tam şəkildə işə salmaq və əlverişli texnologiyadan, xüsusən də informasiya və kommunikasiya texnologiyalarından istifadəni genişləndirmək.

**Potensialın inkişaf etdirilməsi**

17.9. Şimal-Cənub, Cənub-Cənub və üçtərəfli əməkdaşlıq vasitəsilə, bütün dayanıqlı inkişaf məqsədlərini həyata keçirmək üçün milli planlara dəstək göstərmək məqsədilə, inkişaf etməkdə olan ölkələrdə effektiv və məqsədyönlü potensialı inkişaf etdirmə işinin aparılmasına beynəlxalq dəstəyi artırmaq.

**Ticarət**

17.10. ÜTT çərçivəsində, onun Doha İnkişaf Gündəliyi altında sazişlər bağlamaqla ümumi, qaydalara əsaslanan, açıq, ayrı-seçkiliyə yol verilməyən və bərabər çoxtərəfli ticarət sistemini təşviq etmək.

17.11. 2020-ci ilədək, xüsusən qlobal ixracatda ən zəif inkişaf etmiş ölkələrin payını iki dəfə artırmaq məqsədilə, inkişaf etməkdə olan ölkələr tərəfindən ixracatı əhəmiyyətli dərəcədə artırmaq.

17.12. Digər vasitələrlə yanaşı, ən zəif inkişaf etmiş ölkələrdən idxallara tətbiq edilə bilən güzəştli mənbə qaydalarının şəffaf və sadə olmasını təmin etməklə, ÜTT-nin qərarlarına uyğun olaraq, bütün ən zəif inkişaf etmiş ölkələr üçün davamlı əsaslarla bazara rüsumdan və kvotadan azad çıxış imkanının tətbiqini vaxtında reallaşdırmaq və bazarlara çıxış imkanına şərait yaratma işinə kömək etmək.

**Sistemlə bağlı məsələlər**

*Siyasət və institusional uyğunluq*

17.13. Digər vasitələrlə yanaşı siyasətləri əlaqələndirmə və siyasətləri uyğunlaşdırmaqla qlobal makro-iqtisadi stabilliyi artırmaq.

17.14. Dayanıqlı inkişaf üçün siyasətlərin uyğunluğunu artırmaq.

17.15. Hər bir ölkənin siyasət məkanına və yoxsulluğun aradan qaldırılması və dayanıqlı inkişaf üzrə siyasətlər müəyyənləşdirmə və həyata keçirmə işinə hörmətlə yanaşmaq.

*Çoxtərəfli tərəfdaşlıqlar*

17.16. Bütün ölkələrdə, xüsusən də inkişaf etməkdə olan ölkələrdə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmağa dəstək göstərmək üçün bilik, təcrübə, texnologiya və maliyyə vəsaitlərini səfərbər edən və bölüşən çoxtərəfli tərəfdaşlıqların köməyi ilə, Dayanıqlı İnkişaf naminə Qlobal Tərəfdaşlığı artırmaq.

17.17. Təcrübə və tərəfdaşlıqları maliyyələşdirmə strategiyaları üzərində qurulmaqla, effektiv dövlət, dövlət–özəl sektor və vətəndaş cəmiyyəti tərəfdaşlıqlarını həvəsləndirmək və təşviq etmək.

*Məlumatlar, monitorinq və cavabdehlik*

17.18. 2020-ci ilədək, gəlir, gender, yaş, irq, etnik mənsubiyyət, köçkün statusu, əlillik, coğrafi yerləşmə və milli şəraitə uyğun olaraq digər səciyyəvi xüsusiyyətlərə görə təfsilatlandırılmış yüksək keyfiyyətli, vaxtlı-vaxtında verilən və etibarlı məlumatların mövcudluğunu əhəmiyyətli dərəcədə artırmaq üçün inkişaf etməkdə olan ölkələrə, o cümlədən ən zəif inkişaf etmiş ölkələrə və kiçik adalarda yerləşən ölkələrə potensialın inkişaf etdirilməsində dəstəyi artırmaq.

17.19. 2030-cu ilədək, ümumi daxili məhsula əlavə olaraq dayanıqlı inkişaf üzrə irəliləyişin ölçülərini işləyib hazırlamaq üçün mövcud təşəbbüslərə əsaslanmaq və inkişaf etməkdə olan ölkələrdə statistik məlumat toplama potensialının inkişaf etdirilməsinə dəstək göstərmək.

Hər bir ölkə və dünya üçün DİM-lərə nail olunmasında əsas həlqə kimi çıxış edən beynəlxalq əməkdaşlıq sahəsində Azərbaycan hökuməti 25 illik müstəqil dövlətçilik dövründə əhəmiyyətli addımlar atmış, o cümlədən sülhsevər siyasət aparmış və ümumbəşəri sosial və humanitar dəyərlərin inkişafına yönəlmiş beynəlxalq razılaşmalara qoşulmuş və bir sıra mühüm tədbirlər həyata keçirmişdir.

Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyinin bərpasından sonra 1992-ci ildə BMT-nin DİM-lər üçün mühüm əhəmiyyət kəsb edən "Uşaq hüquqları haqqında", "Mülki və siyasi hüquqlar haqqında", "İqtisadi, sosial və mədəni hüquqlar haqqında",1996-cı ildə "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" və 1998-ci ildə "Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması haqqında" konvensiyalarına qoşulmuşdur.

Eyni zamanda, indiyədək Azərbaycan Respublikası 22 əsas çoxtərəfli beynəlxalq ekoloji saziş və konvensiyalara və Beynəlxalq Əmək Təşkilatının 57 Konvensiyasına qoşulmuşdur.

Həmçinin Azərbaycan Respublikası 1996-cı ildə dəyişdirilmiş və 1999-cu ildə qüvvəyə minmiş Avropa Sosial Xartiyasının 40 illiyi münasibətilə 2001-ci ilin 18 oktyabrında keçirilən mərasimdə bu təşkilata üzv olmuş və 2004-cü ilin sentyabr ayında Azərbaycanın Dəyişdirilmiş Avropa Sosial Xartiyasına qoşulmasıyla bağlı ratifikasiya fərmanı Avropa Şurasına təqdim edilmişdir. Həmin ilin 1 noyabr tarixindən sözügedən beynəlxalq sənəd Azərbaycan Respublikasında qüvvəyə minmişdir. "Avropa Sosial Xartiyasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 6 yanvar 2004-cü il tarixli, 575-IIQ nömrəli Qanununa əsasən Azərbaycan Respublikası 1996-cı il 3 may tarixli Dəyişdirilmiş Avropa Sosial Xartiyasının 31 maddəsindən 18 maddəsi ilə özünün bağlı olduğunu bəyan etmişdir. Azərbaycan Respublikası Xartiyanın Maddə 1. Əmək hüququ, Maddə 5 . Təşkilatlanma hüququ, Maddə 6 . Kollektiv müqavilələr bağlamaq hüququ, Maddə 7 . Uşaqların və gənclərin müdafiə hüququ, Maddə 1 6 . Ailənin sosial, hüquqi və iqtisadi müdafiə hüququ, Maddə 2 0 . Cinsindən asılı olmayaraq məşğulluq və iş məsələlərində bərabər imkanlar və bərabər rəftar hüququ kimi tətbiqi mütləq xarakter daşıyan maddələrini ratifikasiya etmişdir.

Beynəlxalq əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi BMT, Avropa Şurası, ATƏT, Avropa İttifaqı,GUAM, NATO, Qara Dəniz İqtisadi Əməkdaşlıq, İslam Əməkdaşlıq, İqtisadi Əməkdaşlıq təşkilatları, BMT-nin, eləcədə Avropa Şurasının ixtisaslaşmış qurumları ilə işgüzar əlaqələr qurulmuşdur. Həmçinin, 40-a yaxın dövlətin aidiyyəti dövlət strukturları ilə 100-ə yaxın ikitərəfli və çox tərəfli saziş, memorandum və protokoi imzalanmışdır.

Azərbaycan Respublikasının Prokurorluq orqanları BMT, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkiatı (OECD), Avropa Şurasının, Avropa İttifaqı, Beynəlxalq Anti-Korrupsiya Orqanları Assosiasiyası (IAACA), Avropa Komissiyasının Dələduzluqla mübarizə üzrə Avropa Bürosu (OLAF) və Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC), Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və Korrupsiyaya qarşı Avropa Əlaqələndiricilər Şəbəkəsi (EACN), BMT-nin Narkotiklər və Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin (UNODC), Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupunun (GRECO) və digər beynəlxalq təşkilatların korrupsiya, ağır və transmilli xarakterli cinayətlərin qarşısının alınması, ekstradisiya və qarşılıqlı hüquqi yardım və dələduzluqla mübarizə sahəsində əməkdaşlıq edir.

Bunlarla yanaşı, beynəlxaq inkişafa yardım istiqamətində xarici dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən yardımın göstərilməsi ilə bağlı ölkəyə daxil olan müraciətlərə çevik reaksiyanın verilməsi, beynəlxalq yardımların mərkəzləşdirilmiş qaydada göstərilməsi və əlaqələndirilməsi məqsədilə 2011-ci ilin 14 sentyabr tarixində Xarici İşlər Nazirliyinin nəzdində milli donor institutu olan Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi (Azerbaijan International Development Agency - AIDA) yaradılmışdır. Agentlik Azərbaycan tərəfindən göstərilən yardımların

məqsədyönlü şəkildə istiqamətləndirilməsini və bu yardımların aidiyyəti dövlət qurumları ilə birgə vahid çərçivədə həyata keçirilməsini təşkil edir.

Bütün bunlar Azərbaycan hökumətinə DİM-lər üçün qlobal tərəfdaşlıq çərşivısində əməkdaşlığı daha da inkişaf etdirməyə və onların həyata keçirilmə vasitələrini möhkəmləndirməyə zəmin yaratmışdır. Bu sahədə ayrı-ayrı hədəflər üzrə ölkədə mövcud olan vəziyyət, əldə olunmuş nailiyyətlər və qarşıya çıxan çətinliklər barədə aşağıda məlumat verilir.

**Maliyyə.** 2010-2016-cı illərdə Azərbaycanda vergi və digər gəlirləri toplama ilə bağlı potensialın inkişafı nəticəsində dövlət büdcəsinin gəlirlərinin ÜDM-də faiz nisbəti 26,9%-dən 29,0%-ə, dövlət büdcəsinin gəlirlərində vergilərin xüsusi çəkisi 46,2%-dən 51,6%-dək yüksəlmişdir (Cədvəl 7.1).

**Cədvəl 7.1.** Dövlət gəlirlərinin dinamikası

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|
| **Dövlət büdcəsinin gəlirlərinin ÜDM-də faiz nisbəti** | 26,9 | 30,1 | 31,6 | 33,5 | 31,2 | 32,2 | 29,0 |
| **Dövlət büdcənin gəlirlərindəvergilərin xüsusi çəkisi** | 46,2 | 40,7 | 40,4 | 39,3 | 45,5 | 50,2 | 51,6 |

Mənbə: DSK

Baxılan sahədə potensialın gücləndirilməsində beynəlxalq tərəfdaşların dəstəyi, o cümlədən 2011-2013-cü illərdə Vergilər Nazirliyinin benefisiarı olduğu Avropa İttifaqının “Azərbaycan Respublikası Vergilər Nazirliyinə elektron audit sisteminin tətbiqində dəstək” və 2014-2016-cı illərdə Avropa İttifaqının “İnsan resurslarının inkişafı üçün potensialın artırılmasında Azərbaycan Respublikasının Vergilər Nazirliyinə dəstək” adlı tvinninq layihələri həyata keçirilməsi də əhəmiyyətli rol oynamışdır. Bu cür əməkdaşlığın davam etdirilməsi üçün Avropa İttifaqının “Azərbaycan Respublikası Vergilər Nazirliyinə resurslardan optimal istifadə olunması və vergi ödəyicilərinə keyfiyyətli xidmətlərin göstərilməsində dəstək” adlı tvinninq layihəsinin müqaviləsi imzalanmışdır.

Cədvəl 7.1-dən də göründüyü kimi, müvafiq göstəricilər üzrə artıma meyilliliyin olması ilə yanaşı, kəskin arma-azalmalar da vardır ki, bu da göstərir ki, ölkədə vergi və digər gəlirləri toplama sahəsində potensialın daha da gücləndirilməsi yolu ilə əldə olunmuş nəticələri daha da artırmaq olar.

Kənd təsərrüfatı sahəsinə 1997-2016-cı illər ərzində dövlət zəmanəti əsasında xarici mənbələrdən cəlb edilmiş kredit xətləri (başa çatmış layihələr daxil olmaqla) 396,1 mln. ABŞ dolları məbləğinin 146 mln. ABŞ dollarını, kənd təsərrüfatı sahəsində dövlət zəmanəti əsasında xarici mənbələrdən cəlb edilmiş kredit xətlərinin (hal-hazırda icra olunan layihələr) 155,5 mln. ABS dolları məbləğinin 40,1 mln. ABS dolları Azərbaycan Hökuməti tərəfindən maliyyələşdirilmişdir [MN].

**Texnologiya.** Azərbaycan hökuməti ölkənin elmi-texniki potensialının inkişafına və bu sahədə beynəlxalq əməkdaşlıqda fəal iştirak edir.

**Ölkələrarası müqavilələr və elmi və / və ya texniki əməkdaşlıq proqramları.** 2015-2016-cı illər ərzində “Azərbaycan Respublikası ilə Argentina Respublikası arasında Texniki əməkdaşlıq haqqında Saziş” və "Azərbaycan Respublikasının Hökuməti ilə Çin Xalq Respublikasının Hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında Saziş" imzalanaraq təsdiq olunmuş, “Azərbaycan Respublikası Hökuməti və Kolumbiya Respublikası Hökuməti arasında Texniki və Elmi Əməkdaşlıq haqqında Saziş” layihəsi hazırlanmış və hazırda son razılaşdırma mərhələsindədir və 1996-cı ildə imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında elmi və texniki əməkdaşlıq haqqında Saziş”in yeni layihəsinin hazırlanması üzrə müzakirələrə başlanılmışdır. Bunlarla yanaşı, 2016-cı ildə

Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən dünyanın 16-dan artıq elmi təşkilatı və şirkətləri ilə 49 müqavilə imzalanmışdır.

2010-2015-ci illərdə internetdən istifadə edən əhalinin xüsusi çəkisi 46%-dən 77%-ə qalxmış, əhalinin hər 100 nəfərinə düşən genişzolaqlı internet istifadəçilərinin sayı 15 nəfərdən 72 nəfərədək artmışdır (Cədvəl 7.2).

**Cədvəl 7.2.** İnternetdən istifadə vəziyyəti

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|
| **İnternetdən istifadə edən əhalinin xüsusi çəkisi, faizlə** | 46 | 65 | 70 | 73 | 75 | 77 | 78 |
| **Əhalinin hər 100 nəfərinə düşən genişzolaqlı internet istifadəçilərinin sayı, nəfər** | 15 | 30 | 50 | 55 | 65 | 72 | - |

Mənbə: DSK

**Potensialın inkişaf etdirilməsi.** Azərbaycan zəif inkişaf edən ölkələrdə potensialın inkişafına yardım prosesində də fəal iştirak edir. Bu işdə milli donor institutu olan AIDA-nın fəaliyyəti diqqətəlayiqdir.. Belə ki, AIDA Azərbaycan tərəfindən göstərilən yardımların məqsədyönlü şəkildə istiqamətləndirilməsini və bu yardımların aidiyyəti dövlət qurumları ilə birgə vahid çərçivədə həyata keçirilməsini təşkil edir.

Artıq 40-dək dünya ölkəsi, xüsusilə Afrika, Asiya və Latin Amerikası dövlətləri Azərbaycan hökumətinin göstərdiyi yardımlardan faydalanmışdır. Agentlik ikitərəfli və çoxtərəfli əməkdaşlıq çərçivəsində elmin və mədəniyyətin inkişafı, səhiyyə sektorunun möhkəmləndirilməsi, elektron idarəçiliyin (e-governance) tətbiqi, yoxsulluğun azaldılması və s. sosial-iqtisadi istiqamətlər üzrə proqram və layihələrin həyata keçirilməsini dəstəkləyir.

AIDA Cənub-Cənub və Üçtərəfli Əməkdaşlıq çərçivəsinin əhəmiyyətini nəzərə alaraq, İslam İnkişaf Bankı (İİB) ilə bu istiqamətdə 2016-cı ilin dekabr ayında "Cənub-Cənub Əməkdaşlığı və Qarşılıqlı Əlaqə üzrə Niyyət Protokolu" imzalamışdır.

Bununla yanaşı, 12 iyul 2016-cı il tarixində Kabil şəhərində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Əfqanıstanın Maliyyə Nazirliyi arasında dövlət xidmətlərinin göstərilməsinin mütərəqqi mexanizminin yaradılmasına dair Anlaşma Memorandumu imzalanmışdır. Sözügedən sənədə uyğun olaraq, Azərbaycanın "ASAN xidmət" modeli əsasında Əfqanıstanda dövlət xidmətlərinin göstərilməsi məqsədilə eyni adlı qurum (Asan Khedmat) yaradılmışdır (www.asan.gov.af).

Bununla yanaşı, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi aşağıdakı kimi inkişaf etmiş ölkələrlə də əməkdaşlıq edir:

- 2015-ci il 9 dekabr tarixində “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə İtaliya Respublikası Baş nazirinin Ofisi yanında Dövlət İdarəçiliyi üzrə Departamenti arasında Anlaşma Memorandumu” imzalanmışdır.

-2016-cı il 19 avqust tarixində “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Koreya Respublikasının Daxili İşlər Nazirliyi arasında e-hökumət və dövlət xidmətlərinin göstərilməsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu” imzalanmışdır.

- 2017-ci il 14 mart tarixində “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi Fransa Respublikasının Baş naziri yanında Dövlət İslahatları və Asanlaşdırma üzrə Dövlət Katibliyi ilə Anlaşma Memorandumu” imzalanmışdır.

Azərbaycan Hökumətinin DİM-lərin həyata keçirilməsinə töhfə verəcək daha bir təşəbbüsü 25-26 aprel 2013-cü il tarixlərində Bakı şəhərində keçirilmiş islam

Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin əmək nazirlərinin ikinci konfransında mənzil-qərargahı Bakıda olmaqla İƏT Əmək Mərkəzinin yaradılması barədə təklifinin dəstəklənməsi və İƏT Xarici İşlər Nazirləri Şurasının 18-19 oktyabr 2016-cı il tarixlərində Özbəkistanın paytaxtı Daşkənd şəhərində keçirilmiş 43-cü sessiyası zamanı İƏT Əmək Mərkəzinin Nizamnaməsinın təsdiq olunmmasını göstərmək olar.

**Sistemlə əlaqədar məsələlər.** ***Siyasi və institusional uyğunluq.*** Hazırda Azərbaycanda makroiqtisadi sabitliyi möhkəmləndirmək üçün həyata keçirilən siyasətlərin əlaqələndirilməsi və DİM-lərə uyğunlaşdırılması üzrə işlər aparılır. Bu məqsədlə makroiqtisadi göstəricilər sisteminin tərkibi və bu göstəricilər üzrə məlumat toplama və təhlil potensialı da nəzərdən keçirilir və onun gücləndirilməsi üçün tədbirlər planlaşdırılır. Hazırda DSK-nın DİM-lər üzrə statistik məlumat istehsalı prosesinin təşkili üçün yetərli olmayan mövcud maliyyə və insan resursları, inzibati məlumat bazalarının Komitənin məlumat bazalarına hələ tam inteqrasiya olunmaması müəyyən çətinlik və problemlər yaradır. Statistika sahəsində kadr hazırlığı üzrə potensial ehtiyacların müəyyən edilməsinə, DİM göstəricilərinin istehsalı, bu sahədə işin təşkili üzrə beynəlxalq təşkilatların tövsiyələrinə, qabaqcıl təcrübələrin öyrənilməsinə ehtiyac duyulur. Belə ki, gəlir, gender, yaş, irq, etnik mənsubiyyət, köçkün statusu, əlillik, coğrafi yerləşmə və milli şəraitə uyğun olaraq digər səciyyəvi xüsusiyyətlərə görə alt qruplara bölünmüş yüksək keyfiyyətli, vaxtlı-vaxtında verilən və etibarlı məlumatların işlənməsi məsələlərinə dair zəruri biliklərin və metodologiyaların əldə olunması, əlaqədar şəxslərin dayanıqlı inkişaf statistikası sahəsində biliklərinin artırılması, DİM-in informasiya təminatı üçün inzibati məlumatlardan geniş istifadə və DİM-ə nail olunmasının monitorinq prosesinin təşkili qarşıda duran prioritet vəzifələrdir.Qeyd olunan məsələlərin həllində BMT-nin və digər beynəlxalq təşkilatların dəstəyinə ehtiyac vardır.

***Dayanıqlı inkişaf sahəsində ardıcıl siyasətin yaxşılaşdırılması üçün mexanizmlərin müəyyən edilməsi.*** 2030-cu ilədək Azərbaycan üçün əhəmiyyət kəsb edən, qlobal məqsəd və hədəflərə uyğun milli prioritetləri və onlara dair göstəriciləri müəyyən etmək, ölkədə sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramlarının və strategiyaların Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşdırılmasını təmin etmək, habelə “Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”dən irəli gələn öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 oktyabr tarixli 1066 nömrəli Fərmanı ilə Azərbaycan Respublikası Baş nazirin müavininin rəhbərliyi altında Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır. Bu Şura Azərbaycan Hökumətinin dayanıqlı inkişaf sahəsində apardığı siyasətin məqsədyönlülüyünü, sistemliliyini və ardıcıllığını daha da yaxşılaşdırmağa xidmət edən bir institusional mexanizm kimi yaradılmışdır və hazırda onun fəaliyyəti də bu istiqamətdə işlərin davam etdirilməsinə və gücləndirilməsinə yönəlmişdir.

***Çoxtərəfli tərəfdaşlıqlar***. İqtisadi sahədə təşəbbüslərin dəstəklənməsi və beynəlxalq əməkdaşlıq tədbirləri sırasında 2011-2015-ci illərdə beynəlxalq və regional təşkilatlarla birgə kənd təsərrüfatı və iqtisadi sahələri əhatə edən 11 layihə həyata keçirilməsini göstərmək olar.

Son illərdə Azərbaycan Respublikası tərəfindən göstərilən beynəlxalq yardımların böyük hissəsi çoxtərəfli platformada həyata keçirilmişdir. Belə yanaşma digər donorlarla birgə səylərin əlaqələndirilməsini və göstərilən yardımların yardım alan ölkənin prioritetlərinə uyğunluğunu təmin edir. Eyni zamanda, çoxtərəfli çərçivədə yardımın göstərilməsi təcrübə mübadiləsi, tərəfdaşlıq münasibətlərinin qurulması və göstərilən yardımın effektiv şəkildə çatdırılmasına xidmət edir.

Azərbaycan Respublikası tərəfindən müntəzəm şəkildə BMT qurumları və digər beynəlxalq təşkilatlar vasitəsilə dünyanın müxtəlif bölgələrində həyata keçirilən humanitar və texniki təyinatlı layihələrə, eləcə də onların fəaliyyətlərinə dəstəyin verilməsi məqsədilə ianələr ayrılmışdır.

AIDA öz fəaliyyəti çərçivəsində çoxtərəfli əməkdaşlıq mühitin mövcud olduğu və müxtəlif maraqlı tərəflərin cəlb edildiyi beynəlxalq yardım layihələrində iştiraka və ya dəstək göstərməyə üstünlük verir.

***Dövlət-özəl və vətəndaş cəmiyyəti təşkilatlarının əməkdaşlığı.*** Sağlamlıq imkanları məhdud uşaqlara sosial xidmətlərin göstərilməsi üçün prioritet istiqamətlər müəyyən edilmiş və həmin xidmətlərin ixtisaslaşdırılmış qeyri-hökumət təşkilatları tərəfindən icra edilməsi məqsədi ilə sosial sifarişlər elan edilmişdir. 2016-cı ildə 25 qeyri-hökumət təşkilatı tərəfindən 37 layihə üzrə sosial sifarişlər icra olunmuş və bu layihələr 2046 nəfər ehtiyacı olan uşağı əhatə etmişdir. Ümumilikdə sosial sifarişlərə 1,7 milyon manat vəsait xərclənmişdir.

Vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinə geniş imkanların yaradılması və dövlət tərəfindən onlara maliyyə dəstəyinin göstərilməsi mexanizmlərinin tətbiqi nəticəsində 2016-ci il ərzində Ədliyyə Nazirliyinə təqdim edilmiş qrant müqavilələrinə əsasən qeyri-hökumət təşkilatlarına 110 milyon manatdan artıq qrant vəsaiti ayrılmışdır ki, bu da əvvəlki illə müqayisədə təxminən 2,5 dəfə çoxdur. 2011-2016-cı illər ərzində qeyri-hökumət təşkilatlarına qrant, ianə və xidmətlərin göstərilməsi (işlərin görülməsi) müqavilələri əsasında ayrılmış vəsaitlərin məbləği 2011-ci ilə nisbətən 2016-cı ildə 4 dəfə artaraq128 milyon manatdan çox olmuşdur [ƏN].

***Rəsmi statistikanın əsas prinsiplərinə uyğun olaraq müvafiq əlamətlər üzrə milli səviyyədə tam təfsilatlandırılmaqla işlənilmiş dayanıqlı inkişaf göstəricilərinin mövcudluğu.*** Azərbaycanda dayanıqlı inkişaf göstəriciləri üzrə statistik məlumatların işlənilməsinə məsul qurum Dövlət Statistika Komitəsidir. Dövlət Statistika Komitəsi tərəfindən müntəzəm olaraq Dövlətlərarası Statistika Komitəsi, beynəlxalq və regional təşkilatlar, habelə dünya ölkələrinin milli statistika xidmətləri ilə qarşılıqlı məlumat mübadiləsi aparılır, daxil olan sorğular cavablandırılır və digər formalarda əməkdaşlıq həyata keçirilir. Komitə tərəfindən il ərzində hazırlanan metodoloji materiallar milli hesablar və makroiqtisadi göstəricilər, əhali, əmək, energetika, ticarət, qiymət, innovasiya, ekologiya statistikası kimi sahələri, o cümlədən Milli Hesablar Sistemi (MHS)-2008-in ÜDM göstəricisinin həcmi, strukturu və artım sürətinə təsir edən tövsiyələri nəzərə alınmaqla ÜDM-in yenilənmiş dinamika sıralarının hazırlanması, "MHS-2008" çərçivəsində energetika üzrə köməkçi (satellit) hesabın qurulması, elm, texnologiya və innovasiya statistikasının təkmilləşdirilməsi və innovasiyaların iqtisadiyyata təsirinin ölçülməsi, "insan kapitalı"nın statistik öyrənilməsinə dair metodoloji izahatların, statistik göstəricilər sisteminin hazırlanması, "Əmək xərcləri indeksinin hesablanması", "Dövlət sektorunun cari hesablarının qurulmasına dair metodoloji göstəriş", "Yaşıl iqtisadiyyat" üzrə statistik göstəricilər sistemi", "Ev təsərrüfatlarında yanacaqdan istifadə nəticəsində atmosferə atılan çirkləndirici maddələrin və istilik effekti yaradan qazların həcminin hesablanması", "ətraf muhitin muhafizəsinə çəkilən xərclər və ödənişlər üzrə statistik proseslərin idarə olunması prosesində SBPUM-un tətbiqi", "Enerji statistikasına dair milli tövsiyələr", "Kiçik sahibkarlıq subyektlərinin işgüzar fəallığı" və "Ticarət fəaliyyəti ilə məşğul olan kiçik sahibkarlıq subyektlərinin işgüzar fəallığı" məsələlərini əhatə edir.

Azərbaycanın milli statistika sistemində DİM üzrə göstəricilərin 30%-i mövcud olsa da, insanların gəlir səviyyəsi, cins, yaş, irq, etnik mənsubiyyət, köçkün statusu, əlillik, coğrafi məskunlaşma və milli şəraitə uyğun olaraq digər xüsusiyyətlərə görə altqruplar səviyyəsinədək qruplaşdırılmış yüksək keyfiyyətli, aktual və etibarlı məlumatların illik dövriliklə işlənilməsi bu günədək tələb olunmadığı üçün həmin göstəricilər üzrə altqrupların yalnız bir qismi üzrə müşahidələrin təşkili Komitənin cari işlər proqramlarında nəzərdə tutulurdu. Tələb olunan göstəricilərin çatışmayan qismi üzrə məlumatların müvəffəqiyyətlə toplanması Komitənin potensialının inkişaf etdirilməsindən birbaşa asılıdır, çünki belə müfəssəl məlumatların əldə edilməsi xeyli maliyyə, İKT və insan resurslarının cəlb edildiyi siyahıyaalmalar, mikrosiyahıyaalmalar,

ev təsərrüfatları arasında keçirilən seçmə statistika müayinələri vasitəsi ilə, eyni zamanda öz inzibati vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar müxtəlif dövlət qurumları tərəfindən toplanan məlumatların Komitənin statistik məlumat bazalarına inteqrasiya edilməsi yolu ilə mümkündür.

Məhz buna görə də, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"nin Tədbirlər Planının 4.2.2-ci yarımbəndində "Statistika infrastrukturunun təkmilləşdirilməsi" tədbiri nəzərdə tutulmuşdur.

Növbəti illərdə də potensialın inkişaf etdirilməsi istiqamətində tədbirlərin davam etdirilməsi məqsədilə "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı" layihəsində müvafiq tədbirlər, o cümlədən ev təsərrüfatlarında müxtəlif sorğuların keçirilməsi və DİM-ə nail olunmasını əks etdirən göstəricilər üzrə dezaqreqasiya edilmiş məlumatların toplanması ilə bağlı tədbirlər nəzərdə tutulmuşdur.

"2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 sentyabr tarixli 1040 nömrəli Fərmanına əsasən 2019-cu il 1-10 oktyabr tarixlərində Azərbaycan Respublikasında əhalinin növbəti siyahıyaalınması keçiriləcəkdir. DİM göstəricilərinə dair məlumatların toplanması üçün bəzi sualların əhalinin siyahıyaalınma vərəqələrinə daxil edilməsi də planlaşdırılır.

***Rəsmi statistikanın əsas prinsiplərinə uyğun milli statistika qanunvericiliyinin mövcudluğu.*** Hazırda qüvvədə olan "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının 18 fevral 1994 tarixli 789 nömrəli Qanunu rəsmi statistikanın əsas prinsiplərini özündə əks etdirir. 2016-cı ilin sentyabrından 2017-ci ilin fevralınadək BMT-nin Avropa İqtisadi Komissiyası (BMT AİK), Avropa Statistika Bürosu (Avrostat) və Avropa Azad Ticarət Assosiasiyası (AATA) tərəfindən Azərbaycanın milli statistika sistemində aparılmış Qlobal Qiymətləndirmənin (xarici auditin) nəticələrinə dair yekun hesabat təqdim edildikdən sonra tövsiyələrə uyğun "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə və dəyişikliklər edilməsi ilə bağlı təkliflər hazırlanacaqdır.

***Tam maliyyələşdirilən və həyata keçirilən milli statistika planının mövcudluğu.*** Azərbaycan Respublikası Prezidentinin 2012-ci il tarixli 21 dekabr, 2621 nömrəli Sərəncamı ilə təsdiq edilmiş və 5 illik dövrü əhatə edən sayca beşinci "2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı"ilə yanaşı, hər il üçün dövlət büdcəsindən tam maliyyələşdirilən statistik işlər proqramları qəbul edilir.

***Ölkədə statistika sahəsində potensialın gücləndirilməsinə ayrılmış bütün resursların dollarla dəyəri.*** 2010-2015-ci illərdə Azərbaycanda statistika sahəsində potensialın gücləndirilməsinə ayrılmış bütün resursların dollarla dəyəri Cədvəl 7.3-də əks olunmuşdur.

**Cədvəl 7.3** Statistika sahəsində potensialın gücləndirilməsinə ayrılmış bütün resursların dollarla dəyəri

| İllər | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|
| **Statistika sahəsində potensialın gücləndirilməsinə ayrılmış bütün resursların dollarla dəyəri** | 5410805 | 6787941 | 6167211 | 2580319 | 2801702 | 2385026 | 1254798 |

***Son 10 il ərzində əhalinin və mənzil fondunun ən azı bir dəfə siyahıyaalmasınının aparılması.*** "Azərbaycan Respublikasında 2009-cu ildə əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 07 iyul tarixli 415 nömrəli Fərmanı və "2009-cu ildə əhalinin siyahıyaalınmasına hazırlıq işlərinin görülməsini və onun keçirilməsini təmin edən

tədbirlər planı haqqında"  Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 12 dekabr tarixli  200 nömrəli  qərarına əsasən  2009-cu il  13-22 aprel tarixlərində ölkədə əhalinin və mənzil fondunun siyahıyaalınması keçirilmişdir.

Azərbaycan Respublikasında əhalinin və mənzil fondunun növbəti siyahıyaalınması Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 sentyabr tarixli 1040 nömrəli Fərmanı ilə 2019-cu ilin 1-10 oktyabr tarixlərinə təyin edilmişdir.

***Doğulanların 100 faiz  və ölənlərin 80 faiz hallarda qeydiyyatına nail olunması.*** Bu sahədə vəziyyət Cədvəl 7.4-də əks olunmuşdur.

**Cədvəl 7.4.** Doğulanların və ölənlərin qeydiyyatı, faizlə

| | **2010** | **2011** | **2012** | **2013** | **2014** | **2015** | **2016** |
|---|---|---|---|---|---|---|---|
| **Doğulanların qeydiyyata alınması** | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| **Ölənlərin qeydiyyata alınması** | 99,9 | 99,9 | 99,9 | 99,9 | 99,9 | 99,9 | 99,9 |

**Mənbə:** DSK

Cədvəl 7.4-dən göründüyü kimi, Azərbaycanda doğulanların qeydiyyatına 100% hallarda və ölənlərin qeydiyyatına 99,9% hallarda nail olunur ki, bu da DİM-lər üzrə müəyyən olunmuş müvafiq hədəf göstəricilərini (döğulanların 100 faiz, ölənlərin 80 faiz hallarda qeydiyyata alınması)  qabaqlayır.

DİM-lər üçün beynəlxalq əməkdaşlığın inkişafının əsas istiqamətləri və gözləntiləri:

-DİM-lərə gözlənilən səviyyədə nail olmaq üçün BMT–nin təşkilatçılığı ilə milli hökumət qurumlarına maliyyə, texniki, kadr hazırlığı, məsləhət və digər sahələrdə dəstək verilməsi ilə DİM-lərin icrası üzrə milli fəaliyyət planlarının hazırlanması və icrasının təşkili məqsədəuyğun sayılır;

-DİM-lərə əngəl yaradan, insanlığa və bəşəri dəyərlərə zidd olan, insanların sosial və digər hüquqlarını ayaq altına alan və Azərbaycanın da qarşılaşdığı ikitərəfli və regional hərbi münaqişələrin dayandırılması istiqamətində BMT, NATO və digər beynəlxalq  və regional təşkilatların səylərini daha da artırması çox vacibdir.

## 8. GƏLƏCƏK ADDIMLAR

Azərbaycanda “Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf Gündəliyi”nin milli səviyyədə yerinə yetirilməsi istiqamətində yaxın gələcəkdə aşağıdakı işlər görülməsi planlaşdırılır:

- Qlobal DİM-lərin və onlara uyğun olaraq müəyyənləşdirilmiş hədəf və göstəricilərin milliləşdirilməsi və ölkənin inkişaf gündəliyinə daxil edilməsi işinin tamamlanması;
- Milli Davamlı İnkişaf Gündəliyinin icrasına dəstək üçün Azərbaycan 2018-ci ildə DİM-lərə nail olmaq üçün mühüm sürətləndirici amilləri müəyyənləşdirmək və həyata keçirmək üçün vasitələri müzakirə etmək məqsədilə Milli DİM Konfransı keçirəcəkdir. Konfrans özündə iqtisadiyyatın müxtəlif sektorları üzrə inkişaf və transformasiyanın yeni istiqamətlərini müəyyənləşdirmək və Azərbaycanın bütütn əhalisinin DİM-lərə cəlb olunmasının təmin edilməsi məqsədini daşıyacaqdır.
- DİM Gündəliyinin uğurlu icrası beynəlxalq tərəfdaşlar, xüsusi ilə Cənub-Cənub əməkdaşlığı vasitəsi ilə, ən yaxşı təcrübələrin öyrənilməsi və paylaşmasını tələb edir. Bunu nəzərə alaraq Azərbaycan milli DİM-lərin formalaşdırılması və icrası istiqamətində əldə etdiyi  təcrübə_və biliklərini paylaşaçaqdır.
- tərəqqini izləmək üçün mərkəzi və yerli səviyyələrdə DİM-lərin monitorinqi və qiymətləndirilməsi sisteminin qurulması işinin tamamlanması;
- dövlət qurumları, yerli və beynəlxalq tərəfdaşların özləri və bir-biriləri arasında əlaqələndirmənin və  əməkdaşlığın gücləndirilməsi;
- DİM-lərin ölkə üçün prioritet hesab edilən hədəfləri üzrə tərəqqini sürətləndirməyə xidmət edən məqsədli layihələrin hazırlanması və icrası üçün dəstək axtarılması;
- illik hesabatın hazırlanması dövrü və qaydalarının təsdiqlənməsi;
- tərəqqini qiymətləndirmək və hesabatlılığın institutsional tənzimləməyə uyğunlaşdırılması üzrə tövsiyyələr vermək üçün müstəqil, üçüncü tərəf qiymətləndirmələrinin təşkil olunması;
- statistika, xüsusilə gender, yaş qrupları, yaşayış yerləri (kənd/şəhər), sektorlar və regionlar/inzibati rayonlar üzrə ayrılmaqla (dezaqreqasiya olunmaqla) daha təfsilatlı məlumat yaratma və təhlil üzrə potensialın gücləndirilməsi imkanlarının axtarılması;
- daha əhatəli icra və hesabatlılıq mexanizmləri yaradılması üçün dialoqun təşviq olunması;
- DİM-lərə nail olmaq üçün beynəlxalq tərəfdaşlıqda iştirakın gücləndirilməsi.

## 9. NƏTİCƏLƏR

Azərbaycan BMT-nin qlobal inkişafla bağlı təşəbbüslərində yaxından iştirak edir. Bu iştirak ən yaxşı praktiki və innovativ ideyalarla tanış olmaq və onları paylaşmaq baxımından mühüm əhəmiyyət kəsb edir və son 15 ildə Azərbaycanda Minilliyin İnkişafı Məqsədlərinin (MİM-lər) müvəffəqiyyətlə həyata keçirilməsini asanlaşdıran vacib məqamlardan biri olmuşdur

"2030-cu ilədək Dayanıqlı İnkişaf sahəsində Gündəlik" dünyada insanların qarşılaşdığı problemləri tanıdır və onların birlikdə həllinə çağırır. Bu baxımdan, DİM-lər Azərbaycanda da xüsusi rəğbət doğurur. Azərbaycan bu prosesdə birlikdə həll edilməsi qəbul olunmuş münaqişələr, idarəetmə, yoxsulluq, ətraf mühitin deqradasiyası və cinayət kimi bir çox problemlərə rəğmən, sülhə və ləyaqətli həyata nail olmaq istiqamətində önəmli addımlar atır.

Hazırda Azərbaycanda DİM-lərə nail olunması prosesinə aşağıdakı kimi problemlər mənfi təsir göstərir:

- Davamlı sülh, təhlükəsizlik, sabitlik və sosial həmrəylik dayanıqlı inkişaf üçün əsas şərtlərdir. Lakin Ermənistanın Azərbaycana qaşı hərbi təcavüzü (Dağlıq Qarabağ regionunun və onun ətraf rayonlarının işğalı) regionda hər hansı əhəmiyyətli tərəqqiyə malik olmağa imkan vermir. BMT Təhlükəsizlik Şurasının Azərbaycana qarşı güc tətbiq edilməsini və onun ərazilərinin işğalını pisləyən, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü təsdiq edən və işğalçı qüvvələrin beynəlxalq hüququ kobud şəkildə pozaraq işğal etdikləri Azərbaycanın bütün işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) saylı qətnamələrinə və digər beynəlxalq təşkilatların müvafiq qərarlarının və Azərbaycanın bu qərarlara güvənərək məsələnin sülh yolu ilə həllinə inanaraq 23 ildə atəşkəs rejiminə əməl etməsinə baxmayaraq, Ermənistan işğalla əlaqədar hazırkı status-kvonu möhkəmləndirmək, işğal olunmuş ərazilərdə hərbi mövcudluğunu gücləndirmək istiqamətində məqsədyönlü səylərini davam etdirərək yüz minlərlə didərgin vəziyyətinə düşmüş insanların öz daimi yaşayış yerlərinə qayıtmaq və orada təhlükəsiz və ləyaqətlə yaşamaq hüquqlarını reallaşdırmağa imkan vermir. Hələ də heç bir siyasi həllə və sülh sazişinə nail olunmamışdır. Konfliktin həlli Ermənistan və Azərbaycana stabillik və inkişaf gətirməklə yanaşı, bütün regionda sülhün və ədalətin bərqərar olmasına zəmin yaradardı. Azərbaycan DİM-lər çərçivəsində qəbul olunmuş "heç kimi geridə buraxmamaq" prinsipinin reallıqda təsdiqini tapması naminə bu məsələnin həllində beynəlxalq tərəfdaşların qəti mövqe sərgiləyəcəyinə inanır.
- ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişafının və şaxələndirilməsinin sürətləndirilməsi, ixrac potensialının gücləndirilməsi və ixracın artırılması, səhiyyə və sosial xidmətlərin effektivliyinin yüksəldilməsi, ekoloji təhlükəsizliyin möhkəmləndirilməsi kimi istiqamətlərdə də səyləri artırmağa ehtiyac duyulur.

Azərbaycan Hökuməti ümid edir ki, bu istiqamətlər üzrə fəaliyyətini beynəlxalq tərəfdaşlar da dəstəkləyəcək.

DİM-lərin icrasının institusional və siyasi baxımdan kompleks yanaşma tələb etdiyini nəzərə alaraq, Azərbaycanda da dayanıqlı, əhatəli və şaxələndirilmiş iqtisadiyyatın inkişaf etdirilməsi, sosial sahələrin tarazlı inkişafının təmin edilməsi və ekoloji tarazlığın daha etibarlı qorunması üçün səmərəli milli icra mexanizminin formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Qeyd olunanlar nəzərə alınaraq "Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf Sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası (6 oktyabr 2016-cı il) yaradılmışdır.

Azərbaycan üçün əhəmiyyət kəsb edən, qlobal məqsəd və hədəflərə uyğun milli prioritetlərin və onlara dair göstəricilərin müəyyən edilməsi, ölkədə sosial-iqtisadi

sahələri əhatə edən dövlət proqramlarının və strategiyaların DİM-lərlə uzlaşdırılmasının təmin edilməsi, eyni zamanda, DİM-lərə nail olunması ilə əlaqədar Yüksək Səviyyəli Siyasi Forum üçün Azərbaycanın ilkin hesabatının hazırlanaraq təqdim olunması Şuranın qarşısında duran ən mühüm vəzifələrdir.

Ötən müddət ərzində Milli Əlaqələndirmə Şurasının Katibliyi, iqtisadi inkişaf və layiqli məşğulluq, sosial, ekoloji məsələlər, monitorinq və qiymətləndirmə sahələri üzrə 4 işçi qrupları yaradılmış və digər hazırlıq işləri görülmüşdür. Belə işlərdən aşağıdakıları qeyd etmək olar: qlobal DİM-lərin və onlara uyğun olaraq müəyyənləşdirilmiş hədəf və göstəricilərin milliləşdirilməsi və ölkənin inkişaf gündəliyinə daxil edilməsinə başlanılmış və ilkin layihələr hazırlanmışdır; tərəqqini izləmək üçün DİM-lərin monitorinqi və qiymətləndirməsi sisteminin qurulmasına başlanılmışdır; yerli və beynəlxalq tərəfdaşlarla əməkdaşlıq imkanları dəyərləndirilir və artıq müəyyən birgə layihələrə start verilmişdir.

Dayanıqlı inkişafın sürətləndirilməsi əlavə maliyyə vəsaiti tələb etdiyindən mövcud maliyyə vəsaitlərindən səmərəli istifadə etmək, həmçinin yeni maliyyə mənbələri axtarmaq və birgə əməkdaşlıq formaları yaratmaq olduqca vacibdir.

"Heç kəsi arxada buraxmamaq" prinsipini nəzərə alaraq, Azərbaycan ikitərəfli və çoxtərəfli əməkdaşlıq, bütün dünyada, xüsusilə yaxın regionda yardım proqramları vasitəsilə dayanıqlı inkişafla bağlı təcrübə və biliyini yaymaq üçün qlobal dayanıqlı inkişaf məqsədlərini yerinə yetirmək kimi mühüm vəzifəsini qoruyub saxlayamaq niyyətindədir.

Bununla yanaşı, icra prosesində aşağıdakı kimi müəyyən çətinliklər də qarşıya çıxmışdır:

- qlobal məqsəd, hədəf və göstəricilərin mövcud dövlət sənədləri və strategiyalarına uyğunlaşdırılması prosesinin uzun müddət və əlavə vəsait tələb etməsi;
- Dövlət qurumları, yerli və beynəlxalq tərəfdaşlar arasında əlaqələndirmənin gücləndirilməsinə ehtiyac duyulur;
- statistika, xüsusilə gender, yaş qrupları, yaşayış yerləri (kənd/şəhər), sektorlar və regionlar/inzibati rayonlar üzrə ayrılmaqla (dezaqreqasiya olunmaqla) daha təfsilatlı məlumat yaratma və təhlili üzrə potensialın gücləndirilməsinə ehtiyac duyulur ;
- bəzi göstəricilər üzrə məlumatların toplanmaması və ya müvafiq metodologiyaların olmaması;
- ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişafının və şaxələndirilməsinin sürətləndirilməsi, ixrac potensialının gücləndirilməsi və ixracın artırılması, səhiyyə və sosial xidmətlərin effektivliyinin yüksəldilməsi, ekoloji təhlükəsizliyin möhkəmləndirilməsi kimi istiqamətlərdə də səyləri artırmağa ehtiyac duyulur.

Azərbaycan Hökuməti hesab edir ki, DİM-lər dövlət orqanları, vətəndaş cəmiyyəti institutları, biznes nümayəndələri, elm və təhsil qurumları, KİV-lər və inkişafa dəstək verən beynəlxalq təkilatların birlikdə işləmələri üçün əlverişli platformadır. Bu sahədə BMT qurumlarının təşəbbüsləri, istiqamətverici və dəstəkləyici fəaliyyətləri xüsusi qeyd olunmalıdır.

Ümumiyyətlə, Azərbaycan Hökuməti ümid edir ki, qeyd olunan istiqamətlərdə fəaliyyətlərini beynəlxalq tərəfdaşlar da dəstəkləyəcək, onlarla əməkdaşlıq davamlı xarakter alacaq və belə əməkdaşlıq DİM-lərə nail olunmasında əhəmiyyətli rol oynayacaqdır.

## 10. İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏR


1. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. http://www.president.az/files/future_az.pdf.
2. Azərbaycanın statistik göstəriciləri. DSK, Bakı,2016.
3. Azərbaycan rəqəmlərdə -2016. DSK, Bakı, 2017.
4. 2016-2020-ci illər üçün BMT-Azərbaycan Tərfdaşlıq Çərçivəsi (UNAPF) sənədi, Bakı – 2016.
5. 2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı, Bakı – 2003.
6. 2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı, Bakı – 2008.
7. 2004-2008-ci, 2009-2013-cü və 2014-2018-ci illər üzrə Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramları.
8. Əlaqədar qanunvericilik aktları, dövlət proqramları, hesabatlar və s.
9. Asia-Pacific Conference: Taking Collective Action to Accelerate Transformation of Official Statistics for Agenda 2030. Presentations and Documents, http://www.unescap.org/events/asia-pacific-conference-taking-collective-action-accelerate-transformation-official .
10. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. http://www.president.az/articles/21953.
11. Minilliyin İnkişaf Məqsədləri üzrə Tərəqqi Hesabatı – Azərbaycan (2000-2014), Bakı -2015.
12. Proposal for voluntary common reporting guidelines for voluntary national reviews at the high-level political forum, https://sustainabledevelopment.un.org/content/documents/11819Voluntary_guidelines_VNRs.pdf .
13. Report of the Expert Group Meeting on Voluntary National Reviews for the HLPF 15-16 December 2016, United Nations Headquarters, New York, https://sustainabledevelopment.un.org/content/documents/12604Summary%20of%20VNR%20meeting%2015-16%20Dec_FINAL.pdf .
14. Synthesis of Voluntary National Reviews - 2016. https://sustainabledevelopment.un.org/content/documents/126002016_VNR_Synthesis_Report.pdf .
15. Human Development Report 2016.
16. Transforming our world: the 2030 Agenda for Sustainable Development, http://www.un.org/ga/search/view_doc.asp?symbol=A/RES/70/1&Lang=E .
17. www.az.undp.org.
18. www.cabmin.gov.az.
19. www.economy.gov.az.
20. www.eco.gov.az.
21. www.edu.gov.az.
22. www.meclis.gov.az.
23. www.president.az.
24. www.refugees-idps-committee.gov.az.
25. www.sehiyye.gov.az.
26. www.ses.gov.az.www.sspf.gov.az.
27. www.stat.gov.az.
28. www.un.org/sustainabledevelopment/